RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 54 (9509) 10 mart 2024-cü il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





# Azərbaycan beynəlxalq "yaşıl enerji" mərkəzinə çevrilir

"Yaşıl Enerji" Məşvərət Şurasının 2-ci iclasında da məhz bərpaolunan enerjinin inkişafı istiqamətində həyata keçirilən bu və digər tədbirlərdən bəhs edilib. Prezident İlham Əliyev martın 1-də "Gülüstan" sarayında keçirilən iclasda çıxış edərkən bu məsələyə də toxunaraq deyib:" Bizim bərpaolunan enerji ehtiyatları baxımından nəhəng potensialımız var, istər Xəzər dənizində, istərsə də qurudakı potensial olsun. Bildiyimiz kimi, biz "Qara Dəniz Yaşıl Kabel" layihəsi ilə Avropaya "yaşıl enerji"nin önəmli ixracatçılarından biri olmağı nəzərdə tuturuq. Artıq qərara alınıb ki, bu layihə inteqrasiya edilmiş layihə olmaqla Xəzər dənizindəki külək dəyirmanlarından yeni ötürücü xətlərlə Qara dənizin dibi ilə Avropaya gedəcək. Beləliklə, bunlar bizim planlardır. Əlbəttə ki, bərpaolunan enerji mənbələrimiz nə qədər çox olsa, indi elektrik enerjisi istehsalı üçün istifadə etdiyimiz təbii qaza daha çox qənaət etmiş olacağıq".

Toplantıda vurğulanıb ki, 2030-cu ilədək planlaşdırılan 10 QVt "yaşıl enerji" güclərinin ilkin mərhələdə 5 QVt-nın Qara dəniz və Türkiyə üzərindən "yaşıl dəhliz"lərlə Avropaya ixracı həmçinin Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığın "yaşıl keçid"inə də töhfə verəcək.

Avropa Komissiyasının enerji məsələləri üzrə komissarı Kadri Simson çıxışında bildirib ki, enerji təhlükəsizliyinə nail olmaq və bu mühüm onillikdə enerji keçidinə uğur qazanmaq üçün etibarlı tərəfdaşlar arasında daha çox dialoq və əməkdaşlığa ehtiyac var."Azərbaycan qaz təchizatında Aİ üçün etibarlı tərəfdaş olmaqda davam edir. Buna görə biz indi də əməkdaşlığı "yaşıl elektrik" enerjisinə qədər genişləndirməyi araşdırırıq. Biz artıq bu ilin sonunda COP29 üzrə Azərbaycanla əməkdaşlığı səbirsizliklə gözləyirik".

Türkiyənin energetika və təbii ehtiyatlar nazirinin müavini Nevzat Şatıroğlu da Məşvərət Şurasının toplantısını yüksək dəyərləndirib: "Bu görüşdə belə yüksəksəviyyəli iştirak region ölkələrinin enerji təhlükəsizliyi və "yaşıl enerji" ilə daha təmiz gələcək istiqamətində əməkdaşlıq əzmini nümayiş etdirir.

→ 10

## Birinci vitse-prezident Mehriban Əliyeva Beynəlxalq Qadınlar Günü münasibətilə paylaşım edib




# "İslam sülh, mərhəmət, dözümlülük və ədalət dinidir"

## "Müxtəlifliyin qorunması: 2024-cü ildə islamofobiya ilə mübarizə" mövzusunda beynəlxalq konfransın iştirakçılarına

Hörmətli konfrans iştirakçıları.

Sizi "Müxtəlifliyin qorunması: 2024-cü ildə islamofobiya ilə mübarizə" mövzusunda Bakıda keçirilən beynəlxalq konfransda salamlayıram. Bugünkü tədbirin İslam aləmi üçün mübarək Ramazan ayının başlaması və "İslamofobiya ilə Beynəlxalq Mübarizə Günü" ərəfəsində keçirilməsi rəmzi məna kəsb edir.

Təəssüflər olsun ki, dünyada islamofobiya meyilləri sürətlə artmaqdadır. İslamın potensial təhlükə mənbəyi kimi aşılandığının, müsəlmanlara qarşı şübhə, ayrı-seçkilik və açıq nifrətin gündən-günə daha geniş yayıldığının şahidi oluruq. İslamofobiya ilə Mübarizə Gününə dair BMT-nin Qətnaməsində də qeyd edildiyi kimi, dini inanclarla bağlı ayrı-seçkilik, dözümsüzlük və şiddət hallarının çoxalması dərin narahatlıq doğurur.

Acınacaqlı haldır ki, hazırda islamofobiya özünü demokratik hesab edən bir sıra Qərb ölkələrinin dövlət siyasətinin tərkib hissəsini təşkil edir. Son bir ildə dünyada baş vermiş bütün anti-İslam təzahürlərinin 80 faizi bu ölkələrin payına düşür. İslamofobiyanın ən yüksək səviyyəyə çatdığı və rəsmi ideologiya kimi tətbiq olunduğu bəzi Avropa ölkələrində müqəddəs kitabımız "Qurani-Kərim"in yandırılması, Məhəmməd Peyğəmbərin (s.ə.s) karikaturalarının nəşr edilməsi və sair təhqiramiz hərəkətlər söz azadlığı kimi qələmə verilir. Fransa özünün ənənəvi neokolonializm siyasəti ilə bərabər müsəlmanlara qarşı açıq-aşkar təzyiq və diskriminasiya siyasəti yürüdür, müxtəlif islamofob kampaniyalar təşkil edir. "Dünyəvilik" adı altında sırf müsəlmanların hüquq və azadlıqlarının məhdudlaşdırılmasına yönəlmiş qanunvericilik aktları və siyasi qərarlar qəbul edir. Bu ölkədə məscidlər, müsəlman mədəniyyət mərkəzləri və qəbiristanlıqlar müxtəlif formalarda təhqirlərə məruz qalır, müsəlman vətəndaşlar sıxışdırılır.

Müsəlmanların hisslərini təhqir edən bu cür təzahürlərlə mübarizə aparmaq, cinayətkarları məsuliyyətə cəlb etmək əvəzinə, həmin ölkələrin hökumətləri islamofob əhvali-ruhiyyəni daha da qızışdırır, müsəlmanlara qarşı təqibləri təlqin edir və bu kimi mövzuları davamlı olaraq gündəlikdə saxlamağa çalışırlar. Təəssüflər olsun ki, özlərini demokratik adlandıran bəzi Qərb təsisatları da anti-İslam fəaliyyətini həyata keçirirlər. Bu gün Avropa Parlamenti və Avropa Şurasının Parlament Assambleyası islamofobiyanı təşviq edən və bu ideologiya əsasında siyasət yürüdən platformalara çevrilmişdir.

Hazırkı mənfi tendensiya bəzi qlobal media qurumlarının fəaliyyətində də özünü büruzə verir. Bu qurumlar tərəfindən İslam dininə, İslam mədəniyyətinə qarşı məqsədyönlü şəkildə fəaliyyət aparılır, İslamın gerçək mahiyyətini təhrif etməklə onu terrorla eyniləşdirmək, ləkələmək və qaralamaq cəhdləri həyata keçirilir.

Biz vüsət almaqda olan və dinimizi gözdən salmağa yönəlmiş bu meyilləri qəti şəkildə pisləyirik. İslam sülh, mərhəmət, dözümlülük və ədalət dinidir. Dünya xəritəsinə baxdıqda, terrordan ən çox əziyyət çəkənlərin məhz müsəlmanlar olduğunu görə bilərik.

Azərbaycan da islamofobiyadan əziyyət çəkən ölkədir. Ermənistan tərəfindən torpaqlarımızın 30 illik işğalının ən ağır fəsadlarından biri də bəşəri əhəmiyyətə malik mədəni irsimizin, o cümlədən İslam dininə aid abidələrin qəsdən dağıdılması və məhv olunmasıdır. İlkin araşdırmalara görə işğal dövründə 65 məscidin yerlə yeksan edildiyinə dair məlumatlar olsa da, təəssüf ki, bu rəqəmlər getdikcə daha da artır və İslam irsinə qarşı erməni vandalizminin çoxsaylı yeni nümunələri ortaya çıxır. Bundan əlavə, bu ərazilərdə yüzlərlə müsəlman qəbiristanlığının məhv edildiyi, müsəlman dini ibadət yerlərinin, məscid və türbələrimizin təyinatının dəyişdirilərək saxtalaşdırıldığı, bir çox hallarda isə tövlə kimi istifadə olunaraq orada dinimizdə haram sayılan heyvanların saxlanıldığı faktları aşkar edilir. Bu cür həqarət aktları yalnız bizim deyil, bütün dünya müsəlmanlarının hisslərini təhqir edir.

Eyni zamanda Ermənistan ərazisində yerləşən Azərbaycanın İslam tarixi-mədəni irsinin məhv edilməsi böyük məyusluq doğurur. Azərbaycan UNESCO-ya müraciət edərək Ermənistanda illər ərzində dağıdılmış mədəni və dini abidələrimizin vəziyyətinin qiymətləndirilməsinin aparılması məqsədilə bu ölkəyə texniki missiyanın göndərilməsinə çağırış etmişdir. Əfsuslar olsun ki, UNESCO indiyə kimi bu çağırışa cavab verməmişdir.

Biz Azərbaycanın çoxmillətli və çoxkonfessiyalı ölkə olması ilə fəxr edirik. Burada bütün dinlərin və etnik qrupların nümayəndələri əmin-amanlıq şəraitində bir ailə kimi yaşayırlar. Ölkəmizdə milli sərvət kimi qorunan dini bərabərlik və inklüzivlik Azərbaycan xalqının həyat tərzidir, onun güc mənbəyidir. Bundan irəli gələrək, təbiidir ki, multikultural dəyərlərə hörmət bizim dövlət siyasətimizin prioritet istiqamətlərindən birini təşkil edir.

Ölkəmiz dünya miqyasında da sülh, dinc birgəyaşayış, humanizm dəyərlərinin təbliği və təşviqi üçün əlindən gələni əsirgəmir. Azərbaycan müxtəlif mədəniyyətlər arasında ahəngdar münasibətləri dəstəkləyir, qarşılıqlı anlaşmaya nail olunması naminə sivilizasiyalar və mədəniyyətlərarası dialoq zəminində davamlı olaraq bir çox qlobal təşəbbüslər irəli sürür. May ayında Bakıda keçiriləcək və artıq yaxşı ənənəyə çevrilmiş Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu bunun bariz nümunələrindəndir.

XXI əsrdə islamofobiya, ksenofobiya və irqçiliyə yer olmamalıdır. Terrorizm və ekstremizmi hər hansı bir din, millət, sivilizasiya və ya etnik qrupla əlaqələndirmək yanlış yanaşmadır. Dindən siyasi məqsədlər üçün istifadə yalnız cəmiyyətlər daxilində nifaq və qarşıdurma yaratmağa xidmət edir. Bu təzahürlər eyni zamanda insanlığı humanizm ideallarından və ümumbəşəri dəyərlərdən məhrum edir, nəticədə sivilizasiyalararası münaqişələrə gətirib çıxarır.

Bugünkü tədbir Azərbaycanın müasir dövrün çağırışlarından olan islamofobiya ilə mübarizə əzmini nümayiş etdirir. Əminəm ki, konfrans islamofobiyaya qarşı birgə səylərlə mübarizəyə, dinlərin və inancların müxtəlifliyinə hörmətə əsaslanan tolerantlıq və sülh mədəniyyətinin təşviqi ilə bağlı yeni təşəbbüslərin irəli sürülməsinə töhfə verəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, konfransın işinə uğurlar diləyirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 mart 2024-cü il*

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Fevralın 7-də keçirilən seçkilərdə yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə İspaniya Hökumətinin adından Sizə təbrikimi çatdırıram.

Yeni mandatınız dövründə Sizə bol uğurlar arzu edir və son illərdə irəliləyişlərin nəzərə çarpdığı iqtisadi sahə də daxil olmaqla İspaniya Hökumətinin ölkələrimiz arasında əlaqələrin inkişafını davam etdirmək istəyini Sizə bildirir, qarşılıqlı faydalı əməkdaşlığın böyük potensialının mövcud olduğunu qeyd edirəm.

Həmçinin bu günədək sülh yolunda göstərilən səyləri davam etdirmək üçün lazım olanı arzulayır, Qafqaz regionu üçün tezliklə ədalətli, davamlı və beynəlxalq hüquq tərəfindən hörmətlə qarşılanan sülhün olması istəyimi Sizə çatdırıram. Bilirsiniz ki, bunun üçün İspaniyanın və Avropa İttifaqının dəstəyi Sizinlədir.

Cənab Prezident, fürsətdən istifadə edərək Sizə dərin ehtiramımı çatdırıram.

*Hörmətlə,*

***Pedro SANÇEZ,***
***İspaniya Hökumətinin sədri***

## Azərbaycan bütün təxribatların qarşısını qətiyyətlə alacaq

"Toplum TV"də aparılan araşdırmalar və ortaya çıxan danılmaz faktlar Qərbin, eyni zamanda ABŞ-nin Azərbaycanda indiyədək reallaşdırmağa çalışdığı növbəti "ssenari"lərinin uğursuzluğa düçar olduğunu bir daha göstərir. Bu fakt bir daha onu da göstərdi ki, özünün inkişaf dövrünü yaşayan Azərbaycan ona qarşı yönələn bütün təxribatların qarşısını alır və almaqda davam edəcək, lazımi anlarda qətiyyətli addımlar atacaq. Göründüyü kimi, təxribatyönümlü beynəlxalq təşkilatların ələ aldıqları yerli qrant şəbəkələri çox uzağa gedə bilmirlər və heç vaxt da gedə bilməyəcəklər. Bu təşkilatlar unudurlar ki, Azərbaycan xalqı öz Prezidenti ətrafında "dəmir yumruq" kimi birləşib. Daim mübarizəyə hazır olan bu yumruğu heç bir qüvvə qatlaya bilməz. Çünki Azərbaycanın beynəlxalq nüfuzu getdikcə artır, ölkəmiz dünyada söz sahibinə çevrilib.

→ 8

## Qərbin "azad media" prinsipləri ilə pərdələnmiş şəbəkələri ifşa edilir

Azərbaycan Respublikasında media azaddır və hər kəsin informasiya ilə təmin olunması üçün şərait, o cümlədən bütövlükdə media sahəsində fikir müxtəlifliyi və fəaliyyət azadlığı tam təmin edilib. Buna baxmayaraq, ölkədə bəzi "media qurumları" beşinci kolon funksiyasını yerinə yetirərək bir sıra Qərb dövlətləri və təsisatlarının imperialist niyyətlərinin aləti kimi çıxış edirlər. Ölkəmiz əleyhinə qarayaxma kampaniyasında iştirak edən belə təsisatların əksəriyyəti uzun müddət "azad media" prinsipləri altında pərdələnərək təxribatçılıqla məşğul olublar. Azərbaycan dövləti isə qərəzli kampaniyalara təmkinlə yanaşır, təxribatçılıqla məşğul olsa belə, yerli mediada "yaradıcı" prosesə müdaxilə etmirdi. Lakin milli təhlükəsizlik məsələləri hər bir dövlət üçün prioritetdir və Azərbaycan ölkənin fiziki sərhədlərini aşa bilməyən düşmənin daxildən beşinci kolon vasitəsilə milli təhlükəsizliyi təhdid etməsinə imkan verə bilməzdi.

→ 8

## Su qıtlığını aradan qaldırmağın sadə yolu:

### İTKİNİN QARŞISINI MAKSİMUM ALMAQ

Su qıtlığı bəşəriyyətin məhvinə səbəb olacaq fəlakətlərdəndir. Dünyanın hər yerində bu problemlə bağlı "SOS" siqnalı verilir və onu beynəlxalq səviyyədə aradan qaldırmağın yolları üzərində iş aparılır. Hər il bir ölkədə baş tutan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı (COP) da məhz bu məqsədə xidmət edir. Noyabrda Bakıda keçiriləcək COP29-un gündəliyində yer alan prioritetlərdən biri də su ehtiyatlarının toplanması istiqamətində görüləcək işlərə dəstək vermək olacaq.



→ 10

## Fitnə-fəsad ustası

### Emmanuel Makron hərəkəti və boşboğazlığı ilə Fransanı dünyada rüsvay edir

Fransa Prezidenti Emmanuel Makronun yürütdüyü siyasət ölkəsini bütün dünyada rüsvay edir. Makron planetin hər hansı nöqtəsində baş verən istənilən hadisəyə imper təfəkkürlə münasibət bildirməyi özünə borc bilir, amma onun fəaliyyəti danışmaqdan uzağa getmir. Az qala hər gün Rusiya-Ukrayna müharibəsinə münasibət bildirən, dünyanı Ukraynaya dəstək göstərməyə çağıran Makronun öz ölkəsinin Ukraynaya yardımı gülünc rəqəmlərdə ifadə olunur. Belə görünür ki, 2 ildir davam edən müharibədə Fransa Ukraynaya normal yardım belə etməyib. Makron ancaq Ukraynanı boşboğazlıq edərək silahlandırmaqla məşğuldur. Makron Fransa əsgərlərinin Ukraynada olmalı olduqlarını bəyan edir, o biri tərəfdən isə bu fikri elə-belə səsləndirdiyini deyir. Bu qədər məsuliyyətsizlik nəinki Fransa Prezidentinə, bu ölkənin kiçik bir şəhərinin merinə belə yaraşmır.

→ 9

# Bakıda "Müxtəlifliyin qorunması: 2024-cü ildə islamofobiya ilə mübarizə" mövzusunda beynəlxalq konfrans keçirilib

**Martın 8-9-da Bakıda "Müxtəlifliyin qorunması: 2024-cü ildə İslamofobiya ilə mübarizə" mövzusunda ikigünlük beynəlxalq konfrans keçirilib.**

AZƏRTAC xəbər verir ki, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin, G20 Dinlərarası Dialoq Forumunun və Bakı Təşəbbüs Qrupunun birgə təşkilatçılığı ilə keçirilən konfrans 15 Mart - İslamofobiya ilə Beynəlxalq Mübarizə Gününə həsr olunub.

Konfransın açılış mərasimində Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin beynəlxalq konfransın iştirakçılarına müraciətini oxuyub *(Müraciət qəzetin bugünkü nömrəsində dərc olunub).*

Tədbirdə çıxış edən Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru **Rəvan Həsənov** bildirib ki, Bakıda artıq ikinci dəfədir keçirilən konfransda beynəlxalq səviyyədə islamofobiyaya qarşı mübarizə kontekstində nələr edə biləcəyimiz müzakirə ediləcək. Yaşadığımız dövrdə ayrı-seçkilik, islamofobiya günümüzün reallığıdır. İnsanlara qarşı diskriminasiya, nifrət nitqi, təcrid olunma kimi problemlər bizim həyatımızı çətinləşdirir.

O deyib ki, hazırda hər kəs dünyada müsəlmanların təcrid edilməsi və onlara qarşı ayrı-seçkiliyin şahidi olur: "Bu hallara xüsusilə Qərb ölkələrində rast gəlinir. Müsəlmanlara qarşı mənfur əməllər davam etdirilir. Biz hamımız sülh şəraitində yaşaya bilərik".

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) İdarə Heyətinin sədri **Fərid Şəfiyev** qeyd edib ki, bugünkü dünyada xristianlar da ayrı-seçkiliyin qurbanı olur. Ona görə də bütün dünya bu ayrı-seçkiliyə qarşı mübarizə aparmalıdır. İslamofobiyadan danışarkən gender məsələlərinin də müzakirəsi olduqca vacibdir. İslamofobiyaya qarşı mübarizə aparmaq üçün siyasi və beynəlxalq addımlar atılmalıdır.

Fransada Xurşidbanu Natəvanın abidəsinə qarşı törədilən vandallıq aktından da danışan F.Şəfiyev bildirib: "Azərbaycan həmin abidəni Fransadakı səfirliyinə köçürdü. Bu vandallıq aktı Fransanın ölkəmizə qarşı siyasəti ilə bağlıdır".

BMTM-in İdarə Heyətinin sədri deyib ki, hazırda qlobal mediada da ayrı-seçkilik müşahidə olunur: "Bizim təşkilatçılıq etdiyimiz tədbirlər Qərbdən idarə olunan media qurumları tərəfindən mütəmadi qaydada tənqid edilir".

Konfransın açılış mərasimində BMT Baş katibinin müavini, BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi **Migel Anxel Moratinosun** tədbir iştirakçılarına müraciəti səsləndirilib.

Müraciətdə bildirilib ki, dünyada bir çox müsəlmanın islamofobiyanın qurbanı olmağı böyük təəssüf doğurur. İslamofobiyanın dünyanın müxtəlif ölkələrində yayılması müsəlmanlara qarşı nifrət deyil, fobiyadır.

Müsəlmanlara qarşı nifrətin insan hüquqlarına zidd olduğunu deyən Migel Anxel Moratinos qeyd edib ki, ədalətli, sülh içində bir dünya yaratmaq üçün bütün insanlar qeyri-tolerantlığa qarşı mübarizə aparmalıdır: "Dünyada bütün dinlərin əsasında mərhəmət və qarşılıqlı hörmət dayanır. Bunu qorumaq isə bizim borcumuzdur".

İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Baş katibinin siyasi məsələlər üzrə köməkçisi **Yusif Əl-Dubei** konfransda çıxış edərək bildirib ki, Birləşmiş Millətlər Təşkilatının 15 mart tarixini İslamofobiya ilə Beynəlxalq Mübarizə Günü elan etməsi islamofobiyaya qarşı mübarizədə mühüm addımdır. Bu mübarizədə bizim üzərimizə böyük məsuliyyət düşür.

O qeyd edib ki, Azərbaycan bu illər ərzində islamofobiyaya qarşı mübarizəyə həsr olunan yüksəksəviyyəli müxtəlif tədbirlər keçirib, nümunəvi addımlar atıb. Bu tədbirin keçirilməsi də Azərbaycanın güclü öhdəliyini əks etdirir. "İslam Əməkdaşlıq Təşkilatı bugünkü konfransın nəticələrini səbirsizliklə gözləyir", - deyə qonaq əlavə edib.

İƏT Baş katibinin köməkçisi diqqətə çatdırıb ki, dünyada təxribat xarakterli aktların törədilməsi davam edir. İnsanlar dini inanclarına görə hədəfə alınır. "Müsəlmanlara qarşı təzyiqlərin, ayrı-seçkilik hallarının qarşısını almaq üçün müxtəlif tədbirlər görülməlidir. İƏT beynəlxalq təşkilatları, vətəndaş cəmiyyətlərini bu hallara qarşı birləşməyə, səfərbər olmağa çağırır", - deyə Yusif Əl-Dubei vurğulayıb.

Konfransda çıxış edən G20 Dinlərarası Dialoq Forumunun prezidenti **Kol Durham** deyib ki, islamofobiya ilə var gücümüzlə mübarizə aparıb bu problemi kökündən həll etməliyik. O qeyd edib ki, dünyada İslam dininə qarşı qərəzli münasibətə, mənfi tendensiyalara adekvat cavablar verilməlidir. Ona görə də islamofobiya ilə mübarizənin əhatə dairəsi genişləndirilməlidir.





Açılış mərasimindən sonra beynəlxalq konfrans işini plenar iclasla davam etdirib.

## Plenar iclas: Tolerantlığı, sülhü, insan hüquqlarına və dini müxtəlifliyə hörməti təşviq etmək üçün qlobal dialoqa çağırış

Beynəlxalq konfrans çərçivəsində "Tolerantlığı, sülhü, insan hüquqlarına və dini müxtəlifliyə hörməti təşviq etmək üçün qlobal dialoqa çağırış" mövzusunda keçirilən plenar iclasa moderatorluğu ADA Universitetinin Dövlət, xarici və tələbə işləri üzrə prorektoru **Fariz İsmayılzadə** edib.

Tədbirdə sülh, insan hüquqlarına və dini müxtəlifliyə hörmət kimi ortaq məqsədlərə nail olmağa yönəlmiş əməkdaşlıq səyləri və perspektivləri ilə bağlı müzakirələr aparılıb.

İclasda çıxış edən Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam **Allahşükür Paşazadə** bildirib ki, Azərbaycanın islamofobiya ilə mübarizəyə dair beynəlxalq konfranslara evsahibliyi etməsi artıq ənənə halını alıb. Dinlərarası qardaşlıq mühitinin hökm sürdüyü Azərbaycan milli, mədəni, dini dəyərlərini də unutmur. Ölkəmiz multikulturalizm baxımından dünyada nümunəyə çevrilib. Burada yaşayan insanlar dinindən, irqindən asılı olmayaraq eyni hörməti görürlər.

Azərbaycanın işğaldan azad olunan ərazilərində İslam dininə aid abidələrə qarşı törədilən vandalizmi xatırladan Şeyxülislam qeyd edib ki, əsarətdən qurtulmuş məscidlər yenidən bərpa olunur. "Azərbaycanda bütün dinlərə məxsus ibadət məkanları qorunur. Çünki bizim dinimiz əmin-amanlıq dinidir və İslamdan təxribatlar üçün sui-istifadə olunması yolverilməz haldır. Təəssüf ki, son dövrlər Avropanın daha çox ölkəsində islamofobiyanı müşahidə etmək mümkündür. Bəzi Qərb dövlətlərinin apardığı siyasət nəticəsində islamofobiya halları artıb. Müsəlmanlar həmin ölkələrdə ciddi problemlərlə üzləşirlər", - deyən Şeyxülislam əlavə edib ki, Azərbaycan hər zaman milli, dini qarşıdurmalara yol açan fikirlərlə mübarizədə fəallıq göstərib. Dünya ictimaiyyəti də milli, dini, irqi ayrı-seçkiliyə "yox!" deməlidir.

ICESCO-nun Sivilizasiyalararası Dialoq Mərkəzinin direktoru **Xalid Fətəlrahman Ömər Məhəmməd** çıxışında qeyd edib ki, Prezident İlham Əliyevin apardığı məqsədyönlü siyasət nəticəsində Azərbaycan hökuməti islamofobiyaya qarşı mübarizədə böyük işlər görür.

İslam Əməkdaşlıq Təşkilatının (İƏT) sivilizasiyalararası dialoqu inkişaf etdirdiyini söyləyən Xalid Fətəlrahman Ömər Məhəmməd İslam və xristian dinlərinin nümayəndələri arasında bağlılığın artdığını deyib. Vurğulayıb ki, bu, səmərəli dialoqun nəticəsidir.

İslam Əməkdaşlıq Təşkilatının İslamofobiyanın Müşahidə Mərkəzinin rəhbəri **Dodik Ariyanto** isə islamofobiyanın artıq bir qlobal fenomenə çevrildiyini söyləyib. O, BMT Baş Assambleyasının islamofobiyaya qarşı mübarizə ilə bağlı qətnaməsinin qəbul edilməsini mütərəqqi hal kimi qiymətləndirdiklərini bildirərək deyib: "Bu cür sənədlər qlobal səviyyədə islamofobiyanın mövcud olduğunu təsdiqləyir".

Dodik Ariyanto hökumətlərin, QHT-lərin, beynəlxalq təşkilatların bu mübarizədə mühüm rolunu vurğulayıb. Diqqətə çatdırıb ki, islamofobiyaya qarşı mübarizə fərqli cəbhələrdə aparılmalıdır. Burada, əlbəttə, dinlərarası dialoq mühüm rol oynayır. Belə tədbirlərin sayını artırmalı, tolerantlıq, sülh və əmin-amanlığı təbliğ etməliyik".

Cənubi Afrika Respublikasının ABŞ-dəki sabiq səfiri, Hamı üçün Dünya Fondunun təsisçisi **Ebrahim Rasul** diqqətə çatdırıb ki, son yüz ildə dünyada müharibələr, irqçilik, islamofobiya kimi mənfi təzahürlərin şahidi oluruq. Müasir dövrdə bu dərəcədə nifrət, gender əsaslı zorakılıqlar ciddi narahatlıq doğurur. Biz bu cür çətinliklərlə hər gün üzləşirik.

Qonaq bildirib ki, son 100 ildə Qərbdə islamofobiya genişlənib, inkişaf edib. Bizim multikultural dünya üçün mübarizəmiz, eyni zamanda irqçiliyə, ayrı-seçkiliyə qarşı mübarizə deməkdir. Bütün bu məsələlər qorxudan, qərəzdən qaynaqlanır. Biz əsas səbəblərlə mübarizə aparıb onları həll etməliyik. Mübarizəmiz kompleks şəkildə olmalıdır.

Dünya Müsəlman İcmaları Şurasının baş katibi **Məhəmməd Beçəri** qeyd edib ki, BMT insan hüquqlarına ehtiramın, multikulturalizm ideologiyasının üzərində qurulan bir təşkilatdır. Təəssüf ki, bu təşkilat islamofobiyanın qarşısını ala bilmir.

İslamofobiyanın ideoloji faciəyə çevrildiyini bildirən M.Beçəri qeyd edib: "İslamofob fikirlərə artıq bir sıra Avropa ölkələrinin liderlərinin çıxışlarında da rast gəlinir. Müsəlman qadınlar hicab geyindikləri üçün işləyə, təhsil ala bilmirlər. Onlar ictimaiyyətdə çox ciddi ayrı-seçkiliklə üzləşirlər. Qərb ölkələrində 50 milyona yaxın müsəlman yaşayır. Ancaq onlar həmin ölkələrin vətəndaşları ilə eyni dəyəri görmürlər".

Baş katib islamofobiya hallarının qarşısını almaq üçün təkliflər irəli sürüb, seminarların, forumların keçirilməsinin vacibliyinə diqqət çəkib, tədbirin təşkilinə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirib.

Böyük Britaniya Müsəlmanları Parlament Qrupunun sədr müavini **Əfzal Xan** isə qeyd edib: "İslamofobiya elə bir irqçilikdir ki, Qərbdə daha aydın görünür. Belə ki, son aylarda dünyada islamofobiya halları 335 faiz artıb. Bundan əlavə, Yeni Zelandiyada 51 müsəlman öldürülüb".

O deyib ki, Böyük Britaniyada müsəlmanlar daha çox yoxsulluq vəziyyətində yaşayır və onların 35 faizi islamofobiyaya məruz qalır.

Əfzal Xan əlavə edib ki, Britaniyada böyük partiyalarda belə müsəlmanlara qarşı ədalətsizlik var. Hətta Baş nazir də müsəlmanlara qarşı qərəzli münasibət göstərir. Ona görə də bu problemi həll etmək üçün əvvəlcə rəhbərlər dəyişməlidir. Bu, endemik problemdir. Bu mübarizə yalnız islamofobiyaya qarşı yox, həmçinin irqçiliyə qarşıdır.

İclas mövzu ətrafında müzakirələrlə davam edib.

## Multikulturalizm, İslam və sivilizasiyaların toqquşması nəzəriyyəsi: İslamofobiyanın yenidən düşünülməsi

ABŞ Daxili Təhlükəsizlik Departamentinin keçmiş direktor müavini, İnanc Əsaslı və Qonşuluq Tərəfdaşlıqları Mərkəzi, Dini Etiqad Azadlığı üzrə Amerika Mərkəzinin direktoru **Janna Skotun** moderatorluğu ilə keçirilən "Multikulturalizm, İslam və sivilizasiyaların toqquşması nəzəriyyəsi: İslamofobiyanın yenidən düşünülməsi" mövzusunda aralıq sessiyada çıxış edən İslam Tarixi, İncəsənəti və Mədəniyyəti Araşdırma Mərkəzinin (IRCICA) baş direktoru **Mahmut Erol Kılıç** islamofobiyanın kifayət qədər sürətlə artan xroniki xəstəliyə bənzədiyini deyib. Bildirib ki, bu problem cəmiyyətdə müxtəlif səviyyələrdə təzahür edir. İslamofobiyanı epidemiya kimi təsvir etmək daha doğru olar.

İslamofobiyanın şəxsi zəmində yaranan qərəz olduğuna diqqət çəkən baş direktor qeyd edib: "Bəzi ölkələr islamofobiyanı öz siyasətlərinin bir parçasına çevirib. Bu isə dünyanı sülhdən uzaqlaşdırır. Əgər özümüzdən sonra gələn nəsillərə sülh dolu dünya ötürmək istəyiriksə, islamofobiyaya qarşı birgə mübarizə aparmalıyıq. Yanlış məlumatlar cəmiyyətdə islamofob fikirləri formalaşdıra bilər. İslamofobiyanın real təsirləri isə gələcək nəsillər üçün daha faciəvi olacaq".

Böyük Britaniyanın Srebrenitsanı xatırlama təşkilatının sədri və "Badger" Sağlamlıq Qrupunun baş icraçı direktoru **Vəqaruzzaman Əzmi** diqqətə çatdırıb ki, islamofobiya müsəlmanlara qarşı yalnız pis rəftarla məhdudlaşmır, onun kökündə daha mənfi məqamlar var. Çox şadam ki, Azərbaycan islamofobiya ilə mübarizədə öndə gedir, belə tədbirlər keçirir, bu məsələləri müzakirəyə çıxarır. İslamofobiyaya qarşı qlobal strategiya ilə mübarizə apardığı üçün Azərbaycan Prezidentini, Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Çünki islamofobiyaya qarşı mübarizə qlobal perspektivdə ən fundamental məsələlərdən biridir, onun qlobal strategiyaya ehtiyacı var.

"İslamofobiya soyqırımıdır, etnik təmizləmədir, müsəlman əhalinin əmlakının dağıdılması, saxtalaşdırılmasıdır. Müsəlmanları qeyri-insanlar kimi qələmə verməyə çalışırlar. İnsanları alçaltma ideologiyası kifayət qədər genişlənib", - deyə o qeyd edib.

ABŞ Müsəlman Təşkilatları Şurasının Baş katibi **Oussama Ali Cammal** vurğulayıb ki, müsəlman amerikalılara qarşı ayrı-seçkiliyin hələ də davam etməsi təəssüf doğurur. 2001-ci il sentyabrın 11-də ABŞ-də qüllələrin partladılması müsəlman amerikalılara yanaşma tərzini dəyişdi, milyonlarla günahsız müsəlman kütləvi hücumlara məruz qaldı.

Müsəlmanlara qarşı ayrı-seçkiliyin geniş vüsət aldığını qeyd edən Oussama Ali Cammal bildirib ki, onlar hava limanlarında ən azı beş dəfə yoxlanılır. Beynəlxalq ictimaiyyətdə onları terrorçu kimi qələmə verirlər. Bəzi ölkələrin rəhbərlərinin islamofob olmaları isə daha ciddi problemlər yaradır. İslam bərabərlik, hörmət, sevgi dinidir. Bizim dinimizdə heç bir ayrı-seçkiliyə yer yoxdur.

İslamofobiyaya qarşı mübarizədə təhsilin və maarifləndirmənin çox önəmli olduğunu vurğulayan Baş katib Prezident İlham Əliyevə təşəkkür edərək deyib: "Belə forumların keçirilməsinə dəstək göstərmək böyük işdir. İnanıram ki, Azərbaycan və ABŞ müsəlmanları arasında dostluq münasibətləri daha da inkişaf edəcək".

Sessiyada çıxış edən Türkiyə Dəyanət Vəqfi İslam Araşdırmaları Mərkəzinin vitse-prezidenti **Yaşar Çolak** qeyd edib ki, islamofobiya günümüzdə sürətlə yayılır. Onun cəmiyyətə mənfi nəticələri danılmazdır. İslamofobiya sistemli şəkildə genişlənərək gündəlik həyatımızın ayrılmaz bir parçasına çevrilir.

"Cəmiyyətdə və mediada yayılan, qərəzli şəkildə saxtalaşdırılmış yanlış tarixi məlumatlar islamofobiyaya "töhfə" verir. Vəhdət şəklində aparılmayan əməkdaşlıq, təhlillər bizi asanlıqla sosial tələlərə düşürə bilər. Bu işdə psixologiya, milli mentalitet amilləri xüsusilə nəzərə alınmalıdır. Mürəkkəb məsələlərin həllində çoxtərəfli yanaşma tətbiq edilməli, dərin təhlillər aparılmalıdır", - deyə Yaşar Çolak əlavə edib.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri **Elşad İskəndərov** bildirib ki, bu yaxınlarda Fransada Xurşidbanu Natəvanın heykəlinə qarşı törədilən vandalizm islamofobiyanın ən bariz nümunəsidir.

Xurşidbanu Natəvanın heykəlinin Azərbaycan tərəfindən xilas edildiyini bildirən Elşad İskəndərov deyib ki, bu fakt islamofobiyanın günümüzün reallığı olduğunu daha açıq şəkildə göstərir. "Dünya sürətlə dəyişir və islamofobiya çoxqütblü dünyanın "məhsulu"dur. Son 50 ildə Qərb ölkələri islamofobiya fenomenini daha da inkişaf etdirir. Onlar müsəlmanları ictimaiyyətdə terrorçu kimi qələmə verir, sanki terror aktlarının, sadəcə, müsəlmanlar tərəfindən törədildiyini bildirirlər", - deyə Elşad İskəndərov söyləyib.

Aix-Marsel Universitetində İslamşünaslıq üzrə müəllim **Batist Brodard** isə İslamın heç də sağ və sol qanad, Qərb ideologiyası ilə uzlaşmağa ehtiyacının olmadığını deyib. Bildirib ki, İslamın öz tarixi, baxışı, ideologiyası, dəyərləri var. İslam bəşəri din kimi qəbul edilməlidir. İslam din olaraq heç bir xalqa, tayfaya aid deyil.

Qətər Beynəlxalq Siyasət Araşdırmaları Mərkəzinin tədqiqat direktoru, beynəlxalq əlaqələr üzrə professor **Bülent Aras** isə diqqətə çatdırıb ki, İslamı terrorçu din kimi təqdim edənlər dövlətlərarası münaqişələrin dinlərlə bağlı olmadığına nəzər salmalıdırlar.

Multikulturalizmin sülh və əmin-amanlıq şəraitində yaşamağın yeganə yolu olduğuna diqqət çəkən professor qeyd edib ki, heç bir millət digərindən üstün deyil. "İslamofobiyanın heç bir real səbəbi yoxdur. Bu, sadəcə, bölücü siyasətin tərkib hissəsidir. Yeganə həll yolu dövlətlərin öz siyasətini dəyişdirmələridir. İslamofobiyanı tətbiq edən ölkələr bu səbəbdən gələcəkdə ciddi problemlər yaşaya bilər", - deyə o vurğulayıb.

## İctimai rəyin formalaşdırılması: Rəqəmsal islamofobiya

Beynəlxalq konfrans çərçivəsində keçirilən "İctimai rəyin formalaşdırılması: Rəqəmsal islamofobiya" mövzusunda sessiyaya "Əl-Cəzirə" televiziyasının aparıcısı **Sami Zeydan** moderatorluq edib.

Sessiyada çıxış edən Niderlandın Qroningen Universitetinin professoru **Seyfəddin Kara** bildirib ki, media subyektləri müəyyən məsələləri kontekstindən çıxararaq fərqli təqdim etməklə sanki müsəlmanların cəmiyyətə mənfi təsir göstərdiklərini diqqətə çatdırmağa çalışır. "2001-ci il sentyabrın 11-də törədilmiş terror aktından sonra müsəlmanlara qarşı nifrətin ideoloji şəkildə yayılmasına cəhd göstərilir, İslam və müsəlmanlar hədəfə alınır", - deyə professor əlavə edib.

Nyu-York Şəhər Universitetinin Bruklin Kollecinin ingilis ədəbiyyatı üzrə professoru **Mustafa Mohamed Bayomi** diqqətə çatdırıb ki, islamofobiyaya qarşı mübarizədə uğur qazanmaq üçün sistemli iş aparılmalı, bütün məsələlər əhatə olunmalıdır. O, islamofobiya üzərindən müxtəlif manipulyasiyaların aparıldığını vurğulayaraq bəzi media qurumlarının da bu prosesdə fəal iştirak etdiyini bildirib.

"Əl-Cəzirə" Media şəbəkəsinin rəqəmsal bölməsinin məzun strategiyası üzrə meneceri **Camaluddin Mohammad Farid Elşayyal** dünyanın müxtəlif yerlərində müsəlmanlara qarşı ədalətsizliklərin baş verdiyini, onların sıxışdırıldığını vurğulayıb: "İslamofobiya özlüyündə yeni deyil. Məhəmməd Peyğəmbərin yaşadığı dövrdə də ona qarşı haqsızlıqlar baş verirdi". O qeyd edib ki, ən çox vandallığa məscidlər, ümumiyyətlə, İslam dininə aid dəyərlər məruz qalır. "Hazırda rəqəmsal platformalardan istifadə edərək öz mövqeyimizi aydın şəkildə ifadə edə bilərik", - deyə menecer bildirib.

"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədr müavini **Rüfət Həmzəyev** Azərbaycanın ərazi bütövlüyünü bərpa etdiyi 44 günlük Vətən müharibəsi zamanı sosial mediada müharibə haqda qərəzli mövqe nümayiş etdirildiyini diqqətə çatdırıb. "Media həmin vaxt obyektivlik, qərəzsizlik prinsiplərini unutdu. Lakin biz sosial platformada bunun qarşısını ala bildik".

Azərbaycan əhalisinin əksəriyyətini müsəlman türklərinin təşkil etdiyini vurğulayan R.Həmzəyev əlavə edib ki, buna baxmayaraq, ölkəmiz haqsız şəkildə islamofobiya ilə bağlı tənqidlərlə üzləşir. Bir sıra ölkələrin xarici kəşfiyyat orqanları Azərbaycana qarşı təxribat xarakterli fəaliyyət həyata keçirməyə cəhd göstərirlər. Bir çox media nümayəndələri də ölkəmizlə bağlı absurd çıxışlar edir, müsəlmanları terrorçularla eyni sıraya qoymaq istəyirlər. Türk sözünü təhqiredici ifadə kimi istifadə etməyə çalışırlar.

Merilend Universitetinin kommunikasiya üzrə dosenti **Sahar Mohamed Xamis** bildirib ki, dünyada qaçqın və miqrant problemi, sərt etirazlar və digər arzuolunmaz proseslər islamofobiyaya təsir edir, vəziyyəti gərginləşdirir. Sosial və rəqəmsal media vasitəsilə islamofobiyaya fərqli yanaşılır. "Məsələn, Qərbdə heç də hər kəs bilmir ki, İsa Peyğəmbər barədə "Qurani-Kərim"də məlumatlar yer alıb. Bu baxımdan İslama qarşı qərəzli davranışın səbəblərindən biri də məlumatsızlıqdır", - deyə S.Xamis qeyd edib.

Kaliforniya Dövlət Universitetinin professoru **Ahlam Hatem Almuhtasebin** çıxışında islamofobiyanın qlobal güclər tərəfindən yetişdirildiyini və inkişaf etdirildiyini diqqətə çatdırıb. Professor bildirib ki, həmin qruplara donorlar tərəfindən milyardlarla dollar vəsait ayrılır.

## Ali təhsil kontekstində islamofobiya ilə mübarizə

Konfransın birinci gününün son sessiyası "Ali təhsil kontekstində islamofobiya ilə mübarizə" mövzusuna həsr olunub.

Azərbaycan İlahiyyat İnstitutunun rektoru **Aqil Şirinovun** moderatorluq etdiyi sessiyada mövzu ilə bağlı fikirlərini bölüşən "Müslim İnstitutu" Araşdırma Mərkəzinin (İslamabadda və Londonda fəaliyyət göstərir) sədri, Hindistanın Cunagadh ştatının Baş naziri **Sahibzada Sultan Ahmad Ali** islamofobiya barədə danışan Qərbin İslamla bağlı kifayət qədər məlumatlı olmadığını deyib. Qeyd edib ki, son dövrlər islamofobiyanın artması müəyyən amillərlə bağlıdır. Vurğulanıb ki, son illərdə dünyanın müxtəlif yerlərində nifrət zəminində baş verən cinayətlər daha da artıb və bunu yanlış olaraq islamofobiya ilə əlaqələndirirlər.

Son 20 il ərzində islamofob elementlərin Qərbdə kifayət qədər artdığını diqqətə çatdıran Sultan Ahmad Ali islamofobiyanın elmi cəhətdən qarşısını almaq üçün ali məktəblərdə İslamın geniş spektrdə tədrisinin vacibliyini vurğulayıb.

Qətər Universitetinin "Körfəz" Tədqiqatlar Mərkəzinin direktoru **Mahcub Ahmed Suleman Zveiri** (Qətər) islamofobiyanı yaradanların özlərinə əmin olmadıqlarını vurğulayıb. Onun sözlərinə görə, min dörd yüz il və daha çox zaman kəsiyi İslam dininin münaqişələrə, müharibələrə, qadınlara, uşaqlara və ümumiyyətlə, hər cür şiddətə qarşı olduğunu artıq sübut edib.

Münaqişələrlə bağlı danışan Mahcub Ahmed Suleman Zveiri bildirib ki, islamofobiyadan danışanlar özlərinə baxsınlar və bizi radikallaşmağa sövq etməsinlər. O, islamofobiya ilə mübarizə üçün ali məktəb tələbələrinin bu ruhda tərbiyə edilməsinin əhəmiyyətini diqqətə çatdırıb.

Milli Məclisin deputatı **Tural Gəncəliyev** Azərbaycanın 30 il ərzində işğaldan əziyyət çəkdiyini, mədəni, tarixi abidələrimizin məhv edildiyini vurğulayıb. Deyib ki, bu, özü də elə islamofobiyadır. T.Gəncəliyev erməni diasporunun kilsələrdən manipulyasiya vasitəsi kimi istifadə etdiyini bildirib. Diqqətə çatdırıb ki, bəziləri islamofobiyadan, Azərbaycan və Türkiyə əleyhinə danışaraq bu "xidmətləri" sayəsində vəzifələrə təyin olunurlar. Deputat islamofobiya ilə mübarizədə "siyasi vaksin"in mövcudluğunu da diqqətə çatdırıb.

"Biz islamofobiya ilə sonadək mübarizə aparacağıq. Fransada Qarabağ xanının qızı Xurşidbanu Natəvanın heykəlinin vandalizmə məruz qalması islamofobiyadan danışanların iç üzünü göstərir", - deyə Tural Gəncəliyev əlavə edib.

Nur-Mubarak Misir İslam Mədəniyyəti Universitetinin rektoru **Mohamed Alşahhat Abdulhamid Mohamed Algindi** bildirib ki, hazırda müsəlmanlar fanatiklər, insan hüquqlarının, demokratiyanın əleyhinə olan insanlar kimi qələmə verilir. İslam isə demokratiyaya, insan hüquqlarına, müasir bəşəriyyətə, sivilizasiyaya, bəşəri dəyərlərə, tərəqqiyə qarşı olan din kimi göstərilir. Müsəlman ölkələrinin əksəriyyəti ilə bağlı belə fikirlərin şahidi oluruq. Ona görə də İslamın dəqiq mahiyyətini bilmək lazımdır. "Bütün müsəlman ölkələri BMT-nin Beynəlxalq İnsan Hüquqları Bəyannaməsini istisnasız qəbul ediblər.

*Ardı 3-cü səh.*

# Bakıda "Müxtəlifliyin qorunması: 2024-cü ildə islamofobiya ilə mübarizə" mövzusunda beynəlxalq konfrans keçirilib

*Əvvəli 2-ci səh.*











Müsəlman ölkələri BMT-nin üzvüdür. İslamla bağlı müasir dialoqlara ehtiyac var. Biz bu məsələni kökündən həll etməliyik", - deyə o bildirib. Rektor deyib ki, əfsuslar olsun, İslam ölkələrinin insanlarını dinləmirlər. Biz qlobal dialoqa getmək istəyiriksə, bu, sülhə, tolerantlığa, dözümə, mənəvi dəyər və prinsiplərə əsaslanmalıdır. Qərb ölkələri də bu məsələdən agah olmalıdırlar.

ABŞ-nin Ailə və Gənclər İnstitutunun direktoru **Samir Əhməd** qeyd edib ki, islamofobiyada institusional, eyni zamanda fərdi səviyyədə təsirlər var. Bu, kompleks, eyni zamanda çoxtərəfli bir fenomendir. Həm birbaşa, həm də dolayısı ilə aqressiyaya təkan verir. O diqqətə çatdırıb ki, islamofobiya ali təhsil müəssisələrində tələbələrin hərəkətlərinə də təsirsiz ötüşmür, bu zaman yanaşma və dəstək problemi özünü qabarıq göstərir. Bildirilib ki, bu gün müsəlman tələbələr Qərb ölkələrində şəxsi təhlükəsizlikləri ilə də bağlı narahatlıq hiss edirlər. Siyasi inanclarına görə müsəlmanlar təqib olunur. Bu, tələbələrin yaşayış şəraitinə təsir göstərir, onların təhlükəsizliyi ilə bağlı suallar ortaya çıxarır. Nəticədə həmin gənclər bütün proseslərdən kənarda qalmağa məcbur olur, nəticə etibarilə cəmiyyətdən təcrid olunurlar. Bu da islamofobiyanın mənfi nəticələridir. Belə problemləri həll etmək üçün kompleks yanaşma lazımdır.

Digər çıxış edənlər islamofobiya ilə mübarizənin əhəmiyyətini vurğulayıb, İslam dininin daha geniş spektrdə tədris və təbliğ olunması, ali məktəblərdə islamofobiya ilə mübarizə istiqamətində tələbələrin maarifləndirilməsi ilə bağlı fikirlərini bölüşüb, təkliflərini səsləndiriblər.

## Qərbi Avropada müsəlmanlara münasibətdə oxşarlıqlar və fərqliliklər, müsəlman ümmətində əsas insan hüquqları

Bakıda keçirilən "Müxtəlifliyin qorunması: 2024-cü ildə islamofobiya ilə mübarizə" mövzusunda beynəlxalq elmi konfrans martın 9-da işini plenar iclas və sessiyalar ilə davam etdirib.

"Qərbi Avropada müsəlmanlara münasibətdə oxşarlıqlar və fərqliliklər, müsəlman ümmətində əsas insan hüquqları" mövzusuna həsr edilmiş plenar iclasa "Haider Global BVBA Brüssel" şirkətinin baş direktoru **Səccad Kərim** moderatorluq edib.

Almaniya Müsəlmanları Mərkəzi Şurasının sədri **Ayman Mazyek** iclasda çıxışında rəhbərlik etdiyi qurumun əsas məqsədlərindən danışıb. Bildirib ki, Almaniya Müsəlmanları Mərkəzi Şurasının əsas hədəfi İslam əqidəsini ictimaiyyətə təhrif etmədən çatdırmaqdır. Əgər sülhün bərqərar olmasını istəyiriksə, dinlərarası dialoq vacibdir.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin islamofobiyaya qarşı gördüyü işləri yüksək dəyərləndirən Ayman Mazyek qeyd edib ki, Azərbaycan bu sahədə çox vacib addımlar atır. "Prezident İlham Əliyevin forum iştirakçılarına müraciəti zamanı vurğuladığı fikirlər tamamilə doğrudur. İslamofobiya kimi hallar bəşəri dəyərləri alt-üst edir. Qərb ölkələrində milli azlıqlara qarşı edilənlər göz önündədir. Ayrı-seçkiliyin ən böyük təzahürlərindən biri ikili standartlardır. Məsələn, Avropada müqəddəs kitab "Qurani-Kərim"in yandırılması normal qarşılanır. Ancaq həmin ölkələrdə Tövrat, İncil yandırıla bilməz. İslamı terrorçu din kimi qələmə verənlər xristianların törətdiyi terror aktlarına səssiz qalırlar. Bütün bunlar tamamilə ikili standartlardır", - deyə mərkəz rəhbəri diqqətə çatdırıb.

İslamofobiyanı bəşəriyyətə qarşı atılan atəş kimi qiymətləndirən A.Mazyek vurğulayıb: "Bütün bu proseslər irqçilik fenomeni adı altında davam edir. Ancaq qanun qarşısında bərabərlik bölünməzdir. Biz keçmiş səhvlərdən nəticə çıxarmalı, İslamın siyasi alətə çevrilməsinin qarşısını almalıyıq".

Uelsin "Trinity St David" Universitetinin elmi işçisi **Mohammed Sadek Hamid** deyib: "Biz islamofobiya ilə bağlı konkret olaraq nələrin baş verdiyinin fərqindəyik. Bunun həlli üçün məsələnin kökünü bilməliyik. Biz təxminən 20 il ərzində müxtəlif dinlərin vəhdətini görürük. Müsəlmanlara qarşı nifrət hissinin və ayrı-seçkiliyin necə vüsət aldığının şahidi oluruq. Avropada buna yer olmamalıdır".

İslamofobiya probleminin nəticə etibarilə sistemli olaraq ayrı-seçkiliyə gətirib çıxardığını vurğulayan Mohammed Sadek Hamid bildirib ki, bu, insanların yaşayışına da böyük təsir göstərir. Bunun nəticəsi olaraq müsəlmanlara qarşı müxtəlif zorakılıq və nifrət halları baş verir. Hətta müsəlmanlara oxşamaq belə ağır nəticələrə gətirib çıxarır, nifrət zəminində cinayətlərin törədilməsinə səbəb olur. "Qeyd etməliyəm ki, belə halların məscidlərə qarşı da baş verdiyini bilirik. Müsəlmanlara fiziki hücumların, xüsusilə də qadınlara qarşı zorakılığın şahidi oluruq. Hətta müsəlmanların məzarlarında cəsədlərə qarşı törədilən əməllər çox xoşagəlməzdir. İslamofobiya hamı üçün problemdir", - deyə o əlavə edib. O diqqətə çatdırıb ki, Böyük Britaniyada da müsəlmanlara qarşı münasibət dəyişməlidir. Bəzi siyasi qərarlarda mühüm dəyişikliklər edilməlidir. Eyni zamanda mediadakı fikirlər müsbət istiqamətdə dəyişə bilər. Bu problemə qarşı birlikdə uğurlu mübarizə aparıla bilər.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini **Gündüz İsmayılov** qeyd edib ki, Fransada dövlət müəssisələrində müsəlmanlara qarşı ayrı-seçkilik hallarına özəl sektordakından daha çox rast gəlinir.

Avropa ölkələrində islamofobiyanın güclənməsinin səbəblərindən bəhs edən Dövlət Komitəsi sədrinin müavini bildirib: "Bəzi Avropa ölkələrində islamofobiya cəmiyyətdən dövlətə deyil, dövlətdən cəmiyyətə yayılır. 2019-cu ildə Fransada islamofobiya hallarına dövlət müəssisələrində 369, özəl sektorda isə 197 dəfə təsadüf olunub".

Avropada müsəlmanlar üçün ibadət evlərinin tikilməsi ilə bağlı problemlərdən söz açan G.İsmayılov deyib ki, əhalisinin təqribən 10 faizi müsəlman olan Fransada 2500 məscid var. Həmin 2500 məscidin mütləq əksəriyyəti bir otaqdan ibarətdir. Fransa nümunəsində müsəlman icmalarının İslam adətlərinə uyğun məscidlər tikməyə maddi imkanları yoxdur. Fransa dövləti isə digər ölkələrdəki müsəlmanlardan maddi dəstək alınmasını qəbul etmir. Bunu "Fransanın islamlaşdırılması" adlandırır. Fransada islamofobiya hallarının 80 faizi qadınlarla, onların geyimləri ilə bağlıdır.

O qeyd edib ki, Fransada müsəlmanlar öz CV-lərində müsəlman olmadıqlarını qeyd edəndə onların işə qəbul şansı 50 faizdən çox olur. Həmçinin bir çox Avropa ölkələrində müsəlmanlar öz əqidələrini CV-lərində göstərmirlər. Bir sıra Avropa ölkələrində müsəlman miqrantlar arasında da ayrı-seçkilik halları müşahidə olunur. Onlar daha çox işə qəbulda İtaliyadan, İspaniyadan olan miqrantlara üstünlük verirlər.

Avropa İnkişaf və Araşdırma Akademiyasının (EDARA) baş direktoru **Brahim Laytouss** müsəlmanların səlahiyyətlənməsinin və güclənməsinin çox vacib amil olduğunu deyib. Qeyd edib ki, Avropa müsəlmanları oranın vətəndaşlarıdır, orada 25 milyon müsəlman məskunlaşıb. Onlar vətəndaş kimi cəmiyyətin inkişafında iştirak etməlidirlər. Onun sözlərinə görə, müsəlmanlar İslam diskursunu yeniləməli, alternativ təkliflər verməlidirlər. "Biz müsəlman və qeyri-müsəlman arasında fərq qoymuruq. Biz Avropanın bir hissəsiyik. Belçikada İslam din kimi 1974-cü ildən dövlət səviyyəsində təsdiqlənib. Bu ölkənin təhsil müəssisələrində 3 mindən çox müəllim din dərsi keçir", - deyə Laytouss əlavə edib. Avropa Parlamentinə keçirilən seçkilərdən söz açan baş direktor müsəlmanların bu prosesdə daha fəal iştirakının təmin edilməli olduğunu vurğulayıb. O deyib ki, Avropa Parlamentində müsəlmanlar, sadəcə, 11 faiz təşkil edir.

Pakistanda Siyasət Araşdırmaları və Təbliğat Mərkəzinin icraçı direktoru **Əhsən Həmid** diqqətə çatdırıb ki, Azərbaycanda milli azlıqların sülh içərisində yaşaması çox yaxşı nümunədir. Avropa ölkələri bu siyasəti mənimsəməli və tətbiq etməlidir.

İslamofobiyanın Avropada siyasi silaha çevrildiyinə diqqət çəkən Əhsən Həmid vurğulayıb ki, Qərb ölkələrində müsəlmanları təhdid kimi qələmə verirlər. "Müsəlman ölkələrindən Avropaya səyahət edənlərə viza verilməsi gecikdirilir, bəzən isə, ümumiyyətlə, verilmir. İslamofobiya partiyaların siyasətinə çevrilib. Qərb mediası isə ictimaiyyətdə qərəzli fikirlərin formalaşmasında çox böyük rol oynayır. Məscidlər bağlanır, müsəlmanlar üçün yeni ibadət yerlərinin açılması qadağan olunur. Ukraynalı qaçqınlarla Əfqanıstandan gələn köçkünlərə qarşı reaksiyalar eyni deyil. Fransada hicablı qadınlar iş yerlərindən qovulur, təhsildən uzaqlaşdırılır", - deyə icraçı direktor bildirib. Ə.Həmid əlavə edib ki, müsəlmanlar məruz qaldıqları ayrı-seçkilik halları ilə bağlı təcrübələrini bölüşməlidirlər. Ancaq maariflənmək yolu ilə islamofobiya hallarının qarşısını almaq mümkündür.

ABŞ-nin Yeni Orlean şəhərindəki Tulane Universitetinin siyasət üzrə professoru **Raymond Casimer Taras** isə ABŞ-də islamofobiya ilə bağlı məlumatlılığın çox aşağı səviyyədə olduğunu söyləyib. İslamofobiyaya rəvac verən daxili amillərə mütləq nəzər yetirilməli olduğunu vurğulayan professor deyib ki, islamofob düşüncəyə şərait yaradan, bir növ ona səbəb olan halların kökündə yanlış siyasət dayanır. Fəlsəfi olaraq bu vəziyyət islamofobiyanın dərin laylara keçməsinə, irqçi hərəkatların formalaşmasına və yayılmasına imkan verir. "Biz müstəmləkəçiliyə qarşı çıxış edirik. Neomüstəmləkəçiliyin necə geniş vüsət aldığını görürük. Bu məsələlərlə bağlı məlumatlılıq artırılmalıdır", - deyə o diqqətə çatdırıb.

Zalsburq Universitetinin sosiologiya və insan coğrafiyası kafedrasının dosenti **Volfqanq Aşauer** qeyd edib ki, iqlim dəyişmələri, Qərbdə baş verən müharibələr bədbinliyə qapılmağa səbəb olan amillərdir. Bütün bu mənfi amillər mədəni və sosial qütbləşməyə səbəb olur. Çox zaman isə problemlərə, sosial tənəzzülə görə müsəlman miqrantları qınayırlar. O bildirib ki, müsəlmanlara qarşı münasibət çox kasaddır. Qərbi Avropa ölkələrində müsəlmanlara isti münasibət var. Amma Avropa ölkələrinin 30 faizində bu rəftar mənfidir. "Gənc nəslin müxtəlifliyə daha mədəni münasibəti hiss olunur. Gələcəkdə gənclər müxtəliflik üçün mübarizə aparan əsas qüvvə olacaqlar", - deyə Volfqanq Aşauer əlavə edib.

Plenar sessiya müzakirələrlə davam edib.

## Qeyri-müsəlman ölkələrində İslam mədəni və dini irsinin qəsdən dağıdılması və təhqir edilməsi aktları

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin məsləhətçisi **Aytən Qəhrəmanın** moderatorluğu ilə keçirilən "Qeyri-müsəlman ölkələrində İslam mədəni və dini irsinin qəsdən dağıdılması və təhqir edilməsi aktları" mövzusunda aralıq sessiyada çıxış edən Misirin Baş müftisi, Dünya Fətva Orqanları Baş Katibliyinin Baş katibi Şövki Əllamın baş müşaviri **İbrahim İbrahim Mahmud Neqm** Avropa ölkələrində, xüsusilə Fransada islamofobiya təzahürlərinin getdikcə artmaqda davam etdiyini, bunun nəticələrinin isə uzunmüddətli olacağını deyib. Bildirib ki, islamofobiya müsəlmanlar və İslam ilə bağlı konkret olaraq səhv və dezinformasiyanın nəticəsidir. Saxta dindarlara İslamla bağlı fikirlər yaymasına imkan yaratmaq olmaz.

İslamofobiya ilə mübarizədə monitorinq və müşahidənin önəmindən bəhs edən Mahmud Neqm vurğulayıb: "İlk növbədə bu cür hadisələrin monitorinqi aparılmalıdır. Güclü administrasiyamız, monitorinq mexanizmlərimiz olmalıdır ki, islamofobiya ilə bağlı bütün hadisələri izləyib təhlil edə bilək. Din xadimlərinin islamofobiyaya qarşı mübarizə apara bilmələri üçün potensiallarının gücləndirilməsi üçün alətlər yaratmalıyıq. Nüfuzlu universitetlərlə əməkdaşlıq etməliyik ki, islamofobiyaya və nifrət nitqinə tutarlı cavab verə bilək".

İslamın ləkələnməsi, irqçiliyin, sadəcə, islamofobiya ilə əlaqəli olmadığını deyən Dekolonial Beynəlxalq Şəbəkə Fondunun katibi **Sandev Hira** bildirib: "Belə halların yaranması Qərb sivilizasiyalarında tarixboyu davam edən kolonializm sistemlərinin parçasıdır. İrqçilik, islamofobiya siyasətindən istifadə edən ölkələrin gələcəyi qaranlıq görünür". S.Hira Qərb ölkələrində dünyanı koloniya-müstəmləkə qismində idarəetmə sisteminin formalaşdığını vurğulayaraq qeyd edib: "Onların müstəmləkəçilik tarixinə nəzər saldıqda islamofobiyanın yaranma tarixini görəcəyik. Məsələn, İngiltərə Hindistanı işğal etdikdən sonra ilk olaraq onlara xristianlığı məcburi şəkildə qəbul etdirməyə çalışdı. Onlar düşünürlər ki, insanlar dinlərinə, irqlərinə görə müəyyən siniflərə ayrılır. Avropa alimlərinin əsərlərində irqçilik çox açıq şəkildə görünür".

Rusiya Federasiyası Müsəlmanları Dini İdarəsi sədrinin birinci müavini, Moskva İslam İnstitutunun rektoru **Damir Muxetdinov** qeyd edib ki, beynəlxalq təşkilatlar və qurumlar islamofobiyanı pisləyən qərarlar qəbul etsə də, təəssüf ki, bu halın qarşısını almaq mümkün olmur. O, BMT-nin İnsan Hüquqları Şurası "Qurani-Kərim"in qəsdən təhqir olunmasını pisləyən qətnamə qəbul etməsinə baxmayaraq, Avropada müqəddəs "Qurani-Kərim"i yandıran şəxslərin cəzalandırılmadığına diqqət çəkib. "Sözsüz ki, bu nümunələr ikili standartların ən bariz göstəricisidir. Çünki Qərb ölkələrinin liberal demokratiya prinsipləri üzərində qurulmuş qanunvericiliyi sözügedən aksiyalara mane olmağa imkan vermir", - deyə o əlavə edib.

Qərbi Azərbaycan İcmasının sözçüsü **Ülviyyə Zülfiqar** müsəlmanlara qarşı nifrət və qərəzin son onilliklər ərzində daha da dərinləşdiyini deyib. İslamofobiya siyasətinin qurbanları arasında Ermənistan ərazisindən zorla çıxarılan azərbaycanlıların olduğuna diqqət çəkən Ülviyyə Zülfiqar qeyd edib ki, bu ölkədə müsəlmanlara qarşı dini və etnik dözümsüzlüyü dövlət siyasəti kimi təsisatlandırılması tarixi qeydlər və hadisələrlə sübut edilir. "Əslində, Ermənistan islamofobiyanın sistemli şəkildə yayıldığı ilk ölkədir. Xatırlatmaq istəyirəm ki, Ermənistan azərbaycanlıları sürgün edib qətlə yetirməklə yanaşı, Azərbaycana məxsus zəngin mədəni irsi metodik şəkildə Yer üzündən silib. Son 200 il ərzində, xüsusilə 1905-1908-ci, 1918-1920-ci, 1948-1953-cü və 1987-1991-ci illərdə indiki Ermənistan ərazisində yaşayan azərbaycanlılar doğma yurdlarından məcburi şəkildə deportasiya ediliblər. Bu dəhşətli hadisələrin kulminasiya nöqtəsi 300 minə yaxın azərbaycanlının öz doğma yurdlarından qovulması olub. 1991-ci ildə Qərbi Zəngəzurun Nüvədi kəndindən sonuncu azərbaycanlının deportasiyası ilə Ermənistan monoetnik dövlətə çevrilib", - deyə sözçü diqqətə çatdırıb.

Ermənistan ərazisində Azərbaycanın mədəni irsinin qəsdən məhv edilməsinə diqqət çəkən Ü.Zülfiqar vurğulayıb: "310-dan çox məscid və 500-dən çox qəbiristanlığın dağıdılması, əhəmiyyətli mədəniyyət abidələrinin təyinatının dəyişdirilməsi icmamıza qarşı törədilmiş ədalətsizliklərin nümunəsidir. Ermənistanda salamat qalan yeganə məscid olan İrəvandakı Göy məscid tariximizlə bağlı həqiqətləri ört-basdır etmək üçün bu ölkə tərəfindən başqa bir ölkənin irsi kimi təqdim edilir".

Şimali Kipr Türk Cümhuriyyəti Prezidentinin beynəlxalq əlaqələr və diplomatiya üzrə xüsusi müşaviri, professor **Hüseyn İşıksal** qeyd edib ki, Avropada müsəlmanlar cəmiyyətdə öz yerlərini tutmağa və görünməyə başlayanda islamofobiya daha bariz şəkildə büruzə verilir. Əvvəllər orada müsəlmanlar yerli əhalinin görmək istəmədiyi işlərdə çalışırdılar. İndi gənc müsəlman nəsli daha vizual, keyfiyyətli işlərə daxil olduqda islamofobiya hallarının artdığını görürük.

O bildirib ki, islamofobiyaya qarşı birgə, kollektiv mübarizə apararaq onun öhdəsindən gəlmək olar. Tarixboyu islamofobiya halları yaşanıb. Bəlkə də o zaman buna islamofobiya adı verilməmişdi, amma faktiki olaraq belə vəziyyətlər var idi. "Müsəlman və türk olmaq ağır yükdür, bunu da qaldırmaq lazımdır", - deyə Hüseyn İşıksal vurğulayıb.

Alikante Universitetinin fəxri professoru, Mənbələr Fondunun (Fundacion Las Fuentes) direktoru **Barbara Elena Bejarano** qeyd edib ki, İslam dininə qarşı fobiya, müsəlmanlara qarşı ayrı-seçkilik, İslam abidələrinin dağıdılması və ya saxtalaşdırılması illər boyudur davam edir. Bu prosesin tarixi inkişafı ilə tanışlığın məsələnin həlli istiqamətində vacibdir. Professor tarixboyu Qərb ölkələrində müsəlmanların xristianlarla eyni imtiyazlara sahib olmadığına diqqət çəkib: "İspaniyada XV əsrdə müsəlmanlara qarşı xüsusi bir nifrət formalaşdı. Həmin dövrdə İspaniya Kralı müsəlmanlara aid minarələrin yandırılması qərarını verdi. Onlar müsəlmanları cəmiyyətdən çıxarmaq istəyirdilər. Hətta qohumları arasında müsəlman olanların təhsil almaq, işləmək imkanı əllərindən alınırdı. Bu halların əsas səbəbi isə Qərbin Şərqdə güclənən Osmanlı İmperiyasından qorxması idi. Onlar Qərbdə yaşayan müsəlmanların Osmanlıya bağlı olduğunu düşünürdülər. Nəticədə isə Avropada yaşayan müsəlmanlar sürgün olundu və ya qətl edildi".

İslamın sülh, əmin-amanlıq dini olduğunu vurğulayan fond direktoru qeyd edib ki, hər kəs islamofobiya ilə mübarizə etməlidir. Nifrətlə formalaşmayan yeni nəsillərə daha təhlükəsiz bir dünya ötürməliyik.

İslam sosiologiyası üzrə dosent **Laurens Daniel de Rooij** isə medianın islamofobiyaya təsirlərindən danışıb. Deyib ki, islamofobiya populizmi cəhalət nəticəsində çiçəklənir. İslamofobiyaya qarşı mübarizədə münaqişələrdən çox, müsəlmanların cəmiyyətdə tutduğu mövqelərdən danışılmalıdır. Çünki Avropada insanlar müsəlmanlardan qorxurlar. Onlar düşünürlər ki, müsəlmanlar olan yerlərdə daim münaqişələr olacaq. Bütün bu halların qarşısını almaq üçün maarifləndirmə layihələri həyata keçirilməlidir.

## "Fransada müsəlmanlara qarşı siyasətlər: islamofobiyanın normallaşdırılması"

Fransanın "Musulmans en France" xəbər portalının təsisçisi və baş redaktoru **Jan-Mişel Brönün** moderatorluğu ilə keçirilən "Fransada müsəlmanlara qarşı siyasətlər: İslamofobiyanın normallaşdırılması" mövzusunda sessiyada çıxış edən müstəqil tədqiqatçı və publisist **Rolan Öjen Lafit** (Roland Eugene Laffitte) deyib ki, Fransada müsəlmanlığı siyasi anlayış kimi təlqin edirlər. İslamı isə zorakı din, cihad mənbəyi, idarəolunmaz məfhum kimi qəbul edirlər.

"Bu gün islamofobiya Fransada dövlət siyasətidir. Əgər Fransada şəxs polis tərəfindən saxlanılarsa və o, ərəb mənşəli olarsa, daha çox çətinliklə üzləşir. Əgər iş müraciəti zamanı ərəb soyadınızın olduğunu görərlərsə, şansınız digərlərinə nisbətən 7 dəfə daha azdır", - deyə tədqiqatçı vurğulayıb.

Sonra çıxış edən Qərbi Azərbaycan İcmasının Fransa və Qərbi Avropa üzrə nümayəndəsi, "Fransada Qərbi Azərbaycan irsinin qorunması" İctimai Birliyinin sədri **Zaur Sadıqbəyli** bildirib ki, Fransada azərbaycanlılara qarşı qərəzli münasibət var.

"Fransada son vaxtlar çox sayda müsəlman məktəbləri bağlanılıb, imamlar qovulub, İslama aid kitablar kitabxanadan yığışdırılıb. Biz azərbaycanlılar bu irqçi münasibətə Ermənistan tərəfindən məruz qalmışıq. Ermənistanda azərbaycandilli məktəblər ləğv olunub. Oradakı köçkünlər Azərbaycanda təhsil almağa məcbur qalıblar", - deyə o diqqətə çatdırıb.

Z.Sadıqbəyli Fransaya miqrant axınının tarixindən söz açıb. Deyib ki, miqrantlar bu ölkənin qurulmasında və formalaşmasında iştirak ediblər. Fransaya miqrantlar 1975-ci ildən fəhlə gətirilib, bir müddət sonra onlar qayğıdan məhrum edilib. Onların cəmiyyətə inteqrasiya problemi özünü hələ də göstərməkdədir. Bu o deməkdir ki, 1905-ci ildə qəbul edilmiş qanun ləğv olunur. Bu qanunla bağlı islahatlar aparılmalıdır.

Onun sözlərinə görə, Fransada təqribən 7 milyon müsəlman yaşayır, qeyri-rəsmi rəqəmlərə görə isə onların sayı 10 milyon nəfərdir. 2000-ci ildən sonra bu ölkədə dini etiqad yerləri artıb. Strasburq və Lion şəhərlərində müsəlmanlar çoxluq təşkil edir, lakin Qərbi Fransada onların sayı çox deyil.

Parisdəki Geostrateji Araşdırmalar üzrə Avropa Ərəb Akademiyasının direktoru **Mohammed El Maazouz** son araşdırmalara görə, islamofob çıxışların əvvəlki illərlə müqayisədə 31 faiz artdığını vurğulayıb. "XIII əsrdən bəri islamofobiya dünyada kök salıb. İslamofobiya sanki dövlətin məqsədləri kimi əlaqələndirilir. Avropada İslamı sanki idarəolunan din kimi göstərirlər. Bu gün islamofobiya dövlət siyasətidir. "Tədqiqatçılar bu problemə niyə dərindən yanaşmır?", "İslamofobiya ilə bağlı fikirlər necə dinlənilir?" kimi suallara cavab tapılmır", - deyə direktor qeyd edib.

Paris İslam Elmləri fakültəsinin direktoru **Nurredine Belhout** deyib ki, islamofobiya düşünüldüyü qədər də sadə məsələ deyil. O qeyd edib ki, Azərbaycan dünyəvi dövlət olmasına baxmayaraq, müsəlman ölkəsi kimi ayrı-seçkiliyə məruz qalıb.

"CAGE International"ın idarəedici direktoru **Muhammad Abdur Rabbani** isə bildirib ki, Fransa beynəlxalq tənqiddən qorxur. 2018-ci ildən bəri Fransa hökuməti müsəlmanlara nəzarət etmək üçün bir nəfər müəyyənləşdirib. Bundan sonra məscidlər, kitab evləri bağlanıb. Fransa müsəlmanlarının hansısa quruma şikayət etmək haqqı yoxdur. Bu ölkədə müsəlmanlar sıxışdırılır. "Fransa totalitar bir siyasi rejimdə işləyir. Onların siyasəti getdikcə avtoritar olur. Fransa hökuməti vətəndaşlar üçün ikili sistem mövcud olduğunu açıq şəkildə deyir. Biri fransızlar, digərləri isə başqa millətlər üçündür", - deyə direktor diqqətə çatdırıb.

Liverpul Universitetinin insan coğrafiyası sosial və məkan bərabərsizlikləri üzrə müəllim **Kövtər Nəcib** çıxışında islamofobiyanın qlobal fenomen olduğunu deyib. Bildirib ki, müsəlmanlar buna görə çox sıxışdırılır.

"Biz Fransada davamlı şəkildə islamofobiyaya çağırışlar eşidirik. Hicab geyinən tələbələr məktəblərdən kənarda da qısnamalara məruz qalır. Bütün bunlar kifayət qədər böyük siqnaldır", - deyə o qeyd edib.

Sessiyada London Kral Kollecinin Fransa və Avropa siyasəti üzrə baş müəllimi **Ceym Şarl Laurens Volfreys** "Müasir fransız siyasətində islamofobiya və avtoritar dinamika", Melburn Universitetində tədqiqatçı **Sara Şeyx Husain** isə "Fransa və Avstraliya: islamofobiyanın müqayisəli təhlili" adlı məruzələrlə çıxış ediblər.

*Ardı 4-cü səh.*

# Bakıda "Müxtəlifliyin qorunması: 2024-cü ildə islamofobiya ilə mübarizə" mövzusunda beynəlxalq konfrans keçirilib

*Əvvəli 3-cü səh.*

### "Cinslərə görə islamofobiyanın əsası: müsəlman qadınların təqib edilməsi və müqaviməti, cins və cəmiyyət"

Konfransın sonuncu sessiyası "Cinslərə görə islamofobiyanın əsası: müsəlman qadınların təqib edilməsi və müqaviməti, cins və cəmiyyət" mövzusuna həsr olunub.

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin üzvü **Esmira Cəfərovanın** moderatorluğu ilə keçirilən sessiyada çıxış edən Britaniya Müsəlman Şurasının baş katibi Zara Mohammed bu ölkədə yaşayan müsəlmanların islamofobiyaya məruz qaldıqlarını, bu mənfi tendensiyalara qarşı birləşmək və müqavimət göstərmək lazım olduğunu qeyd edib.

İndoneziya Universitetinin professoru **Zora Arfina** çıxışında bu gün İslamla bağlı damğaların xüsusi diqqət çəkməsinin danılmaz fakt olduğunu diqqətə çatdırıb. O qeyd edib ki, hazırda məkan amili islamofobiyanın təhlilində mühüm məsələyə çevrilib. Burada kənar və daxili islamofobiya amilləri var. Daxili islamofobiya özlüyündə də müəyyən tənqidlərə məruz qalır.

Z.Arfina Qərb mediasında bu məsələnin fərqli şəkildə qələmə verildiyini, insanların barbar və ya digər sözlərlə təsvir edildiyini, müsəlman qadınların zorakılığa məruz qaldıqları barədə məlumatların yayıldığını qeyd edib.

İndoneziyanın "Nahdlatul Ulama" Cəmiyyətinin İdarə Heyətinin üzvü **Umniati İsmail** təmsil etdiyi ölkədə alimlər birliyi, elm adamları tərəfindən İslam dini ilə bağlı yeni fikirlərin formalaşmaqda olduğunu qeyd edib. "Əlbəttə, burada alimlərin və cəmiyyətlərin üzərinə düşən vəzifələr var. Əvvəla, inkişaf etmək üçün tolerantlıq prinsiplərinə əsaslanmaq lazımdır. İslam vahidliyə çağırış edən bir dindir və bu da cəmiyyətləri, birlikləri dərindən başa düşməyə kömək edir", - deyə o qeyd edib.




Böyük Britaniyanın Montfort Universitetinin siyasət üzrə baş müəllimi **Amina Easat Daas** Qərb ölkələrində müsəlman qadınların zorakılığa məruz qalanlar, kişiləri isə barbar kimi qələmə verildiyini vurğulayıb. Fransız müstəmləkə kontekstində müsəlman qadınların qarşılaşdıqları çətinliklərdən danışan Amina Easat Daas onların zorakı təhdidlərə məruz qaldıqlarını bildirib. O deyib: "Məktəblərdə qadınların hicab geyinməsi qadağan edilmişdi. Qadınlar hicab geyindikləri üçün cərimәyə məruz qalırdılar. Sonradan müsəlman qadınların xilas edilməsi, onların geyimi ilə bağlı qanunlar qəbul edildi. Bu, azadlıq deyildi, qadınlara başqaları tərəfindən nəyinsə diktə edilməsi idi. Ümumiyyətlə, feminizm və müstəmləkəçilik Fransa siyasətinin əsasını təşkil edirdi. Müsəlman qadınlara nəzarətin vacibliyi qeyd olunurdu".

Ərəbşünaslıq və islamşünaslıq üzrə professor, İnsan Hüquqları İnstitutunun elmi işçisi **Susana Mangana** çıxışında İslam dünyasındakı mənfi tendensiyaları aradan qaldırmaq üçün çalışmaq lazım olduğunu söyləyib. O diqqətə çatdırıb ki, mediada, cəmiyyətdə ikili standartların azaldılması üçün birlikdə mübarizə aparmaq lazımdır.

"İslama, müsəlman qadınlara qarşı mənfi fikirlər müəyyən dairələr tərəfindən ortaya atılır", - deyən Susana Mangana əlavə edib ki, mediada müsəlman qadınların yanlış təqdimatı təəssüf doğurur. "Biz həmin düşüncəni, təəssüratları dəyişmək üçün mübarizə aparmalıyıq. Həmin stereotipləri məhdudlaşdırmasaq, müsəlman qadınlar məzlum kimi tanınacaq", - deyə o vurğulayıb.

Ombudsman Aparatının rəhbəri **Aydın Səfixanlı** çıxışında ayrı-seçkiliyi insan hüquqlarının pozulması kimi qiymətləndirib. Deyib ki, bu, milyonlarla insana təsir edir.

Müsəlman qadınların hüquqlarının pozulmasının islamofobiya kontekstində artdığını bildirən A.Səfixanlı burada xüsusilə Fransanın nümunə çəkilməli olduğunu diqqətə çatdırıb. Bildirilib ki, bir sıra Avropa ölkələrində dini libasların geyinilməsi də qadağan olunub. Müsəlman qadınlar bu istiqamətdə həm siyasi, həm sosial baxımdan, eləcə də media tərəfdən təzyiqə məruz qalırlar. Bu da onların azadlıqlarının kəskin şəkildə məhdudlaşdırılmasıdır. "İslamın Qərb dəyərlərinə zidd olduğu deyilir. Əslində isə bu cür münasibət, müxtəlifliyə məhəl qoyulmaması zorakılığa yol açan amillərdir. Müsəlman qadınlara, xüsusilə hicab geyinən qadınlara qarşı ayrı- seçkiliyə iş yerlərində və cəmiyyətin digər sahələrində də yol verilir. Bu da müsəlman qadınların təhsil haqlarının məhdudlaşdırılması ilə nəticələnir.

Əksər qadınlar üçün bu cür ayrı-seçkilik maskalanır və gender bərabərliyinin təşviqi donu geyindirilir. Müsəlman qadınlar bunu təkzib edir və öz fikirlərini ifadə etmək, müqəddəratlarını özləri həll etmək istəyirlər", - deyən Aparat rəhbəri vurğulayıb ki, müasir Avropada qərəz din, gender, eyni zamanda qeyri-qanuni digər əməllər əsasında qurulub. Amma bu zərbəni ən çox müsəlman qadınlar alırlar.

A.Səfixanlı qeyd edib ki, beynəlxalq silahlı münaqişələrdə qadınlar 4-cü Cenevrə Konvensiyası tərəfindən qorunur. Bu cür vəziyyətlərdə qadınlar bütün hüquq və imtiyazlardan istifadə etməlidirlər. Bu zaman qadınlar həyata hörmət, fiziki və mənəvi bütövlük, təqib, əsir götürülmə kimi məsələlərdə istisna kimi çıxış edirlər. Təəssüf ki, müsəlman qadınlara gəldikdə bu cür öhdəliklər tətbiq olunmur.

❖ ❖ ❖

Sonda beynəlxalq konfransın Birgə Kommünikesi qəbul olunub.

❖ ❖ ❖

Qeyd edək ki, "Müxtəlifliyin qorunması: 2024-cü ildə islamofobiya ilə mübarizə" mövzusunda beynəlxalq elmi konfrans Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi, G20 Dinlərarası Dialoq Forumu və Bakı Təşəbbüs Qrupunun birgə dəstəyi ilə keçirilib. Konfransda dünyanın 32 ölkəsindən alimlər, beynəlxalq təşkilatların ekspertləri, din xadimləri və qeyri-hökumət təşkilatlarından 130-dan çox nümayəndə iştirak edib. Xatırladaq ki, hər il martın 15-i İslamofobiya ilə Beynəlxalq Mübarizə Günü kimi qeyd edilir.

# "COP29-un indiyə qədər keçirilən ən yaxşı və ən məhsuldar COP tədbiri olacağını gözləyirəm"

**Xəbər verdiyimiz kimi, sağlamlıq, ətraf mühit və iqlim dəyişmələri məsələləri üzrə ixtisaslaşmış, ümumilikdə 106 ölkədən 2 400-dək QHT-ni sıralarında birləşdirən Afrika Səhiyyə Təşkilatları Assosiasiyası (The Afrihealth Optonet Association - AHOA) ötən gün (martın 8-də) COP29-la bağlı Azərbaycana dəstək bəyanatı verib. AHOA-nın rəhbəri Uzodinma Adiriecenin imzaladığı bəyanata bu quruma üzv və tərəfdaş olan 30 ölkədən 107 QHT də qoşulub.**



Uzodinma Adiriece iqlim dəyişmələri ilə bağlı Azərbaycanın qlobal fəaliyyətdə fədakarlığına və liderliyinə AHOA-nın dəstəyinə dair AZƏRTAC-ın suallarını cavablandırıb. Müsahibəni təqdim edirik.

*- Azərbaycan iqlim dəyişmələrinə qarşı mübarizədə və digər məsələlərdə beynəlxalq əməkdaşlığa böyük önəm verir. COP29-un Azərbaycanda keçirilməsi barədə qərar beynəlxalq ictimaiyyətin ölkəmizin bu məsələlərdəki mövqeyinə verilən böyük dəstəyi göstərir. AHOA da öz bəyanatı ilə Azərbaycana dəstəyini ifadə etdi. Bu barədə fikrinizi öyrənmək istərdik.*

- Afrika Səhiyyə Təşkilatları Assosiasiyasının dəstək mesajı çox uyğun və vaxtında atılmış bir addımdır. AHOA-da təmsil olunan qlobal vətəndaş cəmiyyətinin Azərbaycanın COP29 prosesinin planlaşdırılmış mərhələlərinə kifayət qədər erkən qoşulması çox əhəmiyyətlidir.

Azərbaycanda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) yaxınlaşdığı dövrdə AHOA rəhbərliyi, üzvləri və tərəfdaşları olaraq, qlobal ictimaiyyəti dayanıqlı və sağlam gələcəyə doğru istiqamətləndirmək kimi mühüm vəzifəni öhdəsinə götürən COP29 prezidentinə və ev sahibi ölkə olan Azərbaycana ürəkdən dəstəyimizi ifadə edirik.

Planetimizin üzləşdiyi ekoloji problemlərdən dərindən narahat olan AHOA COP29 rəhbərliyinin, Azərbaycanın iqlim dəyişmələri ilə bağlı qlobal miqyasda nümayiş etdirdiyi həqiqi fədakarlığı və liderliyi alqışlayır. İqlim dəyişmələrinə qarşı mübarizə aparmaq çox məsuliyyətli işdir. İqlim dəyişmələrinin təsirini azaltmaq, həssas icmaları - əhali qruplarını mühafizə etmək və ekosistemləri gələcək nəsillər üçün qoruyub saxlamaq baxımından cəsarətli və qətiyyətli addımların atılmasının tələb olunduğu kritik məqamdayıq. Bu baxımdan AHOA COP29 prezidentinin və Azərbaycanın dialoqun, əməkdaşlığın və innovasiyaların təşviqində öhdəliyinin böyük əhəmiyyət kəsb etdiyini məmnuniyyətlə vurğulayır.

Azərbaycanın zəngin mədəni irsi və təbii imkanları ilə təkcə əvəzolunmaz ekoloji sərvətlərin qoruyucusu deyil, həm də iqlim dəyişmələri və ətraf mühitin mühafizəsinin fəal müdafiəçisi olduğuna inanırıq. "Üçlük-Missiya 1.5" kimi təşəbbüslər vasitəsilə Azərbaycan iqlimə davamlılıq sahəsində dayanıqlı inkişafa sarsılmaz sadiqliyini nümayiş etdirdi və COP28-də əldə olunan uğurların davamlılığını təmin etdi. AHOA Azərbaycanın COP29 zamanı iqlim dəyişmələri ilə bağlı danışıqlarda güclü konsensual nəticələr əldə edəcəyinə inanır.

*- Azərbaycanda keçiriləcək COP29-dan gözləntiləriniz nələrdir?*

- Mən COP29-un indiyə qədər keçirilən ən yaxşı və ən məhsuldar COP tədbiri, Dubayda təşkil edilmiş COP28-dən sonra daha uğurlu bir tədbir olacağını gözləyirəm.

COP29-un adaptasiya və yumşaldılma tədbirlərindən daha irəli gedərək iqlim dəyişikliyi böhranının səbəbləri və qarşısının alınması yollarının öyrənilməsinə mühüm töhfə verəcəyinə inanıram. Çünki sənayeləşmiş dünyada kimyəvi tullantılar və çirklənmə hər gün inkişaf etməkdə olan ölkələrdə ciddi iqlim böhranına səbəb olur ki, bu da öz növbəsində sağlamlıq və ətraf mühitə ziyan vurur.

*- Necə düşünürsünüz, COP29-da əsasən hansı məsələlər, xüsusən də səhiyyə sahəsi ilə bağlı hansı istiqamətlər prioritet təşkil etməlidir?*

- COP29 digər məsələlərlə yanaşı, kimyəvi çirklənmə, sənaye və hərbi tullantıların yaratdığı iqlim problemlərinə son qoymağı prioritet kimi müəyyən etməli, bu tullantıları və çirklənmələri yaradan qurumlardan sağlamlıq və insan həyatına təsirlərini idarə etmək imkanları çox az olan digər ölkələrə ixrac etmədən onları öz ətraf mühitlərində tənzimləmək üçün tam məsuliyyət daşımağı tələb etməlidir. Bilirik ki, sənaye və hərbi tullantıların toplandığı ərazilərin, sənaye və ya kənd təsərrüfatı sahələrinin yaxınlığında yaşayan yerli icmalar zərərli kimyəvi maddələrdən və pestisidlərdən zəhərlənməyə məruz qala bilər ki, bu da insanlarda tənəffüs problemləri, nevroloji pozğunluqlar və reproduktiv problemlər kimi sağlamlıq üçün mənfi təsirlərə səbəb ola bilər. Heyvanlar da çirklənmiş su mənbələri və ya yem vasitəsilə kimyəvi maddələrdən zəhərlənməyə məruz qala bilər. Kimyəvi çirklənmə də havanın, suyun, torpağın və qidanın çirklənməsi vasitəsilə sağlamlığa zərər vura bilir, bu da öz növbəsində xəstəliklərə və ekoloji ziyana səbəb olur.

Kimyəvi çirklənmə həm də insan sağlamlığı və ətraf mühit üçün əhəmiyyətli risklər yaradır. Bu, iqlim dəyişikliyi ilə səmərəli mübarizə tədbirlərinin bir hissəsi kimi çirklənməyə qarşı mübarizədə tənzimləyici tədbirlərin həyata keçirilməsini, dayanıqlı təcrübələrin təşviq edilməsini və ictimai sağlamlıq və ətraf mühitin mühafizəsinə üstünlük verən siyasətin təbliğini şərtləndirir.

*- Ümumiyyətlə, COP29-un keçirildiyi 2024-cü ildə Afrika Səhiyyə Təşkilatları Assosiasiyasının rəhbəri olaraq təmsil etdiyiniz qitənin hansı ətraf mühit və iqlim dəyişikliyi problemləri ilə bağlı dünyaya çağırış etmək istərdiniz?*

- Biz bilirik ki, iqlim dəyişikliyi suyun, torpağın və havanın ekoloji çirklənməsini daha da sürətləndirir. Temperaturun artması və yağıntıların dəyişkənliyi çirklənmə səviyyəsinin yayılmasına birbaşa təsir göstərir. İqlim dəyişikliyi ilə atmosferdəki bir sıra qazların səviyyə balansı pozulur və çoxlu zəhərli qazlar əmələ gəlir ki, bu da ətraf mühitin çirklənməsini artırır. İqlim dəyişikliyinin mənfi təsirləri ozon qatının məhvinə, havanın çirklənməsinə səbəb olur ki, bu da öz növbəsində insan sağlamlığına və ətraf mühitin ekosisteminə, bioloji müxtəlifliyə mənfi təsir göstərir.

İqlim dəyişikliyinin və ətraf mühitin deqradasiyasının qarşısını almaq üçün bərpaolunan enerjiyə universal çıxışın təşviq olunması böyük əhəmiyyət kəsb edir. Fərdləri, icmaları, biznes dairələrini və hökumətləri hərəkətə keçməyə cəlb etmək və onlara səlahiyyət vermək üçün iqlim dəyişikliyi, onun təsirləri və həlli yolları haqqında məlumatlılığı artırmaq və maarifləndirməni təşviq etmək məqsədilə hamı səfərbər olmalıdır. COP29 güclü resurslara malik təbliğat işləri, təhsil və təlim kampaniyaları və potensialın gücləndirilməsi təşəbbüsləri vasitəsilə dayanıqlılıq, ətraf mühitə nəzarət və iqlimə davamlılıq üzrə qlobal mədəniyyəti inkişaf etdirməyə çalışmalıdır. Bütün inkişaf layihələrindən əvvəl bir şərt kimi Ətraf Mühitə və Sosial Sahəyə Təsirin Qiymətləndirilməsi aparılmalıdır.

* * *

Afrika Səhiyyə Təşkilatları Assosiasiyası səhiyyə və davamlı inkişaf sahəsində ixtisaslaşmış qlobal vətəndaş cəmiyyəti şəbəkəsi və beyin mərkəzidir. 106 ölkədən 2400 üzvü olan və zəngin təcrübəyə, resurslara, əhatə dairəsinə malik, eləcə də 40 min üzvdən ibarət "Google Qrupu"nda ekspertlərin və maraqlı tərəflərin töhfəsi ilə AHOA üçüncü sektorun qlobal oyunçusuna, tərəfdaşına, layihə/proqram tərtibçisinə, icraçısına, monitorinqçisinə çevrilməyi bacarıb.

AHOA BMT-nin İqtisadi və Sosial Şurasında (ECOSOC) və UNEP/UNEA-da isə akkreditə olunmuş müşahidəçi statusuna malikdir.

# *Professor Laslo VASA:* "Azərbaycan alternativ enerji mənbələrinə uğurlu keçid nümunəsidir"

**Azərbaycan olmasa, Cənubi Qafqazda inteqrasiya olmayacaq, perspektivli Orta dəhliz reallaşmayacaq.**

Bunu AZƏRTAC-a iqtisadçı ekspert, Macarıstanın Beynəlxalq Münasibətlər və Ticarət İnstitutunun baş elmi işçisi, professor Laslo Vasa deyib.

### Azərbaycanın Cənubi Qafqazda rolu

Ekspertin sözlərinə görə, Azərbaycan özünün strateji mövqeyi və iqtisadi gücü, eləcə də güclü liderliyi sayəsində təkcə Qafqazda deyil, həm də Mərkəzi Asiyada əsas rol oynayır. Ölkə ərazisindən həm Şərqdən Qərbə, həm də Şimaldan Cənuba nəqliyyat axını həyata keçirilir və bununla da rəsmi Bakını əsl beynəlxalq əhəmiyyətli mərkəzə çevirir.

### "Yaşıl enerji"

"Azərbaycanın enerji keçidinə kompleks yanaşması iqtisadi artımın və elektrik enerjisinə artan tələbatın səbəb olduğu dəyişən enerji mənzərəsində özünü göstərir. Ölkənin dayanıqlı enerjiyə diqqəti "yaşıl enerji"ni təşviq edən və istixana qazı emissiyalarını azaldan xarici siyasət təşəbbüsləri sayəsində beynəlxalq miqyasda yayılır", - deyə ekspert qeyd edib. Onun sözlərinə görə, Azərbaycan alternativ enerji mənbələrinə uğurlu keçid nümunəsidir. Müasir Azərbaycanın formalaşmasının neft hasilatı ilə ayrılmaz şəkildə



bağlı olmasına baxmayaraq, Bakı "yaşıl enerji"yə keçidə yönəlmiş innovativ yanaşmaların tətbiqi üzrə regionda liderdir və iqlim dəyişikliyinin nəticələrinə qarşı mübarizəyə ciddi töhfə verir.

### COP29

Bütün dünyanın hazırda müşahidə etdiyi iqlim dəyişikliyinin qarşısının alınmasında Azərbaycanın rol almaq təşəbbüslərinə toxunan macar professor keçiriləcək COP29-un əhəmiyyətinə diqqət çəkib: "Hökumətin iqlim dəyişikliyi ilə mübarizəyə və "yaşıl iqtisadiyyat"a keçidə töhfə verməsinin nəticəsi dünyanın ən böyük və ən nüfuzlu tədbirlərindən birinin - BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-un Bakıda keçirilməsi barədə qərar olub. Bu konfransın Azərbaycanda keçirilməsi ölkənin enerji keçidi sahəsində texnoloji həllər məsələsində əldə etdiyi nailiyyətləri dünyaya nümayiş etdirmək imkanı verəcək".

Laslo Vasa hesab edir ki, COP29 "yaşıl enerji"yə keçidi təmin etmək istiqamətində ölkələrdən aydın öhdəliklər almaq üçün əla fürsətdir.

"COP29-a evsahibliyi etmək hüququnun əldə edilməsi Azərbaycan üçün böyük uğurdur. Bu, diplomatik uğurdur. Həqiqətən də bu, Azərbaycanda iqlim dəyişikliyi tədbirlərinin həyata keçirilməsi və tendensiyaya çevrilməsi üçün vacibdir. Bu sahədə qlobal tədqiqatçılarla əlaqə yaratmaq Azərbaycanın ekspertləri, tədqiqatçıları və siyasətçiləri üçün ətraf mühitin mühafizəsi və dairəvi iqtisadiyyat prinsiplərinin həyata keçirilməsi sahəsində səyləri gücləndirmək üçün müstəsna fürsətdir. Konfrans ölkə üçün mühüm məsələləri, o cümlədən uzunmüddətli geniş neft və qaz hasilatının ekoloji nəticələrinin aradan qaldırılması, Xəzər dənizinin unikal ekosistem kimi qorunması, mövcud resurslardan istifadə etməklə dövriyyənin dəstəklənməsi yollarını müzakirə etmək üçün yaxşı imkanlar yaradır", - deyə baş elmi işçi qeyd edib.

Laslo Vasanın sözlərinə görə, regionda Azərbaycan üçün ciddi ekoloji problemlər var ki, onların həlli təkcə rəsmi Bakıdan asılı deyil. Ölkə 30 ildir müharibə nəticəsində zədələnmiş ətraf mühitini bərpa etməyə çalışsa da, transsərhəd ekoloji problemlərin həlli üçün beynəlxalq dəstəyə ehtiyacı var.

### Enerji keçidinə balanslaşdırılmış yanaşma

"Regional və Avropa səviyyəsində enerji təchizatında strateji rol oynayan Azərbaycan enerji keçidinə balanslaşdırılmış yanaşmanın tərəfdarıdır və bu baxımdan həm ənənəvi, həm də bərpaolunan enerji mənbələrini inkişaf etdirir. Bu siyasət enerji təchizatının davamlılığını, enerji ehtiyaclarının ödənilməsini və "yaşıl planlar"ın həyata keçirilməsini təmin edir. Ölkədə "yaşıl enerji", sənayenin yaşıllaşdırılması ilə bağlı bir sıra tədbirlər həyata keçirilib. Hətta "yaşıl enerji"nin Avropaya ixracına imkan verəcək bərpaolunan enerji istehsal gücləri yaradılıb", - deyə mütəxəssis bildirib.

O, həmçinin qeyd edir ki, Azərbaycan hazırda bəzi ekoloji problemlərlə üzləşir və onların həlli bütün maraqlı tərəflərdən kompleks və əlaqələndirilmiş yanaşma tələb edir: "Hökumət orqanları və müvafiq təşkilatlar strateji siyasətlərin işlənib hazırlanması və kifayət qədər investisiyaların ayrılması üçün əməkdaşlıq etməlidir. Eyni zamanda maarifləndirmənin artırılması, fəal iştirakın təşviq edilməsi və "yaşıl gündəliyi"n həyata keçirilməsi üçün kollektiv fəaliyyəti səfərbər etməklə bağlı ictimai səylər stimullaşdırılmalıdır. Hazırda Azərbaycan öz neft və qaz gəlirlərini bərpaolunan enerjiyə sərmayə qoymaq üçün istifadə edir ki, bu da mənim fikrimcə, dekarbonizasiya və dairəvi enerjiyə dair aydın öhdəlikdir. Lakin bunu çox qısa müddətdə reallaşdırmaq mümkün deyil: bu proses ölkənin davamlı inkişafı və enerji təhlükəsizliyi nəzərə alınmaqla addım-addım idarə olunmalıdır".

# 30 ölkədən 107 QHT Azərbaycana COP29-la bağlı dəstək bəyanatı verib

Sağlamlıq, ətraf mühit və iqlim dəyişmələri məsələləri üzrə ixtisaslaşmış, ümumilikdə 106 ölkədən 2300 QHT-ni özündə birləşdirən Afrika Səhiyyə Təşkilatları Assosiasiyası (The Afrihealth Optonet Association (AHOA) Azərbaycana COP29-la bağlı dəstək bəyanatı verib.

AZƏRTAC xəbər verir ki, bəyanatı AHOA-nın rəhbəri Uzodinma Adiriece imzalayıb. AHOA-ya üzv və tərəfdaş olan 30 ölkədən 107 QHT də müraciətə qoşulub.

Bəyanatda AHOA Azərbaycanın iqlim dəyişmələri ilə bağlı qlobal fəaliyyətdə nümayiş etdirdiyi həqiqi fədakarlığı və liderliyi alqışlayır, bütün dünyanı iqlim dəyişikliyinə qarşı mübarizə aparmaq üçün COP29-un yaratdığı tarixi fürsətdən istifadə etməyə çağırır.

**Bəyanatı təqdim edirik:**

"Azərbaycanda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) yaxınlaşdığı dövrdə Afrika Səhiyyə Təşkilatları Assosiasiyasının (The Afrihealth Optonet Association (AHOA) rəhbərliyi, üzvləri və tərəfdaşları olaraq, qlobal ictimaiyyəti dayanıqlı və sağlam gələcəyə doğru istiqamətləndirmək kimi mühüm vəzifəni öhdəsinə götürən COP29 prezidentinə və ev sahibi ölkə olan Azərbaycana ürəkdən dəstəyimizi ifadə edirik.

Planetimizin üzləşdiyi ekoloji problemlərdən dərindən narahat olan AHOA COP29 rəhbərliyinin, Azərbaycanın iqlim dəyişmələri ilə bağlı qlobal fəaliyyətdə nümayiş etdirdiyi həqiqi fədakarlığı və liderliyi alqışlayır. İqlim dəyişmələrinə qarşı mübarizəni aparmaq çox məsuliyyətli işdir. İqlim dəyişmələrinin təsirini azaltmaq, həssas icmaları/əhali qruplarını mühafizə etmək və ekosistemləri gələcək nəsillər üçün qoruyub saxlamaq üçün cəsarətli və qətiyyətli addımların tələb olunduğu kritik məqamdayıq. Bu baxımdan AHOA COP29 Prezidentinin və Azərbaycanın dialoqun, əməkdaşlığın və innovasiyaların təşviqində öhdəliyinin böyük əhəmiyyət kəsb etdiyini məmnuniyyətlə qeyd edir.

Azərbaycanın zəngin mədəni irs və müxtəlif təbii landşaftları ilə təkcə əvəzolunmaz ekoloji sərvətlərin qoruyucusu deyil, həm də iqlim dəyişmələri və ətraf mühitin mühafizəsi uğrunda fəal müdafiəçi olduğuna inanırıq. "Üçlük-Missiya 1.5" kimi təşəbbüslər vasitəsilə Azərbaycan iqlimə davamlılıq sahəsində dayanıqlı inkişafa sarsılmaz sadiqliyini nümayiş etdirdi və COP28-də əldə olunan uğurların davamlılığını təmin etdi. AHOA Azərbaycanın COP29 zamanı iqlim dəyişmələri ilə bağlı danışıqlarda güclü konsensual nəticələr əldə edəcəyinə inanır.

Vətəndaş cəmiyyəti üzvləri iqlim dəyişmələri ilə bağlı fəaliyyətdə mühüm rol oynayır, dəyişiklik üçün katalizator kimi çıxış edir və iqlim hərəkatlarına təkan verir. Yerli icmaların rəhbərlik etdiyi iqlimə uyğunlaşma layihələrindən tutmuş gənclərin bu sahədə təşviqat kampaniyalarına qədər vətəndaş cəmiyyəti təşkilatları məlumatlılığın artırılmasında, resursların səfərbər edilməsində və bütün səviyyələrdə dəyişikliklərə təkan verməkdə mühüm rol oynayır. Qlobal şəbəkə və araşdırma mərkəzi kimi AHOA COP29 Prezidentinin və Azərbaycanın mühüm qlobal əməkdaşlığa kömək etmək, iddialı öhdəliklər götürmək və hamı üçün daha dayanıqlı və ədalətli gələcəyə doğru kurs təyin etmək qabiliyyətinə tam əmindir.

Biz iqlimlə bağlı fəaliyyətin sürətləndirilməsi və planetimiz üçün daha parlaq sabahın qurulması səylərində COP29 Prezidenti, Azərbaycan və dünya üzrə vətəndaş cəmiyyəti təşkilatları ilə həmrəyik. Gəlin, birlikdə iqlim dəyişikliyinə qarşı mübarizə aparaq, həm insanların, həm də təbiətin çiçəkləndiyi bir dünya yaratmaq üçün bu tarixi fürsətdən istifadə edək".

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 120

## QƏRAR

Bakı şəhəri, 5 mart 2024-cü il

### "Azərbaycan Respublikası Prezidentinin "Reklam haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 755-VQD nömrəli Qanununun tətbiqi və "Reklam haqqında" Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1281-IVQ nömrəli Qanununun tətbiqi və "Reklam haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 noyabr tarixli 644 nömrəli Fərmanının ləğvi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 14 iyul tarixli 554 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" 2017-ci il 31 iyul tarixli 1568 nömrəli, "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 15 dekabr tarixli 947-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının 1999-cu il 25 iyun tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 4 avqust tarixli 176 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" 2017-ci il 29 dekabr tarixli 1775 nömrəli və "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 15 dekabr tarixli 918-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 386 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2018-ci il 5 fevral tarixli 1807 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 15 dekabr tarixli 2398 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin "Reklam haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 755-VQD nömrəli Qanununun tətbiqi və "Reklam haqqında" Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1281-IVQ nömrəli Qanununun tətbiqi və "Reklam haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 noyabr tarixli 644 nömrəli Fərmanının ləğvi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 14 iyul tarixli 554 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" 2017-ci il 31 iyul tarixli 1568 nömrəli, "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 15 dekabr tarixli 947-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının 1999-cu il 25 iyun tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 4 avqust tarixli 176 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" 2017-ci il 29 dekabr tarixli 1775 nömrəli və "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 15 dekabr tarixli 918-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 386 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2018-ci il 5 fevral tarixli 1807 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 15 dekabr tarixli 2398 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Açıq məkanda reklam fəaliyyətinin tənzimlənməsi ilə bağlı bir sıra məsələlər haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 26 dekabr tarixli 598 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (II kitab), maddə 2543 (Cild I) 5-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

"5. Bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilən sənəddə dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.".

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 6 iyun tarixli 253 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1352 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən tətbiq edilən cərimələrdən (o cümlədən onun tərəfindən inzibati xəta haqqında protokol tərtib edilərək baxılması üçün məhkəməyə göndərilən inzibati xətalar haqqında işlər üzrə tətbiq edilən cərimələrdən) toplanan və həmin orqanın hesabına köçürülən vəsaitdən istifadə Qaydası"nın "Qeyd" hissəsi ləğv edilsin.

3. "Tikintisi başa çatmayan binanın yerləşdiyi torpaq sahəsində müvafiq tərkib hissələrin bağlı olduğu payların nisbətini müəyyənləşdirən bölünmə planının razılaşdırılması Qaydası"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 27 dekabr tarixli 568 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (II kitab), maddə 2758 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 125

## QƏRAR

Bakı şəhəri, 7 mart 2024-cü il

### "Azərbaycan Respublikası Prezidentinin "Turizm haqqında" Azərbaycan Respublikasının 2021-ci il 27 dekabr tarixli 448-VIQ nömrəli Qanununun tətbiqi barədə" 2022-ci il 18 fevral tarixli 1601 nömrəli, "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 15 aprel tarixli 508-VIQD nömrəli Qanununun tətbiqi və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 26 dekabr tarixli 621 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2022-ci il 6 may tarixli 1673 nömrəli, "İxtiraçılıq fəaliyyətinin stimullaşdırılması haqqında" 2022-ci il 15 iyun tarixli 1716 nömrəli və "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 29 noyabr tarixli 650-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1384-IVQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 7 dekabr tarixli 700 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 2022-ci il 30 dekabr tarixli 1945 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 15 dekabr tarixli 2399 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin "Turizm haqqında" Azərbaycan Respublikasının 2021-ci il 27 dekabr tarixli 448-VIQ nömrəli Qanununun tətbiqi barədə" 2022-ci il 18 fevral tarixli 1601 nömrəli, "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 15 aprel tarixli 508-VIQD nömrəli Qanununun tətbiqi və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 26 dekabr tarixli 621 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2022-ci il 6 may tarixli 1673 nömrəli, "İxtiraçılıq fəaliyyətinin stimullaşdırılması haqqında" 2022-ci il 15 iyun tarixli 1716 nömrəli və "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 29 noyabr tarixli 650-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1384-IVQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 7 dekabr tarixli 700 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 2022-ci il 30 dekabr tarixli 1945 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 15 dekabr tarixli 2399 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Turizm sahəsində layihələrin qrant maliyyələşdirilməsi üzrə müsabiqələrin keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 15 sentyabr tarixli 353 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1087 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

2. "İxtiraların və faydalı modellərin Patent Əməkdaşlıq Sazişi (PCT) beynəlxalq sistemi vasitəsilə xarici dövlətlərdə patentləşdirilməsi və onların ilk üç il müddətində qüvvədə saxlanılması üçün Azərbaycan Respublikasının vətəndaşı olan hüquq sahiblərinin ödədikləri xərclərin 50 (əlli) faizinin dövlət tərəfindən maliyyələşdirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 9 dekabr tarixli 439 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 12, maddə 1543 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

3."Azərbaycan Respublikasında istehsal edilən, yaxud ölkəyə idxal olunan aksiz markası ilə markalanmalı və məcburi nişanlama ilə nişanlanmalı olan malların Azərbaycan Respublikasının ərazisində dövriyyəsinin tənzimlənməsi, aksiz markalarının və məcburi nişanlamanın hazırlanması üçün sifarişin verilməsi, onların tətbiqi, satışı və uçotunun aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 14 fevral tarixli 48 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 2, maddə 311 (Cild I) 5-ci hissəsi ləğv edilsin.

4. "Dövlət rüsumunun düzgün hesablanmasına və vaxtında dövlət büdcəsinə köçürülməsinə nəzarətin həyata keçirilməsi qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 19 iyun tarixli 199 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 6, maddə 861 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 126

## QƏRAR

Bakı şəhəri, 7 mart 2024-cü il

### "Azərbaycan Respublikası Prezidentinin "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2004-cü il 12 aprel tarixli 48 nömrəli, "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2012-ci il 6 iyun tarixli 648 nömrəli, "Azərbaycan Respublikasının 1999-cu il 8 dekabr tarixli 773-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2013-cü il 19 aprel tarixli 622-IVQD nömrəli Qanununun tətbiqi haqqında" 2013-cü il 16 may tarixli 898 nömrəli, "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2013-cü il 2 iyul tarixli 713-IVQ nömrəli Qanununun tətbiqi barədə" 2013-cü il 8 iyul tarixli 938 nömrəli, "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2014-cü il 16 dekabr tarixli 1143-IVQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2013-cü il 2 iyul tarixli 713-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 8 iyul tarixli 938 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" 2014-cü il 29 dekabr tarixli 435 nömrəli və "İcra məmurları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 29 iyun tarixli 144-VIQD nömrəli Qanununun tətbiqi və "İcra məmurları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 5 yanvar tarixli 246 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2020-ci il 10 avqust tarixli 1122 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 dekabr tarixli 2384 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin"Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2004-cü il 12 aprel tarixli 48 nömrəli, "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2012-ci il 6 iyun tarixli 648 nömrəli, "Azərbaycan Respublikasının 1999-cu il 8 dekabr tarixli 773-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2013-cü il 19 aprel tarixli 622-IVQD nömrəli Qanununun tətbiqi haqqında" 2013-cü il 16 may tarixli 898 nömrəli, "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2013-cü il 2 iyul tarixli 713-IVQ nömrəli Qanununun tətbiqi barədə" 2013-cü il 8 iyul tarixli 938 nömrəli, "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2014-cü il 16 dekabr tarixli 1143-IVQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2013-cü il 2 iyul tarixli 713-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 8 iyul tarixli 938 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" 2014-cü il 29 dekabr tarixli 435 nömrəli və "İcra məmurları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 29 iyun tarixli 144-VIQD nömrəli Qanununun tətbiqi və "İcra məmurları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 5 yanvar tarixli 246 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2020-ci il 10 avqust tarixli 1122 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 dekabr tarixli 2384 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Hüquqi şəxslərin dövlət reyestrinin aparılması, istifadəsi və mühafizəsi Qaydaları"nın, habelə hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestrinin aparılması ilə bağlı sənədlərin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 13 aprel tarixli 70 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 4, maddə 384 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 25 yanvar tarixli 44 nömrəli Qərarı) 1-1-ci hissəsi ləğv edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 24 avqust tarixli 317 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 8, maddə 1454 (Cild I) ilə təsdiq edilmiş "Qanunsuz miqrantların saxlanılması mərkəzlərinin daxili intizam Qaydaları"nın "Qeyd" hissəsi ləğv edilsin.

3. "Cərimə və islah işləri növlərində cəzaların, habelə hüquqi şəxslərə tətbiq edilən cərimə növündə cinayət-hüquqi tədbirlərin icrası ilə əlaqədar daxil olan vəsaitdən istifadə Qaydası"nın təsdiq edilməsi barədə"Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 28 aprel tarixli 120 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 4, maddə 423 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 127

## QƏRAR

Bakı şəhəri, 7 mart 2024-cü il

### "Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidməti haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2017-ci il 19 aprel tarixli 1340 nömrəli, "Avtomobil yolları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 17 noyabr tarixli 866-VQD nömrəli Qanununun tətbiqi və "Avtomobil yolları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 10 mart tarixli 299 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" 2017-ci il 11 dekabr tarixli 1719 nömrəli, "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1172-VQD nömrəli Qanununun tətbiqi və "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 24 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2018-ci il 26 iyun tarixli 151 nömrəli və "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 23 fevral tarixli 269-VIQD nömrəli Qanununun tətbiqi və "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 24 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2021-ci il 12 aprel tarixli 1311 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 dekabr tarixli 2382 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq,"Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidməti haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2017-ci il 19 aprel tarixli 1340 nömrəli, "Avtomobil yolları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 17 noyabr tarixli 866-VQD nömrəli Qanununun tətbiqi və "Avtomobil yolları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 10 mart tarixli  299 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" 2017-ci il 11 dekabr tarixli 1719 nömrəli, "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1172-VQD nömrəli Qanununun tətbiqi və "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 24 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2018-ci il 26 iyun tarixli 151 nömrəli və "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 23 fevral tarixli 269-VIQD nömrəli Qanununun tətbiqi və "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 24 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2021-ci il 12 aprel tarixli1311 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 dekabr tarixli 2382 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Respublikasında avtomagistraldan ödənişli yol kimi istifadə Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 mart tarixli 76 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu 2019, № 3, maddə 510 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

2. "Azərbaycan Respublikasında avtomagistraldan ödənişli əsaslarla istifadənin dayandırılması və belə istifadəyə xitam verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 mart tarixli 77 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu 2019, № 3, maddə 511 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 128

## QƏRAR

Bakı şəhəri, 7 mart 2024-cü il

### "Azərbaycan Respublikası Prezidentinin "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 25 fevral tarixli 486-VIQD nömrəli Qanununun tətbiqi və "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 28 sentyabr tarixli 773 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2022-ci il 8 aprel tarixli 1658 nömrəli, "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 17 iyun tarixli 546-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1998-ci il 13 iyun tarixli 723 nömrəli və "Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2018-ci il 16 iyul tarixli 204 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" 2022-ci il 25 iyul tarixli   1761 nömrəli və "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının  2022-ci il 23 dekabr tarixli 756-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1998-ci il 28 sentyabr tarixli 773 nömrəli, "Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin kommunal xidmətlərə qoşulma proseslərinin daha da sadələşdirilməsi haqqında" 2018-ci il 25 dekabr tarixli 434 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" 2023-cü il 3 fevral tarixli 2020 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 dekabr tarixli 2391 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında.dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 25 fevral tarixli 486-VIQD nömrəli Qanununun tətbiqi və "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 28 sentyabr tarixli 773 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2022-ci il 8 aprel tarixli 1658 nömrəli, "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 17 iyun tarixli 546-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1998-ci il 13 iyun tarixli 723 nömrəli və "Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2018-ci il 16 iyul tarixli 204 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" 2022-ci il 25 iyul tarixli 1761 nömrəli və"Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 23 dekabr tarixli 756-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1998-ci il 28 sentyabr tarixli 773 nömrəli, "Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin kommunal xidmətlərə qoşulma proseslərinin daha da sadələşdirilməsi haqqında" 2018-ci il 25 dekabr tarixli 434 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" 2023-cü il 3 fevral tarixli 2020 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 dekabr tarixli 2391 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Müayinənin və texniki xidmətin həyata keçirilməsinə monitorinqin keçirilməsi qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 25 iyuntarixli 214 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 6, maddə 874 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

2. "Qaz paylayıcısı tərəfindən qaz qurğularında, qaz xətlərində və tüstü bacalarında, habelə havalandırma və havadəyişmə xətlərində müayinənin keçirilməsi qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 25 iyun tarixli 215 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 6, maddə 875 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

3. "Müayinə və texniki xidmət məlumatları üzrə reyestrin aparılması və ondan istifadə qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 25 iyun tarixli 216 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 6, maddə 876 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

4. "İxtisaslaşmış podratçılara verilən ixtisas attestatının forması, onun verilməsi, qüvvədəolma müddətinin dayandırılması və ya ləğv edilməsi, eləcə də ixtisaslaşmış podratçıların reyestrinin aparılması və onların fəaliyyətinə nəzarətin həyata keçirilməsi qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 25 iyun tarixli 217 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 6, maddə 877 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

5. "Tikinti obyektlərinin qazpaylayıcı şəbəkəyə qoşulması və ya əlavə qaz həcmi alması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 30 avqust tarixli 297 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 8 (II kitab), maddə 1280 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 18 yanvar tarixli 28 nömrəli Qərarı) 3-cü hissəsi ləğv edilsin.

6. "İstilik enerjisindən istifadə qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 5 sentyabr tarixli 303 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 9, maddə 1324 (Cild I) 3-cü hissəsi ləğv edilsin.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 129

## QƏRAR

Bakı şəhəri, 7 mart 2024-cü il

### "Azərbaycan Respublikası Prezidentinin "Yerin təkindən istifadə olunmasının, onun mühafizəsi və idarə edilməsi mexanizmlərinin təkmilləşdirilməsi, bu sahəyə dövlət nəzarətinin gücləndirilməsi tədbirləri haqqında" 2018-ci il 16 iyul tarixli 205 nömrəli, "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 2018-ci il 1 noyabr tarixli 323 nömrəli, "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 2019-cu il 16 yanvar tarixli 476 nömrəli, "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1426-VQD nömrəli Qanununun tətbiqi və "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 26 oktyabr tarixli 3 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2019-cu il 16 yanvar tarixli 477 nömrəli, "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" Azərbaycan Respublikasının 2020-ci il 20 oktyabr tarixli 189-VIQ nömrəli Qanununun tətbiqi barədə" 2020-ci il 8 dekabr tarixli 1208 nömrəli və "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" və "Təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 13 may tarixli 536-VIQD nömrəli Qanununun tətbiqi və "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyul tarixli 540 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2022-ci il 8 iyun tarixli 1711 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 dekabr tarixli 2383 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin "Yerin təkindən istifadə olunmasının, onun mühafizəsi və idarə edilməsi mexanizmlərinin təkmilləşdirilməsi, bu sahəyə dövlət nəzarətinin gücləndirilməsi tədbirləri haqqında" 2018-ci il 16 iyul tarixli 205 nömrəli, "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 2018-ci il 1 noyabr tarixli 323 nömrəli, "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 2019-cu il 16 yanvar tarixli 476 nömrəli, "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1426-VQD nömrəli Qanununun tətbiqi və "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 26 oktyabr tarixli 3 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2019-cu il 16 yanvar tarixli 477 nömrəli, "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" Azərbaycan Respublikasının 2020-ci il 20 oktyabr tarixli 189-VIQ nömrəli Qanununun tətbiqi barədə" 2020-ci il 8 dekabr tarixli 1208 nömrəli və "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" və "Təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 13 may tarixli  536-VIQD nömrəli Qanununun tətbiqi və "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyul tarixli 540 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2022-ci il 8 iyun tarixli 1711 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 dekabr tarixli 2383 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi publik hüquqi şəxsin strukturunun, işçilərinin say həddinin, onların əməkhaqlarının məbləğinin (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) təsdiq edilməsi və əməyin ödənişi fondunun müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 17 aprel tarixli 175 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 768 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 24 yanvar tarixli 40 nömrəli Qərarı) 4-cü hissəsi ləğv edilsin.

2. "Yerin təkinin (qiymətli və əlvan (o cümlədən nəcib) metallar, qiymətli daş yataqları və təzahürləri istisna olmaqla) istifadəyə birbaşa danışıqlar yolu ilə verilməsi hallarının Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 10 may tarixli 216 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 950 (Cild I) 3-cü hissəsi ləğv edilsin.

3. "Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin yaradılması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 30 iyul tarixli 335 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 7, maddə 1357 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 24 yanvar tarixli 41 nömrəli və 8 fevral tarixli 77 nömrəli qərarları) 5-ci hissəsi ləğv edilsin.

4. "Azərbaycan Respublikasında yayılmış faydalı qazıntı yataqlarının qanunsuz işlənməsi nəticəsində dəymiş ziyana görə normativlər"in təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 mart tarixli 119 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 380 (Cild I) 3-cü hissəsi ləğv edilsin.

5. "Əlvan və qara metal tullantılarının qəbulu, uçotu, radiasiya və partlayış təhlükəsizliyi baxımından müayinədən keçirilməsi Qaydaları"nın və "Əlvan və qara metal tullantılarının əldə edilmə mənbəyinə dair Tələblər"in təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 17 fevral tarixli 39 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 2, maddə 204 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 13 fevral tarixli 86 nömrəli Qərarı) 3-cü hissəsi ləğv edilsin.

6. "Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində "Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzi" publik hüquqi şəxsin yaradılması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 6 avqust tarixli 288 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 8, maddə 977 (Cild I) 7-ci hissəsi ləğv edilsin.

7. "Donor orqanların transplantasiyası metodu ilə müalicə zərurətinin təcililik statusuna dair Meyarlar"ın və "Resipiyentin sağlamlığı üçün təhlükə törədən xəstəliklərin Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 3 sentyabr tarixli 342 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1076 (Cild I) 3-cü hissəsi ləğv edilsin.

8. "Donor orqanların götürülməsi, hazırlanması, saxlanması, daşınması və transplantasiyası Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 3 sentyabr tarixli 343 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1077 (Cild I) 3-cü hissəsi ləğv edilsin.

9. "Donorlar, resipiyentlər və donor orqanların vahid dövlət informasiya bazasının Əsasnaməsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 3 sentyabr tarixli 344 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1078 (Cild I) 3-cü hissəsi ləğv edilsin.

10. "Transplantasiya məqsədilə donor orqanların idxalı və ixracı Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 3 sentyabr tarixli 345 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1079 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

11. "Dövlət ekoloji ekspertizasının maliyyələşdirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 10 yanvar tarixli 3 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 1, maddə 124 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

12. "İnklüziv təhsilin təşkili Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 11 fevral tarixli 43 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 2, maddə 306 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# Azərbaycan öz kəndlərinin azad olunmasını tələb edir

**Dövlət sərhədinin delimitasiyası üzrə Azərbaycanda və Ermənistanda yaradılmış komissiyaların artıq 7 görüşü keçirilib.**




Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayevin xidmətindən AZƏRTAC-a daxil olan məlumata görə, hazırkı mərhələdə komissiyaların fəaliyyəti çərçivəsində delimitasiya işlərinin aparılması üçün zəruri normativ-hüquqi bazanın yaradılması üzrə işlər aparılır.

Son vaxtlar Ermənistan mediasında guya Ermənistanın 31 kəndinə məxsus torpaqların Azərbaycanın "işğalı altında" olması barədə hökumət mənbələrindən qaynaqlanan yanlış informasiya fəal şəkildə yayılır. Həmçinin qeyd olunur ki, bunu etiraf etməyən Azərbaycan Respublikası özünün işğal altındakı 4 kəndinin azad olunmasını tələb edir.

Azərbaycan tərəfi bununla bağlı qeyd etməyi vacib bilir ki, dövlət sərhədinin delimitasiyasının aparılmasına qədər Ermənistanın 31 kəndinə məxsus torpaqların "işğal edildiyini" bəyan etmək tamamilə əsassızdır.

Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş 4 eksklav olmayan kəndinə (Bağanis Ayrım, Aşağı Əskipara, Xeyrimli və Qızılhacılı) gəldikdə, onlar mübahisəsiz Azərbaycana məxsusdur və dərhal azad edilməlidir.

Delimitasiya prosesi çərçivəsində Azərbaycanın Ermənistanın işğalı altında olan 4 eksklav kəndinin (Yuxarı Əskipara, Sofulu, Barxudarlı və Kərki) azad edilməsi məsələsi də həll olunacaq.

# QMİ sədri islamofobiya ilə mübarizəyə dair beynəlxalq konfransın iştirakçıları ilə görüşüb



**Martın 9-da Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə Bakıda keçirilən "Müxtəlifliyin qorunması: 2024-cü ildə islamofobiya ilə mübarizə" mövzusunda beynəlxalq konfransın iştirakçıları ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, Şeyxülislam Allahşükür Paşazadə konfransın aktual mövzusuna diqqət çəkərək, bu gün bəzi Avropa ölkələrində islamofobiya meyillərinin ciddi təhlükə yaratdığını bildirib. Müharibələrin törətdiyi fəsadlardan danışan QMİ sədri vurğulayıb ki, Qarabağın işğalı zamanı 65 məscid ermənilər tərəfindən məhv edilib, təhqirə məruz qalıb.

"Ölkəmizdə müxtəlif dinlərə etiqad edən şəxslər birlikdə rahat şəkildə yaşayırlar. Biz bunu 44 günlük İkinci Qarabağ müharibəsi dövründə də gördük, bütün xalqların nümayəndələri Vətən uğrunda birgə mübarizə apardılar", - deyə Şeyxülislam əlavə edib.

Sonra çıxış edən Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov beynəlxalq konfransın təşkilində göstərdiyi dəstəyə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirib. O, 30-dan çox ölkədən 200-ə yaxın qonağın iştirakı ilə keçirilən bu tədbirin ölkəmizdəki sabitliyin, əmin-amanlığın bariz nümunəsi olduğunu diqqətə çatdırıb.

Görüşdə həmçinin Milli Məclisin deputatları və Azərbaycanda fəaliyyət göstərən dini konfessiyaların rəhbərləri iştirak ediblər.

Sonda iştirakçılar üçün ziyafət verilib.

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 124 — QƏRAR — Bakı şəhəri, 7 mart 2024-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Aviasiya təhlükəsizliyi personalının seçilməsi Qaydası"nın təsdiq edilməsi barədə" 2013-cü il 17 oktyabr tarixli 306 nömrəli və "Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydası"nın təsdiq edilməsi barədə" 2022-ci il 28 aprel tarixli 175 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında

"Azərbaycan Respublikasının Əmək Məcəlləsində və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1017-VIQD nömrəli Qanununun tətbiqi və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 6 mart tarixli 377 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 18 noyabr tarixli 2359 nömrəli Fərmanının 3-cü hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 17 oktyabr tarixli 306 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 10, maddə 1224 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 26 fevral tarixli 105 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Aviasiya təhlükəsizliyi personalının seçilməsi Qaydası"nın 7.2-ci bəndindən "3 (üç) ay sınaq müddəti müəyyən edilməklə," sözləri çıxarılsın.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 28 aprel tarixli 175 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 4, maddə 421 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 19 yanvar tarixli 31 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydası"nın 2.1-ci bəndinin birinci cümləsində "dövlət sosial sığorta sistemində sığortaolunanın fərdi hesabının (bundan sonra - fərdi hesab)" sözləri "fərdi şəxsi hesabının" sözləri ilə əvəz edilsin.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

# Türkiyə sülh sammiti keçirməyə hazırdır

## Prezident Rəcəb Tayyib Ərdoğan qardaş ölkənin sözünə sadiqliyini bir daha ifadə etdi

**Prezident Rəcəb Tayyib Ərdoğan və qardaş ölkədə rəsmi səfərdə olan Ukrayna Prezidenti Volodimir Zelenskinin görüşündə Rusiya-Ukrayna qarşıdurması, Qara dənizin sabitliyinə təsir edən ixrac dəhlizləri və naviqasiya təhlükəsizliyi kimi məsələlər ətraflı müzakirə olunub, iki ölkə arasında müəyyən ticarət hədəfinə çatmaq üçün səylərin artırılması ilə bağlı razılıq əldə edilib.**



Türkiyə Ukrayna ilə həmrəyliyi qoruyaraq, müharibəni danışıqlar yolu ilə ədalətli sülhlə bitirmək üçün səylərini davam etdirəcək. Bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Dolmabağça ofisində Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşündən sonra keçirilən birgə mətbuat konfransında danışıb.

Prezident Rəcəb Tayyib Ərdoğan Rusiya-Ukrayna müharibəsinə toxunaraq deyib: "Biz əvvəldən müharibənin danışıqlar yolu ilə bitməsinə öz töhfəmizi vermişik və veririk. Biz həmçinin Rusiyanın da iştirak edəcəyi sülh sammitini keçirməyə hazırıq".

Ötən ilin iyulundan sonra Volodimir Zelenskini yenidən qəbul etməkdən çox məmnun olduğunu qeyd edən Prezident Ərdoğan çərşənbə günü Ukrayna lideri və Yunanıstanın baş naziri Kiriakos Mitsotakisin olduğu əraziyə yaxın həyata keçirilən raket hücumu nəticəsində yaralanan hər kəsə tezliklə sağalma diləklərini çatdırıb və bildirib: "İki ildir davam edən müharibə nəticəsində həlak olan Ukrayna vətəndaşlarının yaxınlarına başsağlığı verirəm. Bu gün əziz dostumla müzakirələrimiz zamanı müharibə ilə bağlı hadisələri ətraflı müzakirə etdik. Bir dost səmimiyyəti ilə ona başsağlığımızı bildirdim".

Prezident Ərdoğan strateji tərəfdaşları olan Ukraynanın ərazi bütövlüyü, suverenliyi və müstəqilliyinə dəstək verdiklərini vurğulamaqla yanaşı, müharibənin regional və qlobal miqyasda, xüsusilə də Ukraynada mənfi nəticələrinin artdığını bildirib.

2022-ci ilin martında İstanbulda sülhün bərqərar olması üçün qurulan danışıqlar masasına yaxınlaşa biləcək diplomatik addımın atılmaması barədə danışan Prezident Ərdoğan əlavə edib: "Biz əvvəldən müharibəni danışıqlar yolu ilə bitirmək üçün mümkün olan hər şeyi edirik. Biz Rusiyanın iştirakı ilə sülh sammiti keçirməyə hazırıq. Məsləhətləşmələrimiz zamanı biz Qara dənizin sabitliyi ilə bağlı ixrac dəhlizləri və gəmiçilik təhlükəsizliyi kimi məsələlər ətrafında da fikir mübadiləsi apardıq. Bildiyiniz kimi, Qara Dəniz Təşəbbüsü 33 milyon tona yaxın taxılın ehtiyacı olanlara çatdırılmasına imkan verməklə qlobal ərzaq böhranının qarşısını aldı və o razılaşma da bu otaqda bağlandı. Əgər tərəflər arasında yeni razılaşma əldə etmək niyyəti varsa, biz əvvəllər etdiyimiz kimi hər cür dəstəyi verməyə hazırıq".

Türkiyə Prezidenti Ukraynanın iqtisadi cəhətdən ayağa qalxmasının və qarşıdakı dövrdə təhlükəsizliyinin davam etdirilməsinin çox vacib olduğunu vurğulayıb. Bu kontekstdə o, Ukraynanın Avro-Atlantik qurumlara inteqrasiya məqsədinə verdiyi dəstəyin dəyişməz qaldığını bildirib və sözlərini belə davam etdirib: "Bugünkü danışıqlarımız zamanı ikitərəfli münasibətlərimizin gündəliyində duran məsələləri ətraflı müzakirə etdik. Biz razıyıq ki, müharibəyə baxmayaraq, ikitərəfli ticarətimiz sabit kursdadır. Biz 10 milyard dollarlıq hədəfə çatmaq üçün səylərimizi gücləndirməyə razılaşdıq. Azad Ticarət Sazişinin tezliklə qüvvəyə minməsi, şübhəsiz ki, bu əlaqələrə yeni təkan verəcək. Bir çox şirkətlərimiz müharibə ilə bağlı bütün riskləri öz üzərinə götürüb və bu sahədə çalışırlar".

Türkiyə lideri qeyd edib ki, Krım tatarlarının Ukraynada olması iki ölkə arasında dostluğu gücləndirən mühüm elementlərdən biridir. Onun sözlərinə görə, Ukraynanın tərkib hissəsi olan Krım tatarları ölkənin ərazi bütövlüyünü bərpa etmək üçün inadkar mübarizə aparırlar.

Prezident Ərdoğan Zelenskiyə həmvətənlərinin hüquqlarının təmin edilməsi və muxtariyyətlərinin statusunun möhkəmləndirilməsi istiqamətində göstərdiyi səylərə görə təşəkkür edib, Krım tatar soydaşlarını hər zaman dəstəklədiklərini və bundan sonra da dəstəkləyəcəklərini bildirib.

Türkiyə dövlətinin başçısı qarşıdakı dövrdə də Ukrayna ilə həmrəyliyi qoruyub saxlamaqla, müharibənin ədalətli, danışıqlar yolu ilə başa çatması üçün səylərini davam etdirəcəklərini bildirib və məsləhətləşmələrin başda Türkiyə və Ukrayna olmaqla, bütün bəşəriyyət üçün faydalı olmasını arzulayıb.

Sonra Prezident Rəcəb Tayyib Ərdoğan media nümayəndələrinin suallarını cavablandırıb. Jurnalistin "Rusiyanın öz qoşunlarını Ukrayna ərazisindən çıxaracağına kim zəmanət verə bilər?" sualına Türkiyənin sülh prosesi ilə bağlı təklifini xatırladan prezident belə cavab verib: "Bu, çox çətindir, xüsusən indi, Rusiya qoşunları Ukrayna ərazisində olduqda, Türkiyə sülhə çağırış tərəfdarıdır. İnanırıq ki, Rusiya Türkiyənin mövqeyinə hörmətlə yanaşacaq. Əks halda belə sülhü təmin etmək mümkün olmayacaq".

"Ukrayna-Rusiya böhranının taleyini necə proqnozlaşdırırsınız?" sualına Tütkiyə lideri belə cavab verib: "Əlbəttə, burada üç mövzu vacibdir. Bunlardan biri ərzaq təhlükəsizliyi, digəri əsirlərin mübadiləsi, üçüncüsü isə naviqasiya təhlükəsizliyi təminatıdır. Bütün bunlarla yanaşı, cənab prezidentin Ramazan ayı ilə əlaqədar sakitliyin bərqərar olması və limanların təhlükəsizliyinin təmin edilməsi xahişi də böyük əhəmiyyət kəsb edir. Bununla yanaşı, biz inanırıq ki, bəzi imkanlar var və Türkiyə öz mövqeyi baxımından bunları təmin edə bilər. Biz ərzaq təhlükəsizliyi, əsirlərin mübadiləsi və naviqasiya zəmanəti məsələlərində Prezident Zelenski ilə razıyıq.

Bu baxımdan Türkiyə mənim və nazirlərimizin həmkarlarımızla keçirdiyi görüşlərdə bəzi müsbət yanaşmaları gördükləri üçün bu addımları atır. Ümid edirik ki, bu görüşlər müsbət nəticələr verəcəkdir. Bu zal çoxlu görüşlərə şahid olduğu üçün ümidimizi itirmirik. Mətbuat mənsubları yazılı və vizual mediada bu məsələ ilə bağlı lazımi işlər görsələr, ümid edirəm ki, müsbət nəticə əldə edəcəyik".

Danışıqlar başa çatdıqdan sonra iki ölkə arasında ticarət sahəsində əməkdaşlığa dair protokol imzalanıb.

"Mallar və nəqliyyat vasitələri barədə elektron ilkin məlumat mübadiləsi sisteminin yaradılması haqqında" Protokolu Türkiyənin ticarət naziri Emer Bolat və Ukraynanın müdafiə naziri Rustem Umerov imzalayıblar.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Əlahiddə Ümumqoşun Ordunun birləşmələri ilə komanda-qərargah təlimi keçirilib

**Əlahiddə Ümumqoşun Ordunun aidiyyəti üzrə ümumqoşun birləşmələri ilə 2024-cü tədris ilinin ilk ikitərəfli komanda-qərargah təlimi keçirilib.**





Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, komanda-qərargah təliminin birinci mərhələsi praktiki fəaliyyətlərə cəlb olunan bölmələrin müxtəlif vaxtlarda həyəcan siqnalı ilə qaldırılaraq təlim rayonlarına çıxarılması ilə başlayıb.

Qoşunların səfərbərlik ehtiyatları ilə komplektləşdirilməsi üçün şəxsi heyət və texnikaların qəbulu məntəqələri açılaraq xüsusi ixtisaslar üzrə çağırılmış heyətin praktiki qəbulu həyata keçirilib. Açılmış məntəqələrdə müvafiq qeydiyyat aparıldıqdan sonra şəxsi heyət həkim müayinəsindən keçirilib, silah və digər zəruri təminat növləri ilə təmin olunub.

Təlimdə əsas diqqət düşmənin radioelektron vasitələrinin güclü təsiri altında ümumqoşun, eləcə də tabeliyə verilən və dəstəkləyən bölmələrin qısa müddətdə gizli olaraq müxtəlif dərəcəli döyüşə hazırolma vəziyyətinə gətirilib, düşmənin təxribat-diversiya fəaliyyətinin qarşısını alıb, qəfil fəaliyyətlərinə imkan vermədən preventiv zərbələrlə hücum əzmini qırmağa yönəldilib.

Stasionar və səhra idarəetmə məntəqələrində təlimin rəhbərliyi tərəfindən müxtəlif müdaxilələrlə qərargahların fəaliyyəti qiymətləndirilib və hesabatların aparılma ardıcıllığına, düzgünlüyünə və real şəraiti əks etdirməsinə köməklik göstərilib.

Təlimə cəlb olunan mexanikləşdirilmiş, tank, artilleriya, hava hücumundan müdafiə, Hərbi Hava Qüvvələri və xüsusi təyinatlı bölmələr verilmiş tapşırıqların öhdəsindən müvəffəqiyyətlə gələrək ümumqoşun bölmələrinin qarşısında duran tapşırıqların icrasına əlverişli şərait yaradıblar.

Təlimin gedişində xüsusi təyinatlı bölmələrin vasitəsi ilə vizual müşahidə aparılıb, şərti düşmənin döyüş mövqeləri və yaxın dərinlikdəki vacib obyektləri qiymətləndirilib. Verilən döyüş tapşırığına əsasən xüsusi təyinatlılar tərəfindən şərti düşmənin müdafiəsinin ön xəttində yerləşən döyüş mövqelərinə və komanda-idarəetmə məntəqəsinə basqınlar keçirilib.

Xüsusi təyinatlı bölmələr mövqeləri və vacib obyektləri ələ keçirdikdən sonra yaxınlaşma yollarında şərti düşmənin ehtiyatlarına pusqular quraraq məhv ediblər.

Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzinin simulyasiya mərkəzində komandir və qərargahların yaranmış şəraitə uyğun qərarları dinlənildikdən sonra ikitərəfli təlimə onlayn rejimdə start verilib.

Yekunda aidiyyəti üzrə təlimə cəlb olunmuş bölmələr tərəfindən icra edilmiş fəaliyyətlərin təhlili aparılıb, çatışmazlıqlar qeyd olunub, mövcud problemlərin həlli istiqamətində və qazanılan təcrübələrin növbəti təlimlərdə tətbiq edilməsi barədə müvafiq tapşırıqlar verilib.

# Antiazərbaycançı şəbəkənin qəsd planı iflasa məhkumdur

## Azərbaycan logistika sahəsində daha ciddi mərkəzə çevriləcək

**"Son vaxtlar çaxnaşmaların əsas məğzi məhz logistik yollarla bağlıdır. Çünki dövlətlər logistik marşrutları öz əllərində saxlayaraq daha çox gəlir, dividend əldə etmək istəyirlər".**



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Vahid Əhmədov deyib. Deputat bildirib ki, bu baxımdan Orta dəhlizin açılmasında maraqlı olan və olmayan dövlətlər var. Orta dəhliz təkcə Azərbaycan üçün deyil, Orta Asiya, Yaxın Şərq, Avropa, Türkiyə üçün də çox əhəmiyyətli marşrutdur.

Vahid Əhmədov bu layihənin həyata keçirilməsinin qarşısının alınmasında müəyyən maraqlı qüvvələrin olduğunu desə də, hesab edir ki, Orta dəhliz çəkiləcək. "Hətta ola bilər ki, bu ilin sonuna kimi istifadəyə verilsin. Çünki dəhlizin açılmasında maraqlı olan kifayət qədər böyük dövlətlər var. Hazırda dəhlizlə bağlı işlər sürətlə gedir. Orta dəhliz mütləq çəkiləcək və istifadəyə veriləcək. Azərbaycan da bu yoldan kifayət qədər dividend əldə edəcək", - deyə o əlavə edib.

Deputat qeyd edib ki, əlverişli coğrafi mövqedə yerləşən Azərbaycan həm Avropa, həm də Asiya üçün əhəmiyyətli dövlətdir. Ona görə də dəhlizin ölkəmizin ərazisindən keçməsinin bizim üçün böyük əhəmiyyəti var. Orta dəhlizin açılmasına mane olanların səbəbi Azərbaycanın güclənməsidir. Ölkəmiz logistika mərkəzinə çevrilir.

Böyük layihələrdən biri olan "Bakı-Tbilisi-Qars" dəmir yolunun çəkilməsi zamanı da müəyyən problemlərin yarandığını xatırladan V.Əhmədov deyib ki, hətta bəzi dövlətlər bu yolun çəkilməsinə razı olmayıb: "Buna baxmayarq, Prezident İlham Əliyevin iradəsi nəticəsində bu dəmir yolu çəkildi. Azərbaycan müstəqil, güclü dövlətdir. Bölgədə Türkiyə-Azərbaycan birliyi güclüdür, beləliklə, müsəlman ölkələrinin belə güclənməsi bəzilərini narahat edir".

Deputat bildirib ki, Orta dəhlizin çəkilməsi Azərbaycanın logistika sahəsində daha ciddi mərkəzə çevrilməsinə dəlalət edəcək: "Dövlət başçısının fikri qətidir, bu dəhlizlə bağlı ciddi işlər gedir. Kimin istəyib-istəməməsindən asılı olmayaraq, Prezident İlham Əliyevin iradəsi nəticəsində bu dəhliz də açılacaq. Bu yol açılacağı halda bir il ərzində uğurlu nəticəsini görəcəyik, çünki Çin kimi böyük dövlət dəhlizin açılmasında çox maraqlıdır".

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

## Qərbin "azad media" prinsipləri ilə pərdələnmiş şəbəkələri ifşa edilir

**Azərbaycanın antiterror tədbirləri nəticəsində qazandığı qələbədən sonra daha da radikallaşan Qərb institutları müxtəlif şəbəkələr vasitəsilə ölkəmizə qarşı total qarayaxma kampaniyasına başlayıblar. "Toplum TV" ilə bağlı ortaya çıxan həqiqətlər Qərbin ölkəmiz əleyhinə məkrli kampaniyasında antiazərbaycançı şəbəkənin elementi olan bu "media strukturu"ndan böyük "uğurla" istifadə etdiyini təsdiqləyir. Araşdırmalar göstərir ki, "Toplum TV"nin maliyyə mənbələri naməlumdur və ölkə qanunvericiliyinə tamamilə ziddir. Milli təhlükəsizlik məsələlərinin prioritet olduğu Azərbaycanda bu kimi təxribatçı addımların hər zaman olduğu kimi, yenə də uğursuzluğa düçar olacağı şübhə doğurmur.**

Bu mövzu ilə bağlı qəzetimizə danışan Milli Məclisin deputatı Bəhruz Məhərrəmov deyib ki, ölkədə bəzi media qurumları ətrafında həyata keçirilən əməliyyat-axtarış tədbirləri heç bir formada media azadlığı kontekstində qiymətləndirilə bilməz. Müsahibimizin sözlərinə görə, hüquq-mühafizə orqanları "Toplum TV"də də səhihliyi şübhə doğurmayan faktlara və təkzibedilməz dəlillərə əsaslanaraq aidiyyəti tədbirləri həyata keçirib.

"Media sahəsində fəaliyyətin azadlığı hər kəsin qanuni yolla informasiya proseslərində iştirak hüququna dövlət tərəfindən təminat verilməsinə əsaslanır. Azərbaycan Respublikasında media azaddır və hər kəsin informasiya ilə təmin olunması üçün şərait, o cümlədən bütövlükdə media sahəsində fikir müxtəlifliyi və fəaliyyət azadlığı tam təmin edilib. Buna baxmayaraq, ölkədə bəzi "media qurumları" beşinci kolon funksiyasını yerinə yetirərək bir sıra Qərb dövlətləri və təsisatlarının imperialist niyyətlərinin aləti kimi çıxış edirlər. Ölkəmiz əleyhinə qarayaxma kampaniyasında iştirak edən belə təsisatların əksəriyyəti uzun müddət "azad media" prinsipləri altında pərdələnərək təxribat-



çılıqla məşğul olublar. Azərbaycan dövləti isə qərəzli kampaniyalara təmkinlə yanaşır, təxribatçılıqla məşğul olsa belə, yerli mediada "yaradıcı" prosesə müdaxilə etmirdi. Lakin milli təhlükəsizlik məsələləri hər bir dövlət üçün prioritetdir və Azərbaycan ölkənin fiziki sərhədlərini aşa bilməyən düşmənin daxildən beşinci kolon vasitəsilə milli təhlükəsizliyi təhdid etməsinə imkan verə bilməzdi", - deyə deputat qeyd edib.

Bəhruz Məhərrəmov söyləyib ki, bu tip media qurumları daha çox Qərbin təsir aləti kimi formalaşdığı üçün onlar barəsində görülən qanuni və hüquqi tədbirlər Qərbin qeyri-adekvat reaksiyaları ilə müşahidə olunur: "Təbii ki, bu təsisatların, ələlxüsus xəyanətkar şəbəkənin formalaşdırılmasında müstəsna rola malik USAID başda olmaqla, bir sıra Qərb fondlarının, hüquq-müdafiə adı altında fəaliyyət göstərən təşkilatların iç üzü Azərbaycana bəllidir. Çox da uzaq olmayan periodlarda bu təsisatların elə MDB məkanında həyata keçirdikləri dağıdıcı xarakterli təxribatlarını yaxşı xatırlayırıq. Təsadüfi deyil ki, USAID-in əvvəlki rəhbərlərindən fərqli olaraq, Samanta Pauer Azərbaycana və bütövlükdə türk-islam dünyasına nifrətini gizlətmir. Belə bir məqamda Qərb şəbəkəsinə daxil olan subyektlərin aktivləşəcəyi də gözlənilən idi. Ssenari isə dəyişməyib - yerli uzantılar vasitəsilə daxildə qarışıqlıq yaradılır, əgər təxribat baş tutarsa, bu prosesin, yox əgər dövlət adekvat tədbirlərlə təxribatın qarşısını almağı bacararsa, bu halda isə "medianın təzyiqlərə məruz qalması" mövzusu ətrafında anti-Azərbaycan kampaniyasına başlanır".

Deputat heç bir auditoriyası və fərqli media fəaliyyəti olmayan "Toplum TV"də əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsinin bəzi Qərb paytaxtlarında rəsmi reaksiyalara səbəb olduğunu deyib: "Maraqlıdır, görəsən bu reaksiyaları verənlər bütövlükdə "Toplum TV"nin fəaliyyəti barədə hər hansı məlumata malikdirlərmi?! Aydındır ki, verilən reaksiyalar öncədən hazırlanaraq paylanan anti-Azərbaycan kampaniyasının bir hissəsi olan tezislərdir. Əgər USAID başda olmaqla, Qərb təsisatları media azadlığı və jurnalist fəaliyyəti ilə bağlı həssasdırlarsa, 30 il davam etmiş işğal nəticəsində Qarabağ və Şərqi Zəngəzurun dağıdılmış və əmlakı talan edilmiş media strukturlarının taleyi barədə niyə bir kəlmə də olsun danışmayıb, yaxud üç il öncə eyni gündə mina terroruna qurban gedən azərbaycanlı jurnalistlərin taleyini görməzdən gəlib?! Azad media ideallarından dəm vuranların Edvard Snouden, Culian Asanc kimi şəxslərin başına hansı oyunlar açdığı hər kəsə bəllidir. Elə ABŞ-nin özündə müxalif mövqeyinə görə Donald Trampın əsas müraciət platforması olan tviter sosial hesabı niyə bloklanmışdı?! Yəni biz proseslərdən agahıq və Qərbin riyakar oyunları və saxta ssenariləri bizi yolumuzdan döndərə bilməz".

Bəhruz Məhərrəmov yekunda vurğulayıb ki, Qərbin uzun illərdir Azərbaycanda qurduğu şəbəkələrin aranı qızışdırmaq cəhdləri bundan sonra da fiaskoya məhkumdur: "Azərbaycan bərabərtərəfli əməkdaşlığa açıqdır, lakin heç bir qüvvə qalib ölkəmizlə diktə dilində danışa, təhlükəsizlik adası olan Azərbaycanda daxili sabitliyə xələl gətirə bilməz. Azərbaycan suveren və maraqlarını təmin etməyə qadir qüdrətli dövlət olaraq milli maraqlarımızı hədəfə alan istənilən təhdidə qarşı qanuni mübarizədə barışmazdır və anti-Azərbaycan şəbəkələrinə, habelə onların yerli dayaqlarının fəaliyyətinə imkan vermir".

*Nəzrin QAFARZADƏ, "Azərbaycan"*

## Əsassız ittihamlarla bizi yolumuzdan çəkindirə bilməzlər

**"Toplum TV"nin ofisində axtarış-əməliyyat tədbirlərinin həyata keçirilməsi xarici mediada ölkəmizə qarşı aparılan qarayaxma kampaniyasının yeni mərhələsinin başlanmasına səbəb olub. Gözlənilən idi ki, ölkəmizə qarşı gündəlik əsassız ittihamlar yağdıran Qərb mediası və bəzi siyasi dairələr nədənsə istifadə edib ondan "faydalanmağa"çalışırlar...**

"Hadisə" ilə bağlı dərc olunan yazılara, səsləndirilən fikirlərə diqqət yetirsək, görərik ki, dəyişən heç nə yoxdur. Ənənəvi "dost"larımız köhnə melodiyaları yeni aranjimanda səsləndirirlər.

Məsələnin maraqlı tərəfi budur ki, polisin "Toplum TV"nin ofisində keçirdiyi tədbir başa çatar-çatmaz ABŞ Dövlət Departamentinin sözçüsü Metyu Miller olduqca "operativ" şəkildə Birləşmiş Ştatların "dərin narahat olduğunu" bildirib. İş burasındadır ki, baş verən olaylardan ölkə mediası hələ xəbərsiz olduğu bir vaxtda Metyu Millerin çox keçmədən ABŞ-nin "mövqeyi"ni ifadə etməsinə təəccüblənməmək olmur. Sanki ABŞ Dövlət Departamentinin sözçüsü Metyu Miller "Toplum TV"nin ofisinə müşahidə kamerası quraşdırıb, polisin keçirdiyi tədbirin başa çatmasını həsrətlə gözləyirmiş.

İşin maraqlı tərəfi budur ki, Azərbaycana qarşı təşkil olunan kampaniyaların arxasında xarici agent statusundan geniş yararlanmaqla xarici dəstək almaqda və ya xarici təsir altında olmaqda şübhəli bilinən şəxslərə qarşı tədbir görən ABŞ dayanır. Öz daxilində hər hansı xarici təsiri qadağan edən, buna görə vətəndaşlarını məsuliyyətə cəlb edən ABŞ digər ölkələrdə, o cümlədən Azərbaycanda bu işləri böyük həvəslə həyata keçirir. Müxtəlif ölkələrdə bu əməllərə qarşı tədbir görüləndə isə xarici mediada həmin ölkəyə qarşı çirkin kampaniyalar təşkil edilir. Dərhal "fundamental azadlıqlarından istifadə edənlərə qarşı" tədbir ifadəsi işə düşür. Əslində, bu gün Azərbaycanı ittiham edənlər nəyin necə olduğunu yaxşı bilirlər. Heç də sirr deyil ki, Qərb institutları Azərbaycan qanunlarına zidd şəkildə onların sifarişləri ilə işləyən, proqramlarını icra edən media qurumlarını, jurnalistləri və ayrı-ayrı şəxsləri Azərbaycanda qarışıqlıq salıb öz planlarını həyata keçirmək məqsədilə maliyyələşdirirlər.

Xüsusilə bəzi Qərb dairələri Şərqdə terror təşkilatlarını maliyyələşdirdikləri mexanizmdən istifadə edib "öz adamlarına" adsız kartlar verirlər. Qanunsuz maliyyə vəsaitləri Qərb institutları tərəfindən Gürcüstan vasitəsilə həmin şəbəkəyə ötürülür.

Necə deyərlər, Qərb bir güllə ilə iki dovşan vurur. Həm ölkəmizdə özünün casus şəbəkəsini yaradır, həm də qanunsuz maliyyə maxinasiyalarını həyata keçirərək çirkli pullarını yuyur...

Məlum məsələdir ki, istər ABŞ-ni, istərsə də Qərbi dünyanın hər bir yerində olduğu kimi, ölkəmizdə də insan haqlarının vəziyyəti maraqlandırmır. Dünyada insanlara qarşı ən böyük haqsızlıq və ədalətsizliklərin adları çəkilən dairələrdən gəldiyi məlumdur və bu, təzə mövzu deyil. Bu gün Azərbaycanda "azad söz", "fundamental insan azadlıqları"nı "müdafiə" edənlər bu terminlərdən istifadə edərək öz maraqlarını həyata keçirməyə çalışırlar. Qərb mediasının və institutlarının bu gün səsləndirdikləri "ittihamlar" sözsüz ki, birinci olmadığı kimi, heç sonuncu da deyil. "Abzas Media" ilə əlaqədar analoji tədbirlər həyata keçirilən zaman da Qərbin bu "hərəkətliliyinin" şahidi olmuşuq. Xatırladaq ki, məlum istiqamət üzrə aparılan istintaq tədbirləri zamanı da inkarolunmaz çoxsaylı qanun pozuntuları müəyyən edilmişdi.

İş burasındadır ki, Azərbaycanda qarışıqlıq yaratmaq üçün bütün mümkün vasitələrdən istifadə etməyə çalışan Qərb öz fəaliyyətini səngitmək əvəzinə yeni "donor"lar axtarışını davam etdirir. Nə yazıq ki, özlərini "media qurumu", "azad jurnalist" kimi təqdim edən bəzi "vətəndaşlar"ımız da asanlıqla şirnikləndirici tora düşürlər. Öz ölkəsinə, Vətəninə qarşı xəyanət yolu tutanların və qanunsuz fəaliyyətlərdə iştirak edənlərin yolu sözsüz ki, dəmir barmaqlıqlar arxasından keçməlidir.

"Toplum TV" ilə bağlı görülən tədbirlərdən sonra xarici mediada, hüquq-müdafiə təşkilatlarında, eləcə də Qərb rəsmiləri tərəfindən ardıcıl ittihamların səsləndirilməsi dövlətimizin təhlükəsizliyi naminə Azərbaycanı öz daxili məkanını təxribat və qeyri-qanuni fəaliyyətdən qorumaqdan çəkindirə bilməz.

*Elşən QƏNİYEV, "Azərbaycan"*

## Azərbaycan bütün təxribatların qarşısını qətiyyətlə alacaq

**ABŞ və Fransa başda olmaqla, Qərb ölkələri Azərbaycanın son illərdə dünyada güclənən mövqeyini, beynəlxalq və ya donor təşkilatlardan, maliyyə qurumlarından asılı olmamasını, bölgədə yeni reallıqlar yaratmasını, ortaya qoyduğu qətiyyətli və dönməz siyasi iradəni həzm edə bilmirlər. Buna görə də onlar müxtəlif beynəlxalq təşkilatlar, o cümlədən Avropa Şurasının Parlament Assambleyası, Avropa İttifaqı kimi qurumlar vasitəsilə rəsmi Bakıya təzyiqlər göstərməyə çalışırlar.**

Bütün bunlarla yanaşı, Qərb anti-Azərbaycan təbliğatlarını daha da gücləndirmək üçün USAID, "Human Rights Watch", "Amnesty International" kimi "ixtisaslaşmış" təsisatlarını, həmçinin bəzi media strukturlarını da bu çirkin işə cəlb ediblər. Adlarını çəkdiyimiz bu təşkilatların əsas məqsədlərindən biri də maliyyə imkanları hesabına ölkəmizdə qarışıqlıq yaratmaq, Azərbaycanla Ermənistan arasında münasibətləri yenidən gərginləşdirmək, neokolonialist siyasəti təbliğ etmək üçün bütün mümkün vasitələrdən yararlanmaqdır.

"Toplum TV"nin Qərbdən gələn sifarişlər üzrə necə təxribatlar törətdiyi artıq danılmaz faktlarla sübut edilib. Amma Qərbin pul kisəsindən asılı olan "Azadlıq radiosu", "Amerikanın səsi" kimi qurumlar "Toplum TV" ətrafında aparılan araşdırmaları özlərinin dəst-xətinə uyğun şəkildə, əsl həqiqəti ictimaiyyətdən gizlətmək üçün həbsləri ictimaiyyətə "siyasi repressiya" kimi çatdırmağa çalışırlar. Şübhəsiz ki, bu da onların maraqlarından, həm də yeni faktların üzə çıxmaq qorxusundan qaynaqlanır. Azərbaycan hüquq-mühafizə orqanları "Toplum TV" redaksiyasında axtarış aparıb. Verilən ilkin açıqlamalardan belə məlum olur ki, bu televiziyada "qrant qaçaqlmalçılığı" üzrə şübhələr var. Təbiidir ki, bu şübhələr də təsadüfdən yaranmayıb, necə deyərlər, göydən düşməyib.

Onu da nəzərə çatdıraq ki, bir neçə gün öncə əməkhaqqı fondunun hansı mənbədən formalaşdırılması barədə bilgi verilməyən, abunə sistemi ilə işləməyən, daimi alıcıları olmayan, oxucuları üçün kod sistemi tətbiq etməyən, Media Reyestrində qeydiyyatdan keçməyən və bunu "Media haqqında" Azərbaycan Respublikası Qanununun şərtləri ilə razılaşmadıqları ilə əsaslandırmağa çalışan, qazanc gətirən legitim maliyyə qaynağı görünməyən, amma kifayət qədər böyük maliyyə dövriyyəsi mövcud olan "Toplum TV"nin ofisində axtarış-əməliyyat tədbirləri həyata




keçirilib. Bu qurumun şübhəli bilinən bir qrup əməkdaşı məsuliyyətə cəlb edilib.

"Toplum TV" ətrafında gedən proseslərə diqqətlə yanaşanda görürük ki, bu qurumla bağlı eyni proses bir müddət öncə "Abzas Media"da da aşkarlanmışdı. Ortaya çıxan faktlar və araşdırmalar aydın şəkildə göstərir ki, "Toplum TV"də gedən proseslər "Abzas Media"nın tərkib hissəsidir. Qeyd edək ki, "Abzas Media" ilə əlaqədar aparılan istintaq tədbirləri nəticəsində çoxsaylı qanun pozuntuları aşkarlanmışdır. Yəni vəsaitin reklam hesabına qazanılmadığı, imkanlı adamların xeyriyyəçiliyindən irəli gəlmədiyi, onların ABŞ-dən ötürüldüyü təsdiq olunmuşdu. Araşdırma zamanı məlum olmuşdu ki, geniş şəbəkə yaradılmaqla maliyyə maxinasiyaları həyata keçirilmiş, bu məqsədlə çirkli pullar yuyulmuşdur. "Toplum TV"də baş verənlər demək olar ki, "Abzas Media"dakı eyni ssenarinin davamıdır. Ssenarinin eyni olması bir daha sübut edir ki, adlarını çəkdiyimiz bu qurum və təşkilatlar bir mərkəzdən maliyyələşir və idarə olunurlar. Buna görə də həbslərə "siyasi repressiya" və başqa uydurma donlar geyindirməyə heç bir əsas yoxdur. Çünki araşdırma aydın şəkildə göstərdi ki, "Toplum TV"nin maliyyə qaynaqları sırasında görünən yalnız bir mənbə var ki, o da qrantlardır. Amma daha bir şübhəli məqam odur ki, bu qrantlar da qapalı saxlanılır. Şübhəsiz, bu da qanun pozuntusudur. Görünən odur ki, "Toplum TV"də hələ açılmayan başqa qanun pozuntuları da var. Yəqin ki, bütün bunları hüquq-mühafizə orqanları ətraflı çözəcək və yaxın günlərdə ictimaiyyətə geniş şəkildə məlumat veriləcək. Onda həqiqətin aynasında hər şey aydın şəkildə görünəcək.

Maraqlı və diqqətçəkən məqamlardan biri də odur ki, "Toplum TV"nin ofisində keçirilən əməliyyat başa çatar-çatmaz ABŞ Dövlət Departamentinin sözçüsü Metyu Miller ölkəsinin bu məsələdən narahat olduğunu bildirib. Belə "operativlik" elə ilk addımdan şübhəli görünür. "Toplum TV"də baş verən axtarış və həbslərdən ABŞ Dövlət Departamentinin yerli mediadan tez xəbər tutması bu şübhələri bir az da dərinləşdirir və üstü açılmamış çox mətləblərdən xəbər verir.

Elə bu fakt sübut edir ki, "Toplum TV" ilə bağlı bu prosesdə ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAID) və onun rəhbəri Samanta Pauer başda olmaqla Qərb fondları, hüquq-müdafiə təşkilatları, media mühüm rol oynayır. Maliyyə isə Qərb institutları tərəfindən Gürcüstan vasitəsilə həmin şəbəkəyə ötürülüb. Xatırladaq ki, 2023-cü ilin oktyabr ayında Gürcüstan Təhlükəsizlik Xidməti USAID-in bu yaramaz və ölkələr üçün zərərli olan əməlini ifşa etmişdi. Amma təəssüflər olsun ki, həmin təşkilatlar bu ifşadan heç bir ibrət dərsi götürməyərək yenə də çirkin məqsədlərini həyata keçirirlər.

Bu beynəlxalq təşkilatlar fəaliyyətlərini Azərbaycan qanunları əsasında deyil, ABŞ-dən gələn direktivlər və tezislər əsasında qururlar. Maliyyə xərcləri kimi, informasiya tezisləri də Qərbdən gəlir. Bu tezislər isə milli maraqlarla daban-dabana ziddir. Onlar Azərbaycanda ictimai rəyi çaşdırmağa çalışırlar. Qarabağda qazanılmış zəfərə kölgə salmaq istəyirlər. Xalqla dövlət arasında inamsızlıq yaratmaq, cəmiyyəti parçalamaq və ölkəni qarşıdurma meydanına çevirmək niyyəti güdürlər.

"Toplum TV"də aparılan araşdırmalar və ortaya çıxan danılmaz faktlar Qərbin, eyni zamanda ABŞ-nin Azərbaycanda indiyədək reallaşdırmağa çalışdığı növbəti "ssenari"lərinin uğursuzluğa düçar olduğunu bir daha göstərir. Bu fakt bir daha onu da göstərdi ki, özünün inkişaf dövrünü yaşayan Azərbaycan ona qarşı yönələn bütün təxribatların qarşısını alır və almaqda davam edəcək, lazımi anlarda qətiyyətli addımlar atacaq. Göründüyü kimi, təxribatyönümlü beynəlxalq təşkilatların ələ aldıqları yerli qrant şəbəkələri çox uzağa gedə bilmirlər və heç vaxt da gedə bilməyəcəklər. Bu təşkilatlar unudurlar ki, Azərbaycan xalqı öz Prezidenti ətrafında "dəmir yumruq" kimi birləşib. Daim mübarizəyə hazır olan bu yumruğu heç bir qüvvə qatlaya bilməz. Çünki Azərbaycanın beynəlxalq nüfuzu getdikcə artır, ölkəmiz dünyada söz sahibinə çevrilib.

*Vahid MƏHƏRRƏMOV, "Azərbaycan"*

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Fitnə-fəsad ustası

### Emmanuel Makron hərəkəti və boşboğazlığı ilə Fransanı dünyada rüsvay edir

**Bütün zamanlarda ermənipərəst mövqeyini gizlətmədən Ermənistana yardım edən Fransa fitnəkar siyasəti ilə hayların ölmüş ümidlərini "dirçəltməyə" can atır. Paris Cənubi Qafqazda sabitliyin yenidən pozulması, regionun əvvəlki kimi müharibə ocağına çevrilməsi üçün hər yola əl atır. Yəni Fransa açıq şəkildə Azərbaycan əleyhinə mövqe tutduğunu nümayiş etdirir.**



Afrikada ciddi problemlərlə üzləşmiş və ağır duruma düşən Fransa Cənubi Qafqazda da pozucu fəaliyyətindən əl çəkmir və durumu gərginləşdirmək istiqamətində "işini" davam etdirməkdədir. Fransa parlamentinin əksər deputatları, siyasi dairələri, merləri açıq-aşkar dövlətimizə qarşı düşmənçilik siyasəti yürüdür və bunu demokratiya, humanizm pərdəsi ilə ört-basdır etməyə çalışırlar.

Təcavüzkar, 30 il Azərbaycan torpaqlarını işğal altında saxlayan, bir milyondan çox insanın bəlalarına səbəb olan, şəhər və kəndlərimizi xarabazarlığa çevirən hayları, Ermənistanın hakim dairələrini yazıq, əzilən, ac-yalavac, hüquqları pozulan millət kimi dünyaya təqdim etmək, onların tərəfində durmaq Fransanın dövlət siyasətinə, ən ali məqsədinə çevrilib. Fransanın Avropa İttifaqındakı imkanlarından və başı Ukraynada müharibəyə qarışmış Rusiyanın zəifləməsindən istifadə edərək Ermənistana hərbiləşmiş missiyanın göndərilməsinə nail olması, Hayastanı silahlandırması da bu planın tərkib hissəsidir.

Faktlar açıq-aydın göstərir ki, Fransa Cənubi Qafqazda sülh prosesinə kobud şəkildə müdaxilə edir və daha böyük planlar qurur. Bu, əslində, demokratiya, humanizm deyil, təcavüzkar Ermənistanı revanşist mövqeyini davam etdirməyə həvəsləndirmək, qarşıdurmanı kəskinləşdirmək, yeni müharibəni alovlandırmaq cəhdidir.

Fransa Prezidenti Emmanuel Makronun isə yürütdüyü siyasət ölkəsini bütün dünyada rüsvay edir. Makron planetin hər hansı nöqtəsində baş verən istənilən hadisəyə imper təfəkkürlə münasibət bildirməyi özünə borc bilir, amma onun fəaliyyəti danışmaqdan uzağa getmir. Az qala hər gün Rusiya-Ukrayna müharibəsinə münasibət bildirən, dünyanı Ukraynaya dəstək göstərməyə çağıran Makronun öz ölkəsinin Ukraynaya yardımı gülünc rəqəmlərdə ifadə olunur. Belə görünür ki, 2 ildir davam edən müharibədə Fransa Ukraynaya normal yardım belə etməyib. Makron ancaq Ukraynanı boşboğazlıq edərək silahlandırmaqla məşğuldur. Makron Fransa əsgərlərinin Ukraynada olmalı olduqlarını bəyan edir, o biri tərəfdən isə bu fikri eləbelə səsləndirdiyini deyir. Bu qədər məsuliyyətsizlik nəinki Fransa Prezidentinə, bu ölkənin kiçik bir şəhərinin merinə belə yaraşmır.

Sanki Ukraynaya yardımı başa çatdırıb bu cəbhədə strateji məqsədlərə nail olmuş kimi Makron indi də Moldovada missiya yaradır. Amma heç kim başa düşmür ki, bu missiyanı yaratmaqda məqsəd nədir və Paris bununla nə etmək istəyir?!

Fransa Prezidenti Ermənistanda da missiyanın yaradılmasına nail olub, bu ölkəyə silah satır, Fransa şirkətlərinin lisenziyası əsasında Hindistan tərəfindən istehsal olunan silahlar Hayastana satılır. Amma bu dövr ərzində Ermənistanın durumu daha da pisləşib. Görünür, Ermənistana dəstək həm də Makron üçün yaxşı biznesdir.

Digər tərəfdən, fransızlar Afrikadan qovulur, koloniyalarda etirazlar səngimək bilmir. Proseslər göstərir ki, son 300 ildə Afrika, Asiya və Latın Amerikası ölkələrində yaratdığı müstəmləkələrin hesabına varlanan Fransa artıq Ermənistanı da öz müstəmləkəsi hesab edir.

Ancaq Emmanuel Makron unudur ki, Azərbaycan onun hökmranlıq etdiyi hansısa Afrika ölkəsi deyil. Bu gün kimsə Azərbaycanla hədə, təhdid dili ilə danışa bilməz. Azərbaycan özünün milli təhlükəsizliyini qorumağa, sərhədlərini möhkəmləndirməyə, düşmənə və havadarlarına cavab verməyə qadirdir və onun təsir göstərə biləcəyi dövlət deyil.

Prezident İlham Əliyev bunu dəfələrlə söyləyib. Müzəffər Ali Baş Komandan kimi İlham Əliyev elə Makronun da diqqətinə çatdırıb ki, Azərbaycan regionda sülhün, təhlükəsizliyin təmin olunması istiqamətində lazımi addımlar atır və bu siyasətini də davam etdirəcək. Azərbaycan yenidən müharibənin baş verməsini istəmir. Əgər bu, baş verərsə, yenə də əzilən tərəf Ermənistan olacaq və bu ölkə onilliklərlə özünə gəlməyəcək.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

## Xankəndidə separatçılığın və terrorçuluğun izləri aradan qaldırılır

**"Ermənilərin işğal dövründə Xankəndidə Azərbaycana düşmən münasibətlərini təbliğ etmək məqsədilə tikdikləri binaları sökmək tamamilə düzgün addımdır. Nəzərə almaq lazımdır ki, Xankəndi neytral şəhər deyil və başqa dövlət tərəfindən idarə edilmir. Xankəndi əzəli və əbədi Azərbaycan ərazisi olduğuna görə orada nəyi necə inşa etmək ölkəmizin daxili işidir. Əlbəttə ki, qanunsuz tikililər sökülməlidir".**



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Anar İsgəndərov deyib. Deputat qeyd edib ki, Vətən müharibəsindən sonra Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa və quruculuq işləri o qədər sürətli və keyfiyyətlidir ki, hamının diqqətini cəlb edir. Bu uğura sevinənlər, eləcə də bunu qəbul etməyənlər və özünə dərd edənlər məlumdur.

Deputat söyləyib ki, Qarabağ və Şərqi Zəngəzur tarixi Azərbaycan torpaqlarıdır: "Azərbaycan tarixi torpaqlarını düşmən işğalından azad etdi. Bu gün artıq həmin ərazilərdə hansı şəhərin və kəndin necə inşa ediləcəyi, su anbarlarının harada tikiləcəyi, abidələrin necə bərpa olunacağı Azərbaycanın öz işidir. Xankəndidə o binalar ki, sökülür, deməli, doğrudan da, sökülməli imiş. Vaxtilə Azərbaycan xalqına qarşı soyqırımı planları hazırlayanların yuvasına çevrilən binalar bizə lazım deyil. Azərbaycan dövləti kəndlərimizi, şəhərlərimizi oda-alova vermək üçün planlar hazırlanan şeytan yuvalarını niyə qoruyub saxlamalıdır?! Ermənilərin 30 illik işğalı dövründə separatizmin simvoluna çevrilən binalar, ucaldılan heykəllər, bütün obyektlər, əlbəttə ki, dağıdılacaq".

Anar İsgəndərovun sözlərinə görə, Vətən müharibəsində Azərbaycan öz torpaqlarını işğaldan azad etdi. Müharibədən dərhal sonra isə həmin ərazilərimizdən yenidənqurma işlərinə başlanıldı. İndi bunu gözü götürməyən ermənilər guya onlara məxsus binaların, heykəllərin sökülməsini uydurub bar-bar bağırırlar.

"Yüz illər boyu erməni xislətini başa düşməmişdik, bizə bu barədə heç nə deməmişdilər. Sovet hökumətinin xalqlar dostluğu siyasəti bizə başqa ideoloji xətti təlqin edirdi. Ancaq biz, nəhayət, dərk etdik ki, erməni bizə qonşu olsa da, həm də düşməndir. Bu mənada Azərbaycan xalqı erməni xislətinə artıq yaxşı bələddir. Əslində, onların bina, abidə, heykəl dərdi yoxdur, sadəcə olaraq işğalçılıq və separatçılıq ruhu hayları dinc oturmağa qoymur. Azərbaycan dövləti isə ermənilərin xalqımıza qarşı törətdikləri vəhşilikləri, işgəncələri heç vaxt yaddan çıxarmayacaq. Ermənistan və havadarları nə oyundan çıxırlarsa-çıxsınlar, bizi öz haqq yolumuzdan döndərə bilməyəcəklər", - deyə müsahibimiz əlavə edib.

Deputat yekunda qeyd edib ki, Ermənistanın Xankəndidəki qanunsuz tikililərin sökülməsinə siyasi don geydirməyə çalışması tamamilə əsassız və qəbuledilməzdir. Onların riyakar cəhdlərinə baxmayaraq, işğal dövründə tikilən belə binalar sökülləcək.

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

## Düşmənçiliyi heykəllə aparan Fransa

### Natəvanın abidəsinə qarşı edilən vandallıq Makron hakimiyyətinin çirkin simasından xəbər verir

**"...Bu, deyə bilərəm ki, artıq kin, gücsüzlük və isterikanın özünü heykəldə göstərdiyi mənəvi deqradasiyanın dibidir. Yəni burada onlar praktik olaraq ermənilərdən az fərqlənirlər. Çünki ermənilər Natəvanın Ağdamdakı məzarını qazıblar, heykəlini məhv ediblər. ... Fransa isə Natəvanın həmin ölkədə heykəlini təhqir edir. Göründüyü kimi, burada bir oxşarlıq var".**



Prezident İlham Əliyevin yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsi zamanı səsləndirdiyi kimi, özünü dünyaya "mədəniyyət beşiyi" kimi təqdim edən Fransa Azərbaycanın görkəmli şairi Xurşidbanu Natəvanın heykəlinə qarşı törətdiyi vandallıq aktı ilə əsl çirkin simasını sərgiləmiş oldu. Həm də işğal müddətində ərazilərimizdəki maddi-mədəni irsi vəhşicəsinə dağıdan Ermənistandan heç nə ilə fərqlənmədiyini, özünün də mədəniyyət düşməni olduğunu göstərdi.

### Mədəniyyət düşməni

Belə ki, martın əvvəlində Natəvanın Fransanın Evian lö Bən şəhərindəki heykəlinin Parisə gətirilməsi və səfirliyin nəzdindəki Mədəniyyət Mərkəzinin bağında ucaldılması zamanı müəyyən olunub ki, üzərinə qırmızı boya atılmaqla yanaşı, heykəlin gözləri, adının və Azərbaycan yazısının yazıldığı hissələrinə də qırmızı boya çəkilib, abidəyə zərər verilib. Belə ki, heykəlin burnu və barmaqları qırılıb.

Bu gün dünyada birnömrəli islamofob ölkə kimi tanınan Fransanın anti-Azərbaycan fəaliyyəti tüğyan edir. Erməni lobbisinin pul hərisinə çevrilən Makron hökuməti bütün platformalarda ölkəmizə qarşı qərəz siyasəti həyata keçirir. Gah Avropa Parlamentində "qətnamə" adı altında kağız-kuğuz parçaları qəbul etdirir, Ermənistanı silahlandırıraraq savaşa qızışdırır, gah da Natəvanın heykəlinin timsalında mədəniyyətimizə hücum edir. Bütün bunlar, əslində, Azərbaycanın Fransanın yürütdüyü istər neokolonialist, istər şovinizm, ksenofobiya və digər mədəniyyətlərə qarşı dözümsüzlük siyasətini ifşa etməsinin fonunda baş verir. Dünyadakı müstəmləkələrindən bir-bir qovulan Parisin Qafqaza yerləşmək planının Bakı tərəfindən suya salınması, casus şəbəkəsinin çökdürülməsi isə Makron hökumətini olduqca qəzəbləndirib. Buna görə də sülhün, dostluğun, incəsənətin, mədəniyyətin azərbaycanlı rəmzi olan şair Xurşidbanu Natəvanın heykəlinə əl uzadır.

### Natəvanın Dümanı şahmatda mat etməsi...

O Natəvan ki, hələ indi özünü müasir, demokratik dəyərlərə sahib kimi qələmə verən Avropada qadınlar azad sözə, hüquqa malik olmadığı XIX əsrdə Azərbaycanda siyasətdə də, sosial həyatda da, incəsənətdə də, mədəniyyətdə də öz sözünü deyib. Xan qızı Natəvanın 1858-ci ildə məşhur fransız yazıçısı Aleksandr Dümanı şahmatda mat etməsi isə hələ də dillərdə dastandır...

Əslində, Fransanın başqa xalqlara məxsus tarixi və mədəniyyət sərvətlərini müsadirə etmiş ölkə olması gerçəkliyini, Ermənistan tərəfindən 30 il müddətində xalqımıza məxsus tarixi, mədəni və dini abidələrin tamamilə dağıdılmasına görə UNESCO çərçivəsində heç vaxt narahatlığını ifadə etməməsini və bu kimi əməllərini göz önünə gətirdikdə Parisin mədəniyyətə qarşı münasibətinin hansı murdar səviyyədə olduğunu aydın təsəvvür etmək mümkündür.

Bu baxımdan Fransanın Natəvanın heykəlinə qarşı vandallıq aktı sadəcə özünün acizliyini və bundan əvvəl ermənilərin törətdiyi mədəni soyqırımını davam etdirdiklərini göstərir. İşğal zamanı mənfur ermənilər Xan qızının Şuşada ucaldılmış büstünü güllələyərək zədələmiş, sonra isə tamahkarlıqla bu mədəniyyət nümunəsini əritmək, ondan qazanc əldə etmək istəmişdilər. Amma bu iyrənc əməllərinə çata bilməmişdilər, Natəvanın "yaralı" büstü Ulu Öndər Heydər Əliyev tərəfindən vandallardan xilas edilərək, bir gün mütləq Şuşaya qaytarılacağı qətiyyəti ilə Bakıya gətirilmiş və müvəqqəti olaraq İncəsənət Muzeyinin həyətində yerləşdirilmişdi.

Parlaq Zəfərimizdən sonra isə Xurşidbanu Natəvanın həmin heykəli Şuşaya, öz əvvəlki yerinə qaytarılıb.

Bütün bunlar da göstərir ki, mənfur düşmənlər nə qədər çalışsa da, xalqımızın mənəvi, mədəni ruhunu sındıra, məhv edə bilməz.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## Halal haqqımız

### Azərbaycan ərazisində nə separatizmə, nə də onun simvollarına yer var

**Xankəndidə erməni faşistlərinin fəaliyyət göstərdikləri binanın sökülməsi bu gün separatçılar tərəfindən "erməni mədəniyyəti"nə və "memarlıq abidələri"nə qarşı atılan addım kimi qiymətləndirilir. Bu yerdə bir atalar sözü yada düşür: "Ay doğar gədiyindən, utan bir dediyindən".**



Amma ermənilər heç vaxt dediklərindən utanmayıblar. Utansaydılar, az qala dünya səviyyəsində hay-küy qaldırıb Xankəndidə erməni "tarixi abidələri"nə divan tutulduğunu iddia etməzdilər. Əlbəttə, biz uzun illərdir erməni təbliğatının gülünc və komik çalarlara boyanmasının şahidiyik. Amma gəl ki, "bu xına o xınadan deyil". Yorulmadan boğazlarını yırtsalar da ki, Xankəndidə "ermənilərə məxsus tarixi binalar" dağıdılır - faydası yoxdur. Çünki sökülən "tarixi bina" yox, separatçı şeytan yuvasıdır ki, ona da Azərbaycanda yer yoxdur.

Məgər bunu anlamaq o qədər çətindir? İkinci Dünya müharibəsinin sonunda Berlini alman faşistlərindən azad edən koalisiya qüvvələri 250 min binası olan şəhərin 30 mindən artığını sökmüşlər. Bununla onlar Berlini həm də alman faşizminin simvollarından azad etmişlər. Nə oldu, başqaları faşizm simvollarından azad ola bilər, biz yox?! Belə çıxır ki, ərazilərimizi işğal edəsən, bir milyondan artıq insanı evindən-eşiyindən didərgin salasan, minlərlə insanı qətlə yetirəsən və 30 il kəndləri və şəhərləri aramsız dağıdasan və sonda layiqli cəzanı alanda ağı deyib dünyanı haylayasan və dünya da sənə ürəyiyananlıq etməlidir?!

Erməni mətbuatında belə sərsəm iddiaların sayı-hesabı yoxdur. Hətta elə xəbərlər var ki, Haaqa Konvensiyasının maddələrinə istinadən bizi ittiham etməyi belə özlərinə ar bilmirlər. Yəni bu cür həyasızlıqla Xankəndidə erməni faşistlərinin simvolunun sökülməsinə cidd-cəhdlə siyasi don geyindirmək istəyirlər. Amma onun fərqinə varmırlar ki, uydurulan bütün yalanlar lətifə səviyyəsindən başqa bir cəhd deyil. Bu ucuz hay-küyün hətta öz çaplarında belə heç bir siyasi çəkisi yoxdur.

Çünki ortada reallıq var. O da bundan ibarətdir ki, uzun illər tarixi Xankəndi şəhəri Azərbaycan SSR-in tərkibində sürətlə inkişaf edirdi. Hələ Ulu Öndərin respublikamıza ilk rəhbərliyi dövründə Xankəndinin baş planı təsdiqlənmiş, həmin plan çərçivəsində şəhərdə geniş tikinti-quruculuq işləri aparılmışdı. Faktiki olaraq Xankəndi milli memarlıq baxımndan Azərbaycanın şəhərlərindən biri kimi inkişaf etmişdi.

Təəssüf ki, Qarabağ və Şərqi Zəngəzur işğal edildikdən sonra hakimiyyəti ələ keçirən erməni quldur dəstələri bütün regionda Azərbaycan memarlıq nümunələrinə aid nə vardısa, hamısını məhv etdilər. Xankəndinin simasını isə büsbütün dəyişdilər və hər yerdə faşist rejimini təmsil edən tikililər peyda oldu. Xankəndinin baş planı yerli-dibli unuduldu, əvəzində bu qədim Azərbaycan şəhəri bir-birindən əcaib erməni memarlığını yamsılayan obyektlərin ünvanı oldu. Faktiki olaraq tikilən azdan-çoxdan nə vardısa, Xankəndinin inkişafına yox, erməni faşist ideologiyasının təbliğinə yönəldildi. Bu baxımdan ermənilərin sökülməsini bağıra-bağıra car çəkdikləri "parlament binası" da işğalı əbədiyyətə qədər uzatmağa yönələn addımdan savayı bir şey deyil. O bina ki, oradan Qarabağın, Şərqi Zəngəzurun qəddarcasına işğalı həyata keçirilib, regionun azərbaycanlı əhalisinə, milli-mənəvi dəyərlərinə amansız divan tutulub. Həmin binada ermənilər Azərbaycana qarşı ən alçaq işğal planlarını reallaşdırıblar, ən humanist dəyərlərimizi ayaqlayan soyqırımı ideyalarını hazırlayıblar. Bu binada oturanlar 30 ildən yuxarı bütün Azərbaycan dövlətinə və xalqına qənim kəsiliblər. Faktiki olaraq bu binadan işğal altındakı ərazilər faşist ideologiyası ilə idarə edilib. Qısası, bu bina 30 ildən yuxarı amansız faşist ideologiyasına xidmət edən ilan yuvası olub. Burada çalışanlar 30 il günahsiz insanların, o cümlədən qocaların, qadınların və uşaqların qətlini törədiblər. Belə bir yuvanı yerlə bir etməyib nə etməliydik ki?!

Azərbaycan öz torpaqlarında vacib saydığı addımları bundan sonra da atacaq. Erməni separatçıları da bilməlidirlər ki, onların Qarabağda və Şərqi Zəngəzurdakı faşist izlərini silmək bizim halal haqqımızdır və bu haqqı əlimizdən heç kəs ala bilməz.

*Bahadur İMANQULİYEV,*
*"Azərbaycan"*

# İŞİMİZ, GÜZƏRANIMIZ

# Azərbaycan beynəlxalq "yaşıl enerji" mərkəzinə çevrilir

## Bu sahə üzrə Məşvərət Şurasının Bakıda keçirilən 2-ci iclasında mühüm məsələlər müzakirə olundu

**Bu ayın əvvəlində Bakıda keçirilən "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin iclası sayca 10-cu idi. Keçən ildən başlayaraq bu toplantı ilə yanaşı, "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin iclası da keçirilir.**

"Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının illik toplantıları ötən tədbirdən sonra görülən işlərə yekun vurmaqla bərabər, qarşıda dayanan vəzifələri də müəyyən edir və bu minvalla layihənin gerçəkləşməsində müstəsna rol oynayıb. "Yaşıl Enerji" Məşvərət Şurasının iclasları da eyni məqsədi daşıyır. Əlbəttə ki, bərpaolunan enerji sahəsində.

2024-cü ilin Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan olunması, ölkəmizin COP29-a ev sahibi seçilməsi, Bakıda "Yaşıl Enerji" Məşvərət Şurasının 2-ci iclasının keçirilməsi, əslində, bir-biri ilə sıx əlaqədardır. Bunun başlıca səbəblərindən biri Azərbaycanın "yaşıl enerji" mənbələrinin zəngin olmasından qaynaqlanır. Ölkəmizin bərpaolunan enerji mənbələrinin texniki potensialı quruda 135 qiqavat, dənizdə 157 qiqavatdır. Odur ki, bərpaolunan enerji potensialından səmərəli istifadə edilməsi məqsədilə mühüm addımlar atılır. Hələ 2004-cü ildə "Azərbaycan Respublikasında alternativ və bərpaolunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı" qəbul edilib. Bu proqram bərpaolunan enerji mənbələrinin istifadəsində əsaslı dəyişikliklərin həyata keçirilməsinə və ölkəmizin bu sahədəki potensialının dəyərləndirilməsinə imkan verib.

Beləliklə, Azərbaycan ənənəvi enerji növlərinə alternativ olaraq "yaşıl enerji"nin inkişaf etdirilməsini də həyata keçirir. Səudiyyə Ərəbistanının "ACWA Power" və Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) "Masdar" şirkətləri ilə 240 meqavat gücündə külək və 230 meqavat gücündə günəş enerjisi üzrə pilot layihələrlə başlayan "yaşıl enerji" tərəfdaşlığının miqyası və coğrafiyası qısa müddətdə xeyli genişləndi. Az bir vaxtda "Masdar", "ACWA Power", bp, "Fortescue Future Industries", "China Gezhouba Group Overseas Investment", "Total Energies", "Nobel Energy" və "A-Z Czech Engineering" şirkətləri ilə ümumi gücü 28 qiqavatdan çox olan layihələrə dair əməkdaşlıq sənədləri imzalandı.

İndi hədəflərə çatmaq üçün ardıcıl iş aparılır. Keçən ilin oktyabrında 230 meqavat gücündə "Qaradağ" Günəş-Elektrik Stansiyası istifadəyə verildi. Həmçinin "Masdar"la 10 qiqavatadək həcmdə müqavilələr bağlanıb. İlkin mərhələdə quruda sənaye miqyaslı 1 qiqavat gücündə günəş və 1 qiqavat gücündə külək enerjisi, həmçinin 2 qiqavat gücündə dənizdə külək və inteqrə olunmuş "yaşıl hidrogen" istehsalı layihələrinin qiymətləndirilməsi, inkişafı və həyata keçirilməsi ilə bağlı İcra Müqaviləsi imzalanıb. Bu çərçivədə Neftçalada 390 meqavatlıq günəş, Biləsuvarda 445 meqavatlıq günəş və Qobustanda 200-300 meqavat gücündə külək-elektrik stansiyalarının inşası nəzərdə tutulur.

240 meqavat gücündə "Xızı-Abşeron" Külək-Elektik Stansiyasının tikinti işləri isə bu enerji obyektinin 2025-ci ildə istismara verilməsi qrafikinə uyğun davam etdirilir. "ACWA Power" şirkəti ilə dənizdə və quruda ümumi gücü 2,5 qiqavatadək külək layihəsinin həyata keçirilməsinə dair icra müqavilələri çərçivəsində ötən il Batareya Enerji Saxlama Sistemi və quruda 200 meqavat külək layihələri üzrə Yol Xəritəsi imzalanıb.

Məlum olduğu kimi, 44 günlük Vətən müharibəsi zəfərlə başa çatandan az sonra Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərimizi "yaşıl enerji" zonası edib. Bu ilin ikinci yarısında Cəbrayıl rayonunda bp tərəfindən 240 meqavat gücündə günəş-elektrik stansiyasının təməlinin qoyulacağı gözlənilir. Həmçinin Cəbrayılda "Nobel Energy", Füzulidə isə Çin şirkəti ilə günəş-elektrik stansiyalarının tikintisi üçün danışıqlar aparılıb.

Ötən il işğaldan azad edilən ərazilərdə olan 12 bölgədə tikilən yarımstansiya və su-elektrik stansiyalarının açılışı olub. 2023-cü ildə işğaldan azad edilən ərazilərdə "Azərenerji"nin 9 elektrik stansiyasının tikintisinə başlanılıb və hazırda həmin 9 stansiya da daxil olmaqla Qarabağ və Şərqi Zəngəzurda 12 yerdə ekoloji cəhətdən təmiz "yaşıl enerji" istehsal edəcək su-elektrik stansiyalarının tikintisi davam edir və onların bir neçəsində işlər tamamlanıb.

"Yaşıl Enerji" Məşvərət Şurasının 2-ci iclasında da məhz bərpaolunan enerjinin inkişafı istiqamətində həyata keçirilən bu və digər tədbirlərdən bəhs edilib. Prezident İlham Əliyev martın 1-də "Gülüstan" sarayında keçirilən iclasda çıxış edərkən bu məsələyə də toxunaraq deyib:" Bizim bərpaolunan enerji ehtiyatları baxımından nəhəng potensialımız var, istər Xəzər dənizində, istərsə də qurudakı potensial olsun. Bildiyimiz kimi, biz "Qara Dəniz Yaşıl Kabel" layihəsi ilə Avropaya "yaşıl enerji"nin önəmli ixracatçılarından biri olmağı nəzərdə tuturuq. Artıq qərara alınıb ki, bu layihə inteqrasiya edilmiş layihə olmaqla Xəzər dənizindəki külək dəyirmanlarından yeni ötürücü xətlərlə Qara dənizin dibi ilə Avropaya gedəcək. Beləliklə, bunlar bizim planlardır. Əlbəttə ki, bərpaolunan enerji mənbələrimiz nə qədər çox olsa, indi elektrik enerjisi istehsalı üçün istifadə etdiyimiz təbii qaza daha çox qənaət etmiş olacağıq".

Toplantıda vurğulanıb ki, 2030-cu ilədək planlaşdırılan 10 QVt "yaşıl enerji" güclərinin ilkin mərhələdə 5 QVt-nın Qara dəniz və Türkiyə üzərindən "yaşıl dəhliz"lərlə Avropaya ixracı həmçinin Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığın "yaşıl keçid"inə də töhfə verəcək.

Avropa Komissiyasının enerji məsələləri üzrə komissarı Kadri Simson çıxışında bildirib ki, enerji təhlükəsizliyinə nail olmaq və bu mühüm onillikdə enerji keçidinə uğur qazanmaq üçün etibarlı tərəfdaşlar arasında daha çox dialoq və əməkdaşlığa ehtiyac var."Azərbaycan qaz təchizatında Aİ üçün etibarlı tərəfdaş olmaqda davam edir. Buna görə biz indi də əməkdaşlığı "yaşıl elektrik" enerjisinə qədər genişləndirməyi araşdırırıq. Biz artıq bu ilin sonunda COP29 üzrə Azərbaycanla əməkdaşlığı səbirsizliklə gözləyirik".

Türkiyənin energetika və təbii ehtiyatlar nazirinin müavini Nevzat Şatıroğlu da Məşvərət Şurasının toplantısını yüksək dəyərləndirib: "Bu görüşdə belə yüksəksəviyyəli iştirak region ölkələrinin enerji təhlükəsizliyi və "yaşıl enerji" ilə daha təmiz gələcək istiqamətində əməkdaşlıq əzmini nümayiş etdirir. Mənbələri və marşrutları şaxələndirməklə biz enerji təchizatının uzunmüddətli təhlükəsizliyinə nail olmalıyıq. Bu nəhəng layihələri sıx əməkdaşlıq yolu ilə həyata keçirmək olar. Türkiyə Şərqlə Qərb arasında özünəməxsus yerləşməsi ilə regionda enerji layihələri üçün əsas vasitəçi kimi xidmət etməkdə davam edir".

Rumıniyanın energetika naziri Sebastian-Ioan Burduja, BƏƏ-nin energetika və infrastruktur naziri Suhail Mohamed Al Mazrouei, Moldovanın energetika naziri Viktor Parlikov, Bolqarıstanın energetika nazirinin müavini Iva Petrova və başqaları enerji keçidi ilə bağlı məsələlərə toxunaraq bu istiqamətdə ölkəmizin addımlarını yüksək dəyərləndiriblər.

Toplantı çərçivəsində bərpaolunan enerji sahəsində əməkdaşlıq sənədləri imzalanıb. Energetika Nazirliyi ilə "Nobel Energy" şirkəti arasında imzalanmış Anlaşma Memorandumu Cəbrayıl rayonunda günəş-elektrik stansiyasının tikintisi və istehlakı üzrə əməkdaşlığı nəzərdə tutur. Sənədə əsasən, 50 MVt-ı ilkin mərhələdə, 50 MVt-ı isə növbəti mərhələdə olmaqla, ümumilikdə 100 MVt həcmində günəş-elektrik stansiyasının tikintisi planlaşdırılır.

Energetika Nazirliyi və İspaniyanın "Elecnor" şirkəti arasında da əməkdaşlıq sənədi imzalanıb. Azərbaycanda bərpaolunan enerji layihəsi üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu Qaradağ rayonunda 70 MVt gücündə küləkelektrik stansiyası layihəsinin həyata keçirilməsi sahəsində əməkdaşlığı əhatə edir. Bu çərçivədə küləkölçmə məlumatlarının toplanması və təhlili, həmçinin enerji saxlanc sistemi də daxil olmaqla, külək və günəş enerjisi layihələrinin inkişafı üzrə də əməkdaşlıq ediləcək.

Bütün bunlar göstərir ki, "Yaşıl Enerji" Məşvərət Şurası qısa müddətdə bərpaolunan enerji məsələlərinin müzakirə edildiyi, görüləcək işlərin müəyyənləşdirildiyi tədbirə çevrilib. Bakının evsahibliyi etdiyi COP29 isə bu məsələlərin həlli üçün daha geniş bir platforma olacaq.



*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Universitet-biznes əməkdaşlığı istiqamətində layihələr həyata keçirilir

**KOB subyektlərinin inkişafına dəstək məqsədilə Azərbaycan Texniki Universitetində (AzTU) KOB Model Müəssisəsi yaradılıb. İqtisadiyyat naziri Mikayıl Cabbarov, elm və təhsil nazirinin müavini İdris İsayev KOB Model Müəssisəsinin fəaliyyəti ilə tanış olublar.**



Azərbaycan Texniki Universitetinin rektoru Vilayət Vəliyev, İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədovun, Milli Aviasiya Akademiyasının (MAA) birinci prorektoru Ədalət Səmədovun da iştirak etdiyi tədbirdə bildirilib ki, Model Müəssisə sənaye sahəsində fəaliyyət göstərən KOB subyektlərinə və gələcəkdə öz bizneslərini qurmaq istəyən tələbələrə təcrübə keçməyə, bacarıqlarını artırmağa, xüsusilə də universitet-sahibkarlıq əməkdaşlığını inkişaf etdirməyə imkan verəcək.

KOBİA tərəfindən beynəlxalq təcrübə araşdırılmaqla yaradılmış Model Müəssisədə ilkin planlaşdırmadan başlayaraq müəssisənin qurulmasına qədər real biznes prosesini əyani müşahidə etmək mümkün olacaq. Model Müəssisə zəruri avadanlıqlarla təchiz olunub ki, bu da müasir texnoloji avadanlıqların fəaliyyətini əyani görməyə, resursa, vaxta və xərclərə qənaət üsullarını öyrənməyə imkan verir. Model Müəssisənin təlim-tədris audutoriyalarında həmçinin sahibkarlıqla bağlı ilkin biliklər veriləcək. KOB Model Müəssisəsinin universitet-sahibarkalıq modelinə inteqrasiyasını təmin etmək məqsədilə AzTU-da qurulan Mühəndis Gəlişdirmə Proqramının (MGP) Emalatxanası ilə də tanışlıq olub.

Diqqətə çatdırılıb ki, MGP Türk Aviasiya və Kosmik Sənaye Şirkətinin (TUSAŞ) sənayeyönümlü proqramı əsasında AzTU və Milli Aviasiya Akademiyası ilə birgə ərsəyə gəlib. Proqram çərçivəsində hər il orta hesabla 100 yüksəkixtisaslı mühəndisin hazırlanması nəzərdə tutulur. Bu il MGP proqramı TUSAŞ-ın mütəxəssisləri tərəfindən yerinə yetirilir. Proqram dinləyiciləri AzTU və MAA-nın gənc müəllimləri, yuxarı kurs bakalavr, magistr və doktorant tələbələrdir.

Bildirilib ki, "AzTU texnoparkı - Bilişim Vadisi Bakı" şirkətlərin cəlbi yolu ilə ali təhsil sistemində innovasiya fəaliyyətinin dəstəklənməsi, eləcə də gənclərin bu istiqamətdə ideya və praktiki bacarıqlarının inkişaf etdirilməsi üçün əlverişli ekosistem yaratmağı hədəfləyir. Bu baxımdan inkubasiya və akselerasiya proseslərinə də dəstək veriləcək.

# Su qıtlığını aradan qaldırmağın sadə yolu:

## İTKİNİN QARŞISINI MAKSİMUM ALMAQ

**Son illərin qışı qış kimi keçmir. Qar yağmır, dağlıq ərazilərə düşən qar da əvvəlki kimi bol olmur. İlboyu başıqarlı görməyə alışdığımız dağlar indi hətta yanvar, dekabr aylarında belə boz görünür. Aran ərazilərə qarın düşməməsi isə bir ayrı dərddir. Bütün bunlardan sonra iş o yerə çatıb ki, mülayim və yağıntısız keçən qışda qar ehtiyatlarının toplanması azalır və bu da su qıtlığına gətirib çıxarır.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyindən verilən məlumata görə, qar-su ehtiyatlarının qiymətləndirilməsi məqsədilə Böyük və Kiçik Qafqazın yüksək dağlıq ərazilərində qarölçmə işlərinə başlanılıb. Milli Hidrometeorologiya Xidmətinin Hidrologiya Mərkəzinin direktoru Asif Verdiyev bildirib ki, mütəxəssislər tərəfindən Böyük Qafqazın Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, Quba, Qusar rayonlarının və Kiçik Qafqazın Daşkəsən, Gədəbəy, Göygöl, Kəlbəcər, Laçın, Şuşa, Xocavəndin ərazilərindən axan çayların hövzələrində aparılacaq qarölçmə işləri 31 martınıt üzrə 4 qrupdan ibarət ekspedisiya tərəfindən həyata keçiriləcək, qar örtüyünün hündürlüyü, çəkisi ölçülərək sıxlığı və suluğu təyin olunacaq. Martın 7-dən başlanan qarölçmə işi həmin ayın 17-dək davam edəcək.

Su qıtlığı bəşəriyyətin məhvinə səbəb olacaq fəlakətlərdəndir. Dünyanın hər yerində bu problemlə bağlı "SOS" siqnalı verilir və onu beynəlxalq səviyyədə aradan qaldırmağın yolları üzərində iş aparılır. Hər il bir ölkədə baş tutan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı (COP) da məhz bu məqsədə xidmət edir. Noyabrda Bakıda keçiriləcək COP29-un gündəliyində yer alan prioritetlərdən biri də su ehtiyatlarının toplanması istiqamətində görüləcək işlərə dəstək vermək olacaq.

Hər il Azərbaycanda su çatışmazlığı, onun yaratdığı problemlər barədə xəbərlər yayılır. Paralel olaraq həmin problemin həll edilməsi istiqamətində nəzərdə tutulan tədbirlər barədə məlumatlar verilir. Məsələn, belə məlumatların birində yağış və kanalizasiya sularının təmizlənib məişətdə, əkinçilikdə istifadə olunmasının mümkünlüyü bildirilib. Eləcə də dəniz suyunun duzsuzlaşdırılıb istifadəyə yararlı hala gətirilməsi də reallaşır. Həmçinin payız-qış aylarında torpağa düşən bol yağış və qar suyundan səmərəli istifadə edərək su ehtiyatı yaratmağın problemin həlli istiqamətində atılan vacib addım olduğu gündəmdədir.

Ötən həftə Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov Milli Məclisdə "Ölkənin su təsərrüfatı: problemlər və yeni çağırışlar" mövzusunda keçirilən dinləmələrdə bildirib ki, Azərbaycanda su ehtiyatı məhdududur: "Ölkənin yerüstü su ehtiyatları 30 milyard kubmetrdir ki, bunun da 30 faizi respublikada formalaşır, 70 faizi isə qonşu ölkələrdən daxil olur. Son illər baş verən iqlim dəyişiklikləri səbəbindən respublikamızda yerüstü su ehtiyatları kəskin azalıb, 2022-ci ildə cəmi 17 milyard kubmetr təşkil edib. Bu, çoxillik planlarımızın 57 faizidir. Bunun da 4,8 milyard kubmetri daxildə formalaşıb, qalanı isə qonşu ölkələrdən daxil olub. Yeni su mənbələrinin yaradılması tələb olunur. Tullantı sularının təchizatının yaxşılaşdırılması bizim siyasətin prioritet istiqamətlərindəndir". Sədr onu da vurğulayıb ki, işğaldan azad edilmiş ərazilərdə su anbarlarının tikintisi davam edir. Artıq Xaçınçay və digər su anbarlarının, suvarma kanallarının tikintisi başa çatdb, Şuşa şəhərində içməli su sisteminin yenidən qurulması işlərinə başlanılıb. Hazırda Xankəndi, Xocalı, Qubadlıda içməli su sistemləri qurulur və bərpa edilir.

Azərbaycanda su ehtiyatlarının azalması və onun fəsadlarının qarşısının alınması Prezident İlham Əliyevin də diqqətindədir. Dövlətimizin başçısı "Euronews" telekanalına verdiyi müsahibədə bu barədə belə deyib: "Bəli, düşünürəm ki, bu, bizim ümumi "yaşıl enerji" gündəliyimizin və məsuliyyət hissimizin bir hissəsini təşkil edir. Çünki qazıntı yanacağı ilə zəngin ölkələr "yaşıl enerji"yə keçiddə ön sıralarda olmalıdır. Biz bunu ənənəvi ehtiyatlarımız çatışmadığına görə etmirik, ona görə edirik ki, neft-qaz satışından əldə etdiyimiz maliyyədən, gəlirlərdən bərpaolunan enerjiyə sərmayə yatırmaq üçün istifadə etməklə töhfə verək və buna ehtiyacın olduğuna dair ümumi bir anlayış yaradaq. Biz hər il bunu Bakıda görürük. Hər il biz Xəzər dənizinin getdikcə daha da dayazlaşmasının şahidi oluruq. Dəniz kənarında, hətta burada Bakının mərkəzində yaşayan hər kəs bunu görür. Biz iqlim dəyişikliyinin fəsadlarını, təhlükəli fəsadlarını görürük, çaylarımızda su azalır, dağlarımızda qar azalır, Xəzər dənizində suyun səviyyəsi azalır. Əgər biz enerji və əzmlə bu məsələ ilə məşğul olmasaq, hamımız əziyyət çəkəcəyik".



Qeyd edək ki, 2023-cü ildə Azərbaycanda içməli suyun 39 faizi, suvarma suyunun isə 50 faizdən çoxu itkiyə gedib. Son 4 ildə içməli su itkisi 44 faizdən 39 faizə endirilsə də, bu, öyünülən rəqəm deyi. Deməli, bu sahədə görülən iş hələ çoxdur. Çünki su qıtlığını aradan qaldırmağın sadə və səmərəli yolu itkini maksimum azaltmaqdır.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Yanvar-fevral aylarında müavinət və Prezident təqaüdləri üzrə 290 milyon manat vəsait ödənilib




**Bu ilin yanvar-fevral aylarında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondu tərəfindən 460 min nəfərə sosial müavinətin, 396 min nəfərə Prezidentin aylıq təqaüdü ödənilib.**

Həmin dövrdə əhaliyə sosial müavinətlər üzrə 179 milyon, Prezident təqaüdləri üzrə 111 milyon manat ödənilib. Cari ilin iki ayında 27 min, sosial ödənişlərin elektron təyinatına başlandığı 2019-cu ildən 597 min müavinət və təqaüd təyinatı e-sistem üzərindən proaktiv qaydada həyata keçirilib.







# Mədəniyyət







**10 Mart Milli Teatr Günüdür**

# Teatr onun həyatının mənası idi

**Azərbaycan teatrı həmişə fəal mövqeyi ilə seçilmiş, insanların milli şüurunun inkişafına güclü təsir göstərmişdir. Dramaturgiya tariximizin hər bir inkişaf mərhələsində milli teatrımız orijinal aktyor məktəbi ilə əlamətdar olmuş, mahir səhnə mədəniyyətinə malik sənətkarlar və istedadlı rejissorlar nəsli yetişdirmişdir.**

Cahangir Zeynalov, Hüseyn Ərəblinski, Hacıağa Abbasov, Hüseynqulu Sarabski, Səməd Mənsur, Mirzağa Əliyev, Sidqi Ruhulla, Fatma Muxtarova, Ülvi Rəcəb, Mustafa Mərdanov, İsmayıl Osmanlı, Nəsibə Zeynalova, Leyla Bədirbəyli və başqa görkəmli teatr xadimlərinin fəaliyyəti sayəsində məhz teatrımız bir-biri ilə üzvi vəhdətdə olan iki xətt üzrə - Avropa və rus klassiklərinin, Azərbaycan dramaturqlarının əsərləri əsasında inkişaf etmişdir. Bu iki istiqamət ölkə teatrında millilikla bəşəriliyin, Şərq mentaliteti, sənət spesifikası ilə Avropa teatr ənənələrinin vəhdətini yaratmışdır. Bu vəhdət isə Azərbaycan mədəniyyətinin inkişafında mühüm rol oynayaraq onun xarakterik xüsusiyyətinə çevrilmişdir.

### Sələflərinin ənənələrini uğurla davam etdirən aktrisa

Görkəmli teatr xadimi, xalq artisti, səhnəmizin gözəllik pərisi Leyla Bədirbəylinin yaradıcılıq irsi hər zaman hamı tərəfindən yüksək dəyərləndirilmişdir. O, fitri istedada malik teatr ustası kimi ifa üslubundakı səmimiyyəti, məlahəti və təbiiliyi sayəsində dramaturqlarımızın və dünya ədəbiyyatı klassiklərinin çox sayda qadın qəhrəmanına zəngin boyalarla parlaq səhnə həyatı vermişdir. Leyla Bədirbəyli o unudulmaz sənətkarlarımızdandır ki, uzunmüddətli fəaliyyəti ərzində öz sələflərinin ənənələrini uğurla davam etdirmişdir. Aktrisa "Arşın mal alan" filmində Gülçöhrə obrazı ilə böyük şöhrət qazanmış, 1940-cı illərdən etibarən teatr səhnəsində və ekranlarda məharətlə canlandırdığı, mənəvi-əxlaqi dəyərlərin təbliği, tamaşaçı zövqünün formalaşdırılması baxımından əhəmiyyət kəsb edən silsilə rollarla milli teatr və kinematoqrafiyamızı daha da zənginləşdirmişdir. O, mənalı ömür yolunda çox rəsmi adlar, titullar qazanmışdı: "İstiqlal" ordeninə layiq görülmüş, Azərbaycanın Xalq artisti, görkəmli teatr xadimi, SSRİ və Azərbaycanın dövlət mükafatları laureatı olmuş və daha neçə-neçə adlara, mükafatlara layiq görülmüşdür.

Leyla xanım 1920-ci ildə o illərin gərgin siyasi hadisələri ilə qaynayan Bakıda dünyaya göz açmışdı. Əslən Şəmkirin Dəllər kəndindən idi. Atası Ağalar bəy də, anası Bikə xanım da Şəmkir bəyzadələrinin nəslindən sayılırdılar.

L.Bədirbəyli məktəbdə oxuya-oxuya dram, rəsm dərnəklərinə də gedirdi. Ədəbi gecələrdən, konsert mərasimlərindən qalmırdı. Beləcə, yavaş-yavaş o da ecazkar sənət aləminin doğma simasına çevrilirdi. 1937-ci ildə isə 17 yaşlı Leyla xanım Azərbaycan Dövlət Filarmoniyasında təşkil edilmiş rəqs ansamblına dəvət alır. Bundan sonra 1937-1942-ci illərdə ansamblın solisti kimi çalışmağa başlayır. Düz beş il burada zərif, incə rəqsləri ilə könülləri oxşayır. Elə burada sonralar "həyatımın günəşi" adlandıracağı böyük ustadla, dahi Üzeyir Hacıbəyli ilə tanış olur. Filarmoniyada mahnı və rəqs ansamblının yaradılması Üzeyir bəyin təşəbbüsü idi. Leyla xanım bu ansamblla 1938-ci ildə Moskvada keçirilən Azərbaycan incəsənəti ongünlüyündə də iştirak edir.

1941-ci ildə "Səbuhi" filmində Tubu, 1942-ci ildə "Sovqat" filmində Ayna rollarını canlandırır. O dövrün Adil İsgəndərov, Rza Təhmasib, İsmayıl Dağıstanlı, Mirzə İbrahimov, Ənvər Məmmədxanlı, Rəsul Rza kimi görkəmli teatr, kino, ədəbiyyat xadimləri bu gənc istedadın ifalarını, rollarını diqqətlə izləyirdilər. Onun yüksək aktrisalıq potensialını görürdülər və bu potensialdan istifadə etməyə çalışırdılar. Məhz bu korifeylərin məsləhəti ilə Leyla Bədirbəyli 1942-ci ildə M.Əzizbəyov adına Akademik Dram Teatrına gəlir. İlk tamaşası Rəsul Rzanın "Vəfa"sı olur.

### Səhnəmizin gözəllik pərisi

Leyla Bədirbəylinin M.İbrahimovun "Məhəbbət" tamaşasında Zəhra rolu böyük anşlaqla qarşılanır. Sonra isə A.Ostrovskinin "Tufan" əsərində Klaşa obrazını yaradır. Ardınca teatr səhnəsində "Pəri Cadu" tamaşasında Pəri, "Vaqif"də Gülnar və Xuraman, "Xanlar"da Mehriban, "Solğun çiçəklər"də Sara, "Almaz"da Almaz, "Şərqin səhəri" əsərində Dilarə, "Xoşbəxtlər"də İncə, "Əliqulu evlənir"də Qumral, "Kəndçi qızı"nda Göyərçin, "Uzaq sahillərdə" Anjelika, "Otello"da Dezdemona, "Canlı meyit"də Liza və digər rolları böyük məharətlə canlandırır.

Bir maraqlı faktı qeyd edək ki, 1945-ci ildə "Arşın mal alan" filmi çəkilməyə başlayanda Gülçöhrə roluna Leyla Bədirbəylidən başqa 100-dən artıq namizəd vardı. Sovet hakimiyyətinin qurulmasından ötən 25 il ərzində Azərbaycanda kifayət qədər qadın aktrisa yetişmişdi. Onların çoxu Gülçöhrə roluna çəkilmək imkanında idi. Bu rola çəkilmək istəyən aktrisaların hamısı sınaq çəkilişlərində olur. Ancaq Leyla Bədirbəyli heç bir sınaq çəkilişində iştirak etmir. Filmə isə yalnız Üzeyir bəyin dəvəti və təşəbbüsü ilə gəlir. Rza Təhmasib böyük bəstəkarın tövsiyəsini nəzərə alaraq Gülçöhrə roluna Leylanı çəkməyə razılıq verir. Leyla Bədirbəyli dünya ekranlarına çıxan "Arşın mal alan" filmində ən böyük sənət uğurlarından birinə nail olur.

Böyük sənətkar Gülçöhrə roluna görə dövrün ən böyük təltiflərindən olan "Stalin" mükafatına layiq görülür. Bütün Sovetlər İttifaqında bu mükafatı daşıyan üç qadından biri olur. "Arşın mal alan"a görə yaradıcı qrup, o cümlədən Leyla Bədirbəyli 1946-cı ildə SSRİ Dövlət mükafatına da layiq görülür.

Leyla Bədirbəylinin kinoda "Arşın mal alan"dan sonrakı aktrisa taleyi də yetərincə uğurlu keçir. Onun çəkildiyi filmlərin tematik dairəsi geniş, qəhrəmanları müxtəlifdir. O, əlliyə yaxın bədii, bədii-televiziya, qısametrajlı bədii filmdə çəkilir. O, həmişə yüksək insani keyfiyyətlərə malik milli koloritli qadınların obrazlarını yaradırdı. Onun "Fətəli xan" və "Koroğlu" filmlərində yaratdığı Tuti Bikə və Nigar obrazları təkcə sevimli ərlərinin etibarlı həyat yoldaşları deyil, həm də igid, cəsur məsləkdaşlarıdır.

### Sənətə sonsuz sevgi və məsuliyyət

Leyla xanımın teatr səhnəsində, kinoda, ekranda qazandığı bütün uğurların təməlində müstəsna istedadından başqa bir mühüm sirr də var. Bu, Leyla Bədirbəylinin öz sənətinə sonsuz sevgisi və bir o qədər də böyük məsuliyyəti idi. Teatr xadimləri xatırlayırlar ki, Cəfər Cabbarlının "Solğun çiçəklər" əsərində Sara rolunu oynayarkən sonuncu pərdə bitəndən sonra heç vaxt başqa aktyor və aktrisalarla birgə tamaşaçılarla sağollaşmaq üçün səhnəyə çıxmazdı. Səbəbini izah edəndə deyərmiş ki, axı tamaşanın finalında Sara ölüb, o, yenidən səhnədə necə görünə bilər?!

Böyük sənətkar istedadlı bir aktrisa kimi tamaşaçı qəlbini necə sehirlədiyinin fərqində idi. O, oynadığı rolun təsirinin tamaşadan sonra da qalmasını istəyirdi. Çalışırdı ki, tamaşaçılar teatr qapılarından o təsirlə çıxsınlar.



### Məşəqqətli və ilhamlı günlər

Həyatı ilə bağlı ona verilən sualı böyük sənətkar vaxtilə belə cavablandırmışdı: "Mənim həyatımı uzun bir yola bənzətsək, bu yol heç də həmişə hamar olmayıb. Sevinc dolu günlərim də olub, kədərli günlərim də. Bir sözlə, məşəqqətli və ilhamlı günlər yaşamışam. Amma heç vaxt sızıldayıb, ah-uf eləməmişəm".

İlk dəfə on altı yaşında ikən o zaman rəqqas kimi eyni səhnədə çıxış etdikləri Fərəc Cavanşirovla ailə həyatı qurmuşdu. Bir il sonra onların Cavanşir adlı oğlu dünyaya gəlmişdi. Amma bu evliliyin ömrü qısa çəkmişdi. Leyla xanım ikinci dəfə Kamil Aslanovla ailə həyatı qurmuşdu. Kamil Aslanov diş həkimi olsa da, rəqsə böyük maraq göstərirdi. O da Leylanı rəqs səhnəsində görüb bəyənir, elçi göndərir. Beləcə, xoşbəxt sayıla biləcək yeni bir ailə həyatının təməli qoyulur.

Əfsus ki, ömrün qürubuna doğru xoşbəxt günləri bir-birinin ardınca faciələr əvəz edir. Həyat yoldaşı Kamil Aslanov xaricdə ağır yol qəzasına düşür və həlak olur. Bu hadisədən bir il sonra isə aktrisanın böyük qızı Laləni Bakıda maşın vurur. O da 48 yaşında dünyasını dəyişir. Bu iki hadisədən sonra Leyla Bədirbəyli depressiyaya düşür. Özünə qapanır. Heç kimlə görüşmək, danışmaq istəmir. Yalnız 1999-cu il yanvarın 1-də bu böyük aktrisanın sənətinə, şəxsiyyətinə hər zaman yüksək dəyər verən Ulu Öndər Heydər Əliyev ona "İstiqlal" ordenini təqdim edərkən evdən çıxıb ictimaiyyət arasında görünür. Elə həmin il noyabrın 23-də 79 yaşında dünyadan köçür.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

**Klassik irsimiz**

# Poeziyamızın ağsaqqalı - Molla Vəli Vidadi

**Yüz, hətta bəzi mənbələrdə yüz ildən çox ömür sürdüyü yazılıb. Ancaq Molla Vəli Vidadi əsri adlayan yaşı ilə deyil, eyni zamanda müdriklik, dəyərli öyüd-nəsihətlər təlqin edən əsərləri ilə poeziyamızın ağsaqqalı hesab edilə bilər.**

O, 1709-cu il martın 17-də dünyaya gəlib. Uşaqlığı və ilk gəncliyi Şəmkirdə keçib. Təhsilini də orada alıb. Səfəvilər dövründə İranda yaşayan Həmzə sultanın nəslindən olan atası Məhəmməd ağa dövrünün savadlı, açıqfikirli adamlarından idi. Gələcəyin şairi uşaqlıq illərindən mükəmməl təlim-tərbiyə alıb. Atası vəfat etdikdən sonra Şəmkiri tərk edib, Qazaxa gəlib. Poyluda təhsilini davam etdirib. Ərəb, fars dillərini mükəmməl öyrənib. Poyludan Şıxlı kəndinə gedib. Orada mirzəlik və məktəbdarlıq edib. Buna görə Molla Vəli adı ilə tanınıb.

Şairin həyatı barədə ən dürüst mənbə sayılan əsərlərindən məlum olur ki, o, bir müddət Qarabağ xanlığında da yaşayıb, Tiflisdə İraklinin sarayında da xidmət edib. Hansı səbəbə görəsə, Tiflisdə həbs edilib. Həbsdən qurtulduqdan sonra Şıxlıya dönüb. Uzun ömrünün sonunadək həmin kənddə yaşayıb.

O, aşiqanə şeirlər də yazıb. Ancaq gördüyü haqsızlıqlardan, dövrünün hərc-mərcliyindən, bəylərin, ağaların zülmündən doğan qüssə, kədər, ümidsizlik, eləcə də mənəvi tənhalıqdan şikayət şair Molla Vəli Vidadinin yaradıcılığında əsas yer tutur. Bu duyğulara el-obasından kənarda yaşadığı vaxtlarda keçirdiyi qəriblik, el-oba həsrəti də əlavə olunub. "Dəli könül, gəl əylənmə qürbətdə", "Ey həmdəmim, səni qana qəra eylər", "Xəstə düşdüm, gələn yoxdur üstümə" kimi şeirlərini həmin hisslərlə qələmə alıb.

*Dəli könül, gəl əylənmə qürbətdə,*
*Bir gün olur vətən deyib ağlarsan.*
*Yadlar ilə ömür çürür həsrətdə,*
*Bir gün olur vətən deyib ağlarsan.*

- deyən şair vətəninə, yurduna bağlılığını səmimi şəkildə əks etdirib.

Ümumiyyətlə, hansı mövzuda, necə bir ovqatda yazmasından asılı olmayaraq, Molla Vəli Vidadinin bütün əsərlərinə səmimiyyət hakimdir.

Molla Vəli Vidadi realist şairdir. Şair vətənini çox sevdiyini, əməyə, zəhmətsevərlərə böyük ehtiram bəslədiyini şeirlərində əks etdirib.

Şair həm heca, həm də əruz vəznində əsərlər yazıb. Şeirləri öz dövründə dillər əzbəri olub. "Müsibətnamə" əsərini isə Molla Vəli Vidadi Şəki xanı Hüseyn xan Müştaqın faciəli ölümünə həsr edib.

Haqqında yazılanlara görə elmi, savadı ilə, mənəvi keyfiyyətləri, dürüstlüyü, haqqsevərliyi ilə müasirləri arasında böyük hörmət qazanan Molla Vəli Vidadi vaxtının çoxunu ibadətdə keçirirmiş. Bu məziyyətlərinə görə o, sayılıb-seçilir, xətri əziz tutulurdu. Amma bu möhtərəm insandan narazı qalanlar da az olmayıb.



Molla Vəli Vidadinin dərin kədəri, mənəvi əzabı müasiri, dostu, bəzi mənbələrə görə hətta qohumu olan Molla Pənah Vaqiflə məşhur deyişməsində də təsvir olunub. Vaqif özündən yaşlı şairi könlündə dünyanın dərdinə, əzab-əziyyətinə yer verdiyi üçün qınayırdı:

*Ey Vidadi, sənin bu puç dünyada*
*Nə dərdin var ki, zar-zar ağlarsan?*
*Ağlamalı günün axirətdədir,*
*Hələ indi səndə nə var, ağlarsan?*

Şair Vidadi isə hələ gənclik havası ilə yanıb-tutuşan şair Vaqifə öyüd-nəsihət edirdi:

*Ağlamaq ki, vardır, məhəbbətdəndir,*
*Şikəstəxatirlik mərhəmətdəndir,*
*Əsl bunlar cümlə mürüvvətdəndir,*
*Olsa ürəyində, betər, ağlarsan!*

Molla Vəli Vidadi yüz yaşında, 1809-cu il mayın 13-də Qazaxda, Şıxlı kəndində dünyadan köçüb.

Molla Vəli Vidadinin şeirləri kitab şəklində ilk dəfə 1939-cu ildə nəşr olunub. Şairin əsərlərini Həmid Araslı lüğət və şərhlərlə birlikdə 1977-ci ildə təkmilləşdirilmiş şəkildə çap etdirib. Bir sıra əsərləri rus dilinə və digər dillərə tərcümə olunub. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli qərarı ilə Molla Vəli Vidadi Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısına daxil edilib.

Araşdırıcılar Azərbaycan ədəbiyyatının klassik nümayəndələrindən olan şairin irsinin az qisminin məlum olduğunu qeyd ediblər. Ancaq bu əsərlər də Molla Vəli Vidadinin adını Azərbaycan ədəbiyyatı tarixində yaşada bilib.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

**Sənət dünyası**

# Xalçaçı rəssam



**Cəfər Müciri Azərbaycan xalça sənətinin inkişafında yaddaqalan işlər görüb. O həm Azərbaycan xalça sənətinin araşdırılması və tədqiqi, həm də yeni xalça çeşnilərinin və nümunələrinin yaradılması istiqamətində uğurlu fəaliyyət göstərib.**

Xalçaçı rəssam, ornament ustası və tədqiqatçı alim kimi C.Müciri Azərbaycan xalça sənəti tarixində bu gün ən məşhur imzalardan biri olaraq yaşamaqdadır. O, həmçinin ədəbiyyata bağlı adam olub, Cənubi Azərbaycanda yaşayan soydaşlarımızın həyatından bəhs edən hekayələr kitabını nəşr etdirib. Eyni zamanda Cənubi Azərbaycanda azadlıq hərəkatına aid bir neçə kitabları işıq üzü görüb. Bu il xalçaçı rəssam və xalçaşünas alim Cəfər Mücirinin (1919-2001) anadan olmasının 105 ili tamam olur.

C.Müciri Cənubi Azərbaycanın Təbriz şəhərində anadan olub. Uşaqlıq və yeniyetməlik illəri bu şəhərdə keçib. O, xalça sənətinin sirlərini 14 yaşından Təbrizdə xalça fabrikində öyrənib. 17 yaşında Təbriz İncəsənət Məktəbini bitirib. C.Müciri Azərbaycan Xalçaçılıq İdarəsinin "İncəsənət" fabrikində əvvəlcə toxucu, baş usta, sonra isə eksperimental laboratoriyanın rəhbəri vəzifəsində işləyib. Xalça texnologiyasının dərin bilicisi kimi fabrikdə çalışdığı dövrdə irəli sürdüyü səmərələşdirici təkliflər ağır əl əməyini xeyli asanlaşdırıb. Onun ilməni mütərəqqi üsulla vurmaq, mürəkkəb çeşnili xalçaların toxunmasında dəmir dəzgahlardan istifadə etmək və s. bu kimi təklifləri xalçaçılıq sənayesinin inkişafına böyük töhfələr verib. Vaxtilə ölkəmizdə Qazax rayonunda, Nardaran qəsəbəsində və başqa bölgələrdə xalçaçılıq sexlərinin və fabriklərinin yaradılmasında C.Mücirinin böyük əməyi olmuşdur. C.Müciri Azərbaycan xalçaçılıq sənəti tarixində xalçaçılıq texnologiyaları sahəsində ən məşhur mütəxəssislərdən biri olub. O, xalça sənayesi texnologiyası sahəsində bir sıra kitab və dərsliklər yazıb nəşr etdirib. Xalçaçı alimin belə kitablarından "Hafiz və incəsənət" (1971, ərəb qrafikasında), "Azərbaycan xalçaları" (1981), "Azərbaycan xalçaçılığının texnoloji üsulları" (1977, 1983 rusca, 1987), "Araz sahilində" (1987, hekayələr) və başqalarını qeyd etmək olar. Xalçaşünas alim "İran Azərbaycanının xalçaçılıq sənəti (XIX və XX əsrlər)" mövzusunda namizədlik dissertasiyasını uğurla müdafiə etmişdir. O, elmi işində Cənubi Azərbaycanda xalçaçılıq sənətinin yaranması, inkişaf yolları, toxuma sənəti və digər məsələləri elmi şəkildə araşdırıb tədqiq etmişdir.

C.Müciri özünün əsərlərində Cənubi Azərbaycan xalçaçılıq ənənələrini davam etdirib. Onun müəllifi olduğu 40 xalça əsəri ərsəyə gəlib. Hansı ki, onlardan 19-nu müəllif şəxsən özü toxuyub. Bu xalça nümunələri orijinallığı, özünəməxsus ornament və rəng həlli ilə fərqlənirlər. C.Mücirinin müəllifi olduğu süjetli və ornamental xalçalardan "Fərhad və Şirin" (Nizami Gəncəvinin "Xosrov və Şirin" poeması əsasında), "Məhəmməd Füzuli", "İmadəddin Nəsimi-600", "Nəriman Nərimanov", "Ləçək-turunc", "Təbriz-buta", "Güldanlı", "Açma-yumma", "Əlixanlı", "Mərəzə", "Ödüc" və başqalarının adlarını qeyd etmək olar. Xalçaçı rəssamın yaradıcılığının zirvəsini "Saib Təbrizi" adlı xalçası təşkil edir. Ustad bu əsər üzərində səkkiz ilə yaxın işləmişdir. Respublikamızı kəndbəkənd gəzərək ən yaxşı qoyun, keçi, dəvə yun növlərini toplamışdır. Xalçaçılıq sənətində ilk dəfə olaraq boyanmamış saplardan "Saib Təbrizi" adlı nadir xalça nümunəsini toxuyub ərsəyə gətirmişdir.





C.Mücirinin bənzərsiz xalça əsərləri dəfələrlə İngiltərədə, İtaliyada, Almaniyada, Fransada müxtəlif sərgilərdə nümayiş olunmuş, ölkəmizin xalça sənətinin şöhrətini dünyada artırmışdır. O, kamil xalça ustası kimi müxtəlif xalçaçılıq məktəblərinin kanonlarını öyrənib bədii yaradıcılığında inkişaf etdirmişdir. Xalçaçı rəssam, ornament ustasının Bakıda xalçalarından ibarət yubiley sərgisi təşkil olunmuşdur.

C.Müciri haqqında araşdırmalar apararkən onun övladı Sevda Müciri ilə əlaqə saxladıq. O, hazırda Avropada Budapeşt şəhərində yaşayır. Atası haqqında xoş xatirələrini danışdı. Həmçinin Xalq rəssamı, xalça ustası Eldar Mikayılzadə ilə C.Müciri haqqında söhbətləşəndə o, "Cəfər müəllim mənim müəllimim olub. Sonradan müəllim-tələbə münasibətləri möhkəm dostluğa çevrilib. O, əsl ziyalı idi" deyə söylədi.

C.Müciri özünün zəngin bədii, ictimai, elmi və pedaqoji yaradıcılıq fəaliyyəti ilə Azərbaycan xalçaçılıq sənəti tarixində və mədəniyyət aləmində əbədi yaşayacaqdır. Cümlələrimizi C.Mücirinin Azərbaycan xalçaçılıq sənəti haqqında dediyi müdirik fikirlərlə tamamlayırıq: "Azərbaycan xalqı nəsil-nəsil yaşadıb kamilləşdirdiyi ulu xalçaçılıq sənətini xalq tətbiqi sənət növlərinin ağsaqqalı adlandırır, onu çox sevir, özü də həmişə təkmilləşməsinə çalışır".

*Əsəd QULİYEV,*
*sənətşünas, Rəssamlar İttifaqının üzvü*

## Tbilisidə azərbaycanlı qadınların rəsm və əl işlərindən ibarət sərgi açılıb

**Tbilisidəki M.F.Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyində Gürcüstanda yaşayan azərbaycanlı xanımların rəsm və əl işlərindən ibarət "Rənglərin ahəngi" adlı sərgi açılıb.**





Sərgidə Azərbaycan qadınlarının, eləcə də uşaqların 35-dən çox rəsm əsəri və Azərbaycan mədəniyyətini, musiqisini, incəsənətini və mətbəxini əks etdirən 25-dən çox əl işləri nümayiş etdirilib.

Muzeyin elmi işçisi, təşkilatçı Leyla Əliyeva sərginin açılışında deyib ki, bu cür tədbirlərin təşkilində məqsəd Azərbaycanın qədim mədəniyyətini təbliğ edən qabaqcıl qadınları irəli çəkmək, onların cəmiyyətə inteqrasiyasına yardım göstərməkdir.

Ölkəmizin Gürcüstandakı səfirliyinin məsul əməkdaşı Ramiz Hacıyev Azərbaycanın qədim tarixə malik mədəniyyətindən danışıb. Bildirib ki, Gürcüstanda yaşayan azərbaycanlı qadınların əl işlərindən ibarət sərginin təşkili həm mədəniyyətimizin təbliğində, həm də qadın rəssamların və xalq yaradıcılığı ustalarının üzə çıxarılmasında mühüm rol oynayır. Onun sözlərinə görə, səfirlik hər zaman bu cür tədbirlərin təşkilinə dəstək göstərib və bundan sonra da davam edəcək. Sərginin açılışında Azərbaycan səfirliyinin əməkdaşları, Tbilisi bələdiyyəsinin deputatları, mədəniyyət və incəsənət ustaları, rəssamlar, tələbələr, hər iki ölkənin ictimaiyyət nümayəndələri iştirak ediblər.

## Milanda "Şuşa. Naxışların rəqsi" adlı Azərbaycan rəqəmsal incəsənət sərgisi nümayiş olunub

**Milan şəhərində "Mezo Art" rəqəmsal incəsənət qrupu, İtaliyanın MEET Mədəniyyət Mərkəzi və "Cariplo" Fondunun birgə təşkilatçılığı ilə "Şuşa. Naxışların rəqsi" ("Shusha. Dance of symbols") rəqəmsal sərgisinin açılış mərasimi keçirilib.**

Sərginin açılış mərasimində MEET Mədəniyyət Mərkəzinin qurucusu Maria Qratsia Mattei və müasir Asiya incəsənəti üzrə ixtisaslaşmış, Çikaqodan olan kurator Culi Volş çıxış edərək "2024. İstanbul Rəqəmsal İncəsənət Festivalı" haqqında məlumat verib, bugünkü sərginin Azərbaycanın mədəni irsini rəqəmsal formata çevirməsi, incəsənət həvəskarlarını unikal səyahətə çıxarması barədə danışıblar.

"Şuşa" süni zəka layihəsinin yaradıcısı Nabat Qaraxanova layihənin ərsəyə gəlməsi barədə qonaqlara ətraflı məlumat verib, bu sərginin texnologiyanın sərhədlərini aşaraq Azərbaycanın tarixi və mədəni zənginliyini sənətsevərlərə təqdim etməsi, əsrlər boyu İpək yolunu formalaşdıran mədəni təsirlərin rəqəmsal aləmə gətirilməsi, Azərbaycanın ənənəvi incəsənətini gələcəyə ötürməsi barədə danışıb.

Tədbirdə Azərbaycanın İtaliyadakı səfirliyinin, habelə Türkiyənin Milandakı




baş konsulluğunun nümayəndələri, İtaliyanın mədəniyyət, mətbuat və akademik dairələrinin əməkdaşları və bu ölkədə yaşayan azərbaycanlılar iştirak ediblər. Sərgidə "Şuşa" adlı süni zəka tərəfindən Azərbaycanın zəngin və müxtəlif mədəni irsi əsasında yaradılmış rəqəmsal incəsənət əsərləri, xüsusən milli motivləri əks etdirən kəlağayılar nümayiş olunub.

## Milli Teatr Günü ilə əlaqədar virtual və ənənəvi sərgi təqdim edilib

**Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə hər il martın 10-u ölkəmizdə Milli Teatr Günü kimi qeyd olunur.**



Bununla əlaqədar Azərbaycan Milli Kitabxanasının əməkdaşları "10 Mart - Milli Teatr Günü" adlı virtual və eyniadlı ənənəvi sərgini istifadəçilərə təqdim ediblər.

Sərgidə fotolar, mövzu ilə bağlı kitab və məqalələr nümayiş olunur. Ənənəvi sərgi 1 həftə davam edəcək.

## "Antiqona" tamaşası yenidən səhnədə



**Martın 16-da Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının səhnəsində "Antiqona" tamaşası növbəti dəfə nümayiş olunacaq.**

Səhnə əsərinin quruluşçu rejissoru Əməkdar artist Nofəl Vəliyev, rəssamı Telman Şıxıyev, bəstəkarı Röya Hüseynovadır. Plastik həll isə Ceyhun Dadaşovundur.

Fransız dramaturqu Jan Anuyun eyniadlı əsəri əsasında hazırlanan tamaşada Əməkdar artist Güşvər Şərifova, aktyorlar Kərəm Hadızadə, Aygün Fətullayeva, Anar Seyfullayev, Rəşad Səfərov, Əbdül Rzayev, Hilal Dəmirov, Şəbnəm Hüseynova, Könül Əbilova, Fəridə Qurbanova, Ramiq Nəsirov, İlhan Sadıqov, Nurlan Süleymanlı, Ümman Budaqov iştirak ediblər.

Müəllifin 1943-cü ildə, II Dünya müharibəsinin qızğın çağında qələmə aldığı və indiyədək bir çox ölkədə tamaşaya qoyulan "Antiqona"nın mövzusu antik ədəbiyyatdan gəlsə də, bütün dövrlərlə səsləşən əsərdir.

## Dünya olduğu kimi

# Ən qədim çörək

**Dünyanın ilk urbanizasiya yerlərindən biri hesab edilən Türkiyənin Çatalhöyük bölgəsində aparılan qazıntılar zamanı 8 min 600 illik çörək tapılıb.**

O, Konya şəhərinin Çumra rayonunda yerləşən və Neolit dövründə təxminən 8 min insanın birlikdə yaşadığı Çatalhöyükdə girişi yuxarıdan olan, bir-birilərinə bitişik kərpic evlərin olduğu "Mekan 66" adlı ərazidəki sobada aşkar edilib.



Əksər hissəsi dağılmış sobanın ətrafında buğda, arpa, noxud toxumu və qida ola biləcəyi ehtimal edilən ovuc içi böyüklüyündə tapıntıya rast gəlinib. Aparılan təhlillər nəticəsində tapıntının eramızdan əvvəl 6600-cü ilə aid olan mayalı çörək olduğu müəyyən edilib.

Tapıntı ilə bağlı açıqlama verən türkiyəli mütəxəssis Ali Umut Türkcanın sözlərinə görə, indiyədək belə bir nümunəyə rast gəlinməyib. "Çatalhöyükdəki bu tapıntının dünyanın ən qədim çörəyi olduğunu söyləyə bilərik. Bu orqanik qalıqla bağlı aparılan müşahidələr, təhlillər və müəyyən edilən tarix nəzərə alınarsa, onun təxminən 8 min 600 illik bir çörək olduğunu deyə bilərik. Mayalanıb, amma sobaya verilməyib. Tərkibindəki nişastalarla bu günə qədər gəlib çatıb", - deyə mütəxəssis qeyd edib.

# II Ramzesin heykəlinin hissələri tapılıb

**Misir-ABŞ arxeoloqlar qrupu Misirin Minya şəhərinin cənubunda aparılan qazıntılar zamanı firon II Ramzesin nəhəng heykəlinin yuxarı hissəsini aşkar ediblər. Bu barədə Misirin Turizm və Antik Əsərlər Nazirliyi məlumat verib.**



Missiyanın Misir komandasının rəhbəri Bassem Cihad verdiyi açıqlamada bildirib ki, əhəngdaşı blokunun hündürlüyü təqribən 3,8 metrdir. Onun içərisində üzəri fironun hakimiyyətinin rəmzi olan kobra ilə örtülmüş, ikiqat tac taxaraq əyləşmiş II Ramzesin heykəli var. B.Cihadın sözlərinə görə, heykəlin arxa sütununun yuxarı hissəsində qədim Misirin ən güclü fironlarından biri olan II Ramzesi vəsf edən heroqlif yazılar var. Heykəlin yuxarı hissəsi 1930-cu ildə alman arxeoloqu Günter Röder tərəfindən kəşf edilmiş aşağı hissəyə uyğundur.

Böyük Ramzes kimi də tanınan Misirin on doqquzuncu sülaləsinin üçüncü fironu eramızdan əvvəl 1279-1213-cü illərdə hökmranlıq edib. Heykəlin bütöv ölçüsü onun onilliklər əvvəl qazılmış alt hissəsi ilə birləşdikdə təxminən 7 metrə çatacaq.

Qeyd etmək lazımdır ki, arxeoloqlar qrupu heykəlin hər iki hissəsi birləşdirildikdə onun necə görünəcəyini modelləşdirməzdən əvvəl bloku təmizləməyə və bu prosesə hazırlaşmağa başlayıb.

# Günəş sistemində yeni peyklər aşkarlanıb

**Yaponiya Milli Astronomiya Rəsədxanasının alimləri digər ölkələrdən olan həmkarları ilə birlikdə "Subaru" teleskopundan istifadə edərək Günəş sistemində üç yeni peyk aşkar ediblər. Uranın yeni "S/2023" peyki sayəsində buzlu nəhəng planetin məlum peyklərinin ümumi sayı 28-ə çatıb. Onun diametri cəmi səkkiz kilometrdir.**



Neptunun yeni kəşf edilmiş iki peykinin ən parlağı "S/2002 N5" təqribən 23 kilometr ölçüdədir və planetin ətrafında orbitini tamamlamaq üçün doqquz il fırlanır. Planetin digər yeni peyki "S/2021 N1" təxminən 14 kilometr ölçüdədir və 27 illik orbital yoluna malikdir. Bu son dərəcə zəif obyekt ilk dəfə 2021-ci ildə kəşf edilib. Bu iki yeni peykin kəşfi Neptunun məlum peyklərinin ümumi sayını 16-ya çatdırıb.

Yeni peyklər Uran və Neptun ətrafında xarici peyklərin dinamik orbital qruplarının da olduğunu göstərir. Bu qruplar bir zamanlar daha böyük olan ana peyklərin kometlər və ya asteroidlərin keçmiş təsirləri nəticəsində parçalandığını, həmçinin daha böyük cisimlərin olduğu orbitlərdə qırıq fraqmentlərin qaldığını göstərir.

# Avropanın ən iri məzarlığı

**Almaniyanın Nürnberq şəhərində yeni yaşayış evlərinin tikintisindən əvvəl aparılan arxeoloji qazıntılar zamanı kütləvi məzarlıq aşkar edilib.**

Məzarlıqda taun xəstəliyi qurbanlarına aid 1500-dən çox insana məxsus 1000-dən çox sümük tapılıb. Arxeoloqlar onun Avropada tapılan ən iri məzarlıq ola biləcəyini bəyan edirlər.

Nürnberq İrsin Qorunması Departamentinin nümayəndəsi Melani Lanqbeynin sözlərinə görə, aşkarlanan 8 dərənin hər birində yüzlərlə insan sümüyü var.



"Bu insanlar adi qəbiristanlıqda dəfn olunmayıblar. Xristianların dəfn mərasimlərindən asılı olmayaraq, böyük sayda meyitləri qısa müddət ərzində basdırmaq lazım idi. Ehtimal ki, məhz kütləvi məzarlıqların səbəbi taundur", - deyə M.Lanqbeyn bildirib.

XIV əsrdən başlayaraq Nürnberqdə hər on ildən bir taun yayılırdı. Bu da insan qalıqlarının tarixini müəyyən etməyi çətinləşdirir. M.Lanqbeynin sözlərinə görə, 1634-cü ilin qeydləri də aşkarlanıb. Qeydlərdə 1632-1633-cü illərdə 15 mindən çox insanın həyatına son qoyan taun xəstəliyinin yayılması ətraflı təsvir olunur. Həmçinin 2 minədək insanın Müqəddəs Sebastyan xəstəxanasının yanında, indiki qazıntıların yerində basdırıldığı deyilir.

# Xirosimada tapılan saat hərracda satılıb

**ABŞ-nin Boston şəhərində fəaliyyət göstərən "RR Auction" hərrac şirkəti 1945-ci il avqustun 6-da Yaponiyanın Xirosima şəhərinə atılan atom bombası nəticəsində əriyən saatı satışa çıxarıb. Atom bombası partladığı zaman saat 08:15-də dayanıb, həmin saat 31 min 113 dollara satılıb.**



Nüvə silahlarının yaratdığı dağıntılarda aşkar olunan saatı alan şəxsin adı açıqlanmayıb. "RR Auction"nın açıqlamasında saatın atom bombası hücumundan sonra yardım vəzifəsi üçün bölgəyə gedən bir ingilis əsgəri tərəfindən xarabalıqlardan tapıldığı qeyd edilib.

Qeyd etmək lazımdır ki, ABŞ tarixdə ilk dəfə 1945-ci il avqustun 6-da Yaponiyaya qarşı atom bombasından istifadə edib. Təxminən 140 min insanın həyatını itirdiyi Xirosimaya hücum zamanı yüz minlərlə insan yaralanıb, radiasiya səbəbindən insanlarda xəstəliklər yaranıb. Yaponiya 3 gün sonra, yəni avqustun 9-da ikinci atom bombası hücumuna məruz qalıb və bununla da Naqasakidə böyük dağıntılar baş verib. Atom bombaları nəticəsində 200 mindən çox insan həyatını itirib.

# "Titanik"in qapısı hərraca çıxarılacaq

**"Titanik" filminin son səhnəsindəki qapı 40 min dollara hərraca çıxarılacaq. Söhbət filmin qəhrəmanı Keyt Uinsletin üzərinə çıxaraq xilas olduğu qapıdan gedir. Hərrac martın 20-dən 24-dək keçiriləcək.**




Hərrac təşkilatçılarının sözlərinə görə, taxtanın uzunluğu 2,44, eni isə 1,04 metrdir.

Filmin pərəstişkarları dəfələrlə sonluqla bağlı mübahisələr apararaq bildiriblər ki, birlikdə suyun üzərində üzən qapı üzərində yerləşsəydilər, hər iki personajı xilas etmək mümkün olardı. Lakin "Titanik"in direktoru Ceyms Kemeron deyib ki, qapı cütlüyün ağırlığını daşımayacaqdı və nəticədə batacaqdı.

# 1300 illik məzar

**Mərkəzi Amerika ölkəsi olan Panamada 1300 ildən çox yaşı olduğu təxmin edilən məzar aşkar edilib.**



Bu barədə Panama Mədəniyyət Nazirliyinin Mədəni İrs üzrə Milli Direktoru Linette Monteneqro mətbuata açıqlama verib. O, Kokle əyalətindəki El Kano arxeoloji sahəsində qazıntıların 2008-ci ildən davam etdiyini bildirib.

Qədim məzarda iki cəsəd, keramika, qolbaq, sırğa, qızılla örtülmüş çanta və müxtəlif boyunbağılar tapılıb. Məzarın dövrün hökmdarına aid olduğu təxmin edilir.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*


## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


ƏZİZ QADINLAR, BAYRAMINIZ MÜBARƏK!
RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
Xoşbəxt qadın güclü cəmiyyətin təməlidir
Prezident İlham Əliyev Beynəlxalq Qadınlar Günü ilə bağlı paylaşım edib
Mərhəmətin zərif rəmzi
COP29 ilə əlaqədar Təşkilat Komitəsinin ikinci iclası keçirilib
Milli maraqlara zidd olan əməllərin qarşısı qətiyyətlə alınır
Azərbaycan "yaşıl enerji"nin həm də tranzitini həyata keçirəcək
Özbəkistan və Qazaxıstan barpaolunan enerjilərini ölkəmiz üzərindən ixrac edəcəklər
Qərbin antiazərbaycançı şəbəkəsi ifşa olunur
azerbaijan-news.az

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Paytaxtda Novruz bayramı ilə əlaqədar ümumşəhər iməciliyi keçirilib







**Yaz mövsümünün başlanması və xalqımızın ən əziz bayramlarından olan Novruz bayramı ərəfəsində Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən martın 9-da paytaxt Bakıda "Novruz bayramını təmiz şəhərlə qarşılayaq" devizi altında ümumşəhər iməciliyi keçirilib.**

AZƏRTAC Bakı Şəhər İcra Hakimiyyətinin (BŞİH) Mətbuat xidmətinə istinadən bildirir ki, BŞİH-nin qurumlarının əməkdaşlarının iştirakı ilə səhər saatlarından başlanan iməcilik paytaxtın bütün rayonlarını əhatə edib. İməcilikdə şəhərin kommunal xidmətləri tərəfindən prospekt və küçələrin, səki kənarlarının, bordürlərin və işıq dirəklərinin, yol kənarındakı məhəccərlərin, park və istirahət yerlərində oturacaqların yuyulması həyata keçirilib.

Meriyanın çağırışına qoşulan ictimai-iaşə, ticarət və digər obyektlərin əməkdaşları da iməcilikdə yaxından iştirak edərək öz obyektlərinin vitrinlərini təmizləyib, ətrafında səliqə-sahman yaradıblar. Eyni zamanda müəssisə, idarə və təşkilatların kollektivləri, şəhər sakinləri bu iməcilikdə fəal şəkildə iştirak ediblər.

Bakı Şəhər Yaşıllaşdırma Təsərrüfatı Birliyi əməkdaşları tərəfindən əsas magistral yol və prospektlərin kənarlarındakı ağacların üzərinə toplanan toz-torpaq yuyulub, onların dibi yumşaldılıb, qurumuş budaqları budanıb. Mövsümlə əlaqədar ağaclara və yaşıllıq sahələrinə aqrotexniki qulluq göstərilib, təbii gübrələr verilib. Eyni zamanda şəhər ərazisində Abşeron iqliminə uyğun yeni ağaclar, kollar, güllər əkilir, yaşıllıq zolaqları və parklarda qazon örtüyünün yenilənməsi aparılır.

Bakı şəhər kommunal təsərrüfat xidmətlərinin texnikası əsas küçə və prospektlərin bitki və canlılara ziyansız yuyucu maddələrlə yuyulmasını aparıb, əməkdaşlar tərəfindən həyət və yaşayış məhəllələrində, məişət tullantılarının atıldığı konteyner meydançalarının ətrafında əlavə təmizlik işləri görülüb.

# Hayastanda kişi qıtlığı artıb

## Məğlub ölkə borc içində çabalayır

**Ötən ilin sonları və cari ilin ilk 3 ayında Hayastan iqtisadiyyatında qeydə alınan tənəzzül daha da sürətlənib. Ölkənin xaricdən maliyyə asılılığı da sürətlə artır. Hayastanın dövlət borcu artıq 12 milyard ABŞ dollarına çatıb.**



"4rd.am" nəşri yazıb ki, borc məbləğinin artmasının səbəbi Hayastanın ötən il iqtisadi böhrandan tam çıxa bilməməsi və iqtisadiyyatı stimullaşdırmaq üçün əlavə tədbirlərə ehtiyacın olmasıdır. Dünyanın bütün ölkələrinin dövlət borcu var. Problem bunda yox, onun sürətli artım tempində və vəsaitlərdən effektiv istifadədədir. Xüsusi halda, cari ilin 3 ayı ərzində hökumət dövlət borcunu 2,5 faiz artırıb, halbuki 2023-cü ilin yanvar-oktyabr aylarında Ermənistanda iqtisadi fəallıq 5,2 faiz təşkil edib. Hazırda Ermənistanın hər bir vətəndaşına 3 min ABŞ dollarından çox borc düşür. Bu vəziyyətdə iş yerlərinin bağlanması, artan inflyasiya əhalinin ölkədən yeni köçünə rəvac verir.

Məhz belə bir vaxtda aparılan hesablamalar göstərir ki, son 6 ayda Ermənistanda əhalinin təbii artımı min nəfərə çatmır. Bundan başqa, təbii artımın azalmasına ermənilərin kütləvi şəkildə ölkəni tərk etməsi də ciddi təsir göstərir.

Dünya Bankının hazırladığı hesabatda məlumat verilir ki, Hayastanda təxminən hər 3 qadına 2 kişi düşür. Məlumatda deyilir ki, Ermənistan əhalinin cinsi tərkibinə görə dünyada ən acınacaqlı vəziyyətdədir. Belə ki, hazırda Hayastanda əhalinin 55 faizdən çoxu qadınlardır. Məlumatda o da qeyd edilir ki, keçmiş sovetlər ölkələri qadınların sayına görə dünyada öndə gedir. Məsələn, Ukrayna qadınların ən çox olduğu ikinci ölkədir. Belə ki, bu ölkədə qadınlar əhalinin 54,08 faizini təşkil edir. İlk üçlüyü isə digər bir keçmiş sovet respublikası Belarus qapadır. Bu ölkədə zərif cinsin nümayəndələri əhalinin 53,96 faizini təşkil edir. Rusiyada da qadınlar kişilərdən çoxdur. Şimal qonşumuzun əhalisinin 53,56 faizi qadınlardır.

Rusiyadan sonra siyahıda müvafiq olaraq Latviya (53,62 faiz) və Litva (53,03 faiz) yer alıb. Reytinqdə son pillələri Körfəz ölkələri tutur. Qadın əhalinin ən aşağı nisbəti Qətərdədir (27,49 faiz). BƏƏ-də faiz bir qədər yüksəkdir (30,62 faiz). Növbəti sırada isə Bəhreyn qərarlaşıb - 38,04 faiz.

Əsasən reproduktiv yaşda olan kişilər və qadınlar da daxil olmaqla, daha çox gənc ailələr ölkəni tərk edirlər. Bu da qısa müddətdə ölkənin demoqrafiyasında mənfi nəticələrə gətirib çıxarır. "4rd.am" portalı bu xüsusda yazır: "Miqrasiya sahəsində ötənilki rekordun bu il artacağı tamamilə mümkündür. Emiqrasiya prosesinin yalnız Rusiya ilə məhdudlaşmadığı məlumdur. Həm də aydındır ki, ölkədən getmək üçün reproduktiv yaşda kişilər və qadınlar da daxil olmaqla, əsasən gənc ailələr mühacirət edirlər. Bu, artıq qısa müddətdə ölkənin demoqrafiyasını aradan qaldırıla bilməyən mənfi nəticələrlə təhdid edir".

Ölkədə ötən illərə nisbətən xeyli pisləşən sosial-iqtisadi vəziyyət, yaxın perspektivdə həlli görünməyən siyasi böhran əhalinin gələcəklə bağlı bütün ümidlərini məhv edib. Elə bu səbəbdən həyatını Hayastandan kənarda davam etdirmək istəyənlərin sayı artır. Rəsmi rəqəmlərə əsasən, Hayastanda əhalinin sayı 2,9 milyon nəfərdir. Lakin ermənilərin özləri etiraf edirlər ki, reallıqda bu göstərici xeyli azdır. Çünki rəsmi qeydiyyatda olan əhalinin tərkibinə xaricdə yaşayan, ancaq Hayastan vətəndaşlığından çıxarılmayan şəxslər də daxildir. Hayastan hökumətinin demoqrafiya probleminin həlli üçün həyata keçirdiyi siyasət, o cümlədən əhali artımını stimullaşdırmaq üçün elan etdiyi proqramlar faktiki olaraq, iflasa uğrayıb.

Beləliklə, proseslər Hayastanın sürətlə məhvinə doğru yaxınlaşdığını bir daha təsdiqləyir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4298
Sifariş 516

Qiyməti 60 qəpik